www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 dekabr 2015-ci il Cümə № 270 (6298) Qiymәti 40 qәpik

Xəbər

## Ciddi xəbərdarlıq: manat əldən gedir...

yazısı səh.3-də

Gündəm

## Əliyev və Davudoğlu Bakıdan önəmli mesajlar verdilər



"Heç bir dövlət Türkiyə və Azərbaycan qədər yaxın deyil", deyən Əhməd Davudoğlu Bakıdaykən Putin Ankaranı hədələdi; İlham Əliyev: "Azərbaycanla Türkiyə bütün məsələlərdə bir yerdədir..."

yazısı səh.9-da

## Moskva Qafqazdakı "barıt çəlləyi"nə od vurmaq istəyir

yazısı səh.11-də

## Dərsə getməyən uşaq üçün valideynə 100 manat cərimə-əks reaksiyalar

yazısı səh.10-da

## Hüquq diplomlu antihüquqçular...

yazısı səh.13-də

## Qaz savaşı qızışır: Kreml Tehranı Ankaranın müttəfiqinə çevirir

yazısı səh.8-də

## "Dərnəgül bazarı" iflas həddində

yazısı səh.15-də

## Hacı Məmmədovun ifadəsini Ali Məhkəmə araşdırmalıdır

yazısı səh.13-də

## Vətəndaşlıqdan çıxarılma-hüquqşünas qanuna qarşı

yazısı səh.3-də

## MTN-in həbsdəki generalının şikayəti rədd edildi

yazısı səh.12-də

## Leyla Yunusun səhhəti daha da pisləşib

yazısı səh.12-də

## "Türk axını" layihəsi rəsmən dayandırıldı

yazısı səh.4-də

## Xədicə İsmayılın həbsindən bir il ötür

yazısı səh.12-də

## Milli Məclisin komissiya sədri "od püskürdü"

# DEPUTATIN RƏSULZADƏNİ TƏHQİR ETMƏSİ BU GÜN PARLAMENTDƏ MÜZAKİRƏ OLUNACAQ

**Milli Məclisin İntizam Komissiyasının sədri:** "Nə qədər təhsilsiz, mədəniyyətsiz olasan ki, Rəsulzadəni düşmən adlandırasan"; vəkillər Naqif Həmzəyevi məhkəməyə verir; YAP-çı deputatı hansı cəza gözləyir...




yazısı səh.6-da

# Eldar Mahmudov niyə həbs edilmir-səbəblər və sərt suçlamalar

**Fəzail Ağamalı:** "Quldurları MTN-ə yerləşdirməklə nəzarəti itirib və daha böyük cinayətə yol verib"

yazısı səh.5-də



*Məşədi Natiq:*

## "Camaata deyirəm silahınız varsa, mənə verin..."

yazısı səh.7-də



## Rəsul Quliyev bütün müxalifət liderlərini istefaya çağırdı

yazısı səh.6-da



## Ermənistan yenə qarışdı: Sərkisyana qarşı etirazlar güclənir

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 270 (6298) 5 dekabr 2015

## Evlənmək istəyən gənclərin 161 nəfərində siflis tapıldı

**İyunun 1-dən indiyədək nikaha daxil olmaq istəyən 65138 nəfər məcburi müayinəyə cəlb olunub. Onların arasında 161 nəfərdə siflis, 45 nəfərdə İİV infeksiyası, 4213 nəfərdə isə talassemiya daşıyıcılığı aşkar edilib.**

Bu barədə virtualaz.org saytına Səhiyyə Nazirliyindən məlumat veriblər.

Qeyd edək ki, Nazirlər Kabinetinin qərarı ilə iyunun 1-dən ailə qurmaq istəyənlər məcburi müayinədən keçirilirlər.

Cütlüklərdə əsasən talassemiya aşkarlanır. Ümumilikdə, Azərbaycanda talassemiya geniş yayılıb. Hazırda hər 12 nəfərdən 1-nin talassemiya daşıyıcısı olduğu güman edilir. İki daşıyıcının uşağının xəstə doğulma riski var. Bu risk doğuş zamanı 25 faiz təşkil edir. Hazırda Azərbaycanda daşıyıcıların tezliyi 8 faizdir.

Siflisə gəldikdə isə respublikanın baş dermatovenerolоqu, Tibb Universitetinin dəri-zöhrəvi kafedrasının müdiri, professor Zülfüqar Fərəcov virtualaz.org saytına müsahibəsində siflisə yoluxanların sayının ötən ilə nisbətən artdığını təsdiqləmişdi.

Bu ilin 8 ayında 445 siflis xəstəsi qeydiyyata alınıb. Xəstələrin sayının artmasının bir səbəbi də xəstəliyin aşkarlanması ilə bağlıdır. Belə ki, nikahdan əvvəl cütlüyün müayinəyə cəlb edilməsi nəticəsində də xəstələr aşkarlanıb və statistikanın artmasına təsir edib.

HİV infeksiyasına yoluxanlar də Səhiyyə Nazirliyi tərəfindən qeydiyyata götürülüblər.

## Həmsədr ölkələr Belqradda Dağlıq Qarabağla bağlı bəyanat yaydı

**"Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində vasitəçiliyə sadiq qalırıq". APA-nın məlumatına görə, bu barədə ATƏT Nazirlər Şurasının Belqradda keçirilən iclasında Rusiya, ABŞ və Fransa nümayəndə heyətlərinin rəhbəri - Rusiya xarici işlər naziri Sergey Lavrov, ABŞ dövlət katibi Con Kerri və Fransanın Avropa məsələləri üzrə dövlət naziri Harlem Desirin birgə bəyanatında deyilir.**

"Biz ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşkilatçılığı ilə Azərbaycan prezidenti İlham Əliyev və Ermənistan prezidenti Serj Sərkisyan arasında qarşıda gözlənilən görüşü dəstəkləyirik. Baş verən son gərginliklərin fonunda biz tərəfləri münaqişənin sülh yolu ilə həll prosesinə sadiqliyi təkrar nümayiş etdirməyə və sülh prosesində ciddi olmayan istənilən yanlış təsəvvürləri danışıqlar yolu ilə dağıtmağa çağırırıq. Tərəflər 2014-cü ildə hərtərəfli həlli nəzərdə tutuan Soçi, Uels və Paris görüşlərindəki danışıqları, 2016-cı ildə də hazırda danışıqlar prosesində olan təkliflər üzrə intensiv dialoqu davam etdirməlidirlər", - deyə bəyanatda bildirilir.

## "Suriyada Rusiyaya yer yoxdur"

**«Suriyada Rusiyaya yer yoxdur». "Trend"in "TRT Haber" telekanalına istinadən verdiyi məlumata görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**

Onun sözlərinə görə, Suriya xalqı ilə Türkiyəni çox şey birləşdirir, belə ki, vaxtilə Suriya ərazisi Osmanlının tərkibinə daxil olub.

Prezident qeyd edib ki, Suriyada etnik türklər yaşayırlar və bu, Türkiyənin Suriya ilə bağlı fəal siyasət yürütməsinin amillərindən biridir.

Virtualaz.org xatırladır ki, bu gün Belqradda Rusiyanın xarici işlər naziri Sergey Lavrovla Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu arasında görüşün keçiriləcəyi gözlənilir.

Yaranmış məlum gərginliyin yumşaldılmasına xidmət edəcək həmin görüş ATƏT-ə üzv dövlətlərin xarici işlər nazirlərinin illik toplantısı çərçivəsində keçiriləcək.


"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.40 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Qanuna dəyişiklik Allahşükür Paşazadəyə şamil edilməyəcək

**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin dekabrın 2-də Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə birgə keçirdiyi iclasında "Dini etiqad azadlığı haqqında" Qanuna dəyişikliklər edilməsi qərara alınıb.**



Dəyişikliyə görə, İslam dininə aid ayin və mərasimlərin aparılması yalnız Azərbaycan vətəndaşları tərəfindən həyata keçirilə bilər.

Yeni layihədə xaricdə dini təhsil almış Azərbaycan vətəndaşlarına İslam dininə aid ayin və mərasimlərin aparılması qadağan edilir.

Qadağa cəmiyyətdə birmənalı qarşılanmayıb. Azərbaycanda fəaliyyət göstərən məscidlərin axundlarının, eyni zamanda Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri şeyxülislam Allahşükür Paşazadənin də məhz xaricdə təhsil alması və yeni qanuna əsasən, onların ölkədə keçirilən dini mərasimləri apara bilməməsi müzakirə mövzusu olub.

Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov modern.az saytına açıqlamasında bu məsələyə aydınlıq gətirib.

**O qeyd edib ki, qadağa qanuna dəyişiklik qüvvəyə mindikdən sonra xaricdə təhsil alıb ölkəyə qayıdacaq insanlara şamil edilir:** "Allahşükür Paşazadə Özbəkistanda təhsil alanda biz eyni dövlətin tərkibində idik. Ona görə də şeyxin təhsili xaricdə təhsil kimi qiymətləndirilə bilməz.

Ayrı-ayrı dövrlərdə müxtəlif ölkələrdə təhsil alıb qayıdaraq Azərbaycanda dini ayinlərin yerinə yetirilməsi ilə məşğul olan şəxslərə gəldikdə, biz bununla əlaqədar müvafiq qərar qəbul edəcəyik.

Həm Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, həm Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə bu məsələr götür-qoy ediləcək və konkret qərar qəbul olunacaq. Birmənalı olaraq qanuna dəyişiklik qüvvəyə minəndən sonra xaricdə təhsil alan şəxslər Azərbaycanda dini mərasimləri apara bilməyəcək. Dəyişikliyə qədər olanlarla bağlı isə müəyyən aydınlaşdırmalar aparılacaq və ortaq məxrəcə gələnəcək".

## Şeyx: "Kim Tale Bağırzadə kimilərinin yanında olacaqsa..."

**"Nardaranda baş verənlər bizi məyus etdi. Hadisələr zamanı biz müraciət yaydıq. Baş verənlərin dinə aidiyyəti yoxdur. Bu, dövlət çevrilişinə cəhd, terrordur. Biz bunu qəti şəkildə pisləyirik".**

Bunu Qafqaz Müsəlmanları İdarəsinin sədri Hacı Allahşükür Paşazadə deyib.

O qeyd edib ki, Azərbaycanda dövlət din üçün hər cür şərait yaradıb: "Kim Tale Bağırzadə kimilərinin yanında olacaqsa, bu, nankorluqdur, dövlətə, dövlət başçısına qarşı olmaq deməkdir. Nardaranda bəzi dindarlar, ağsaqqallar var. Bir qrup adam onların inamından istifadə edib. O adamlar nardaranlı deyil. Ulu öndərin vaxtında Nardaranda 40-a yaxın insanın həbsdən buraxılması, ziyarətgahın bərpa edilməsində rolumuz oldu. Bir növ sülh yarada bildik. Heyfsilənirəm ki, bu məsələ sonradan həllini tapa bilmədi. Artıq bir neçə gündür güc yolu ilə həll olunur. Bu, düzgün qərardır. Bu məsələnin həllində biz aciz qaldıq" (APA).

## Bütün məscidlərə müşahidə kameraları qoyulacaq

**"Azərbaycandakı məscidlərdə vebkameralar quraşdırılacaq, təhlükəsizlik tədbirləri gücləndiriləcək". Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.**

Komitə sədri bildirib ki, Lənkəran rayonunda, habelə bir çox rayonlarda fəaliyyət göstərən məscidlərin axundlarına radikal qruplar tərəfindən təzyiqlər edilib və nəticədə axundlar zəiflik göstərərək minbəri radikal qruplara verib: "Bu halların baş verdiyi məscidlərin siyahısı bizdə var. Kim olur olsun, lap 50 nəfər onlar, bir nəfər sizsinizsə, minbəri və mikrofonu heç kimə verməyin. Məscid müqəddəs yerdir. Məscidin minbərini heç kimə, o cümlədən də radikal qruplara vermək olmaz. Əgər radikal qruplar sənin əlindən minbəri alırsa, deməli, sənin orada qalmağa mənəvi haqqın yoxdur".

Komitə sədri qeyd edib ki, bu cür hallar baş verən zaman mütləq hüquq-mühafizə orqanlarına xəbər verilməlidir (APA).




## «Bakcell» şirkəti «Tesla» və «189» taksi xidməti ilə birlikdə ilk "ağıllı avtomobil" təqdim etdi

«Bakcell» stendinin ziyarətçiləri "Ulduzum" proqramı vasitəsilə taksi xidməti üçün 20% endirim qazanır

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti Tesla və 189 Taksi xidməti ilə birlikdə "BakuTel 2015" sərgisində öz Wi-Fi internet xidmətinin funksional imkanlarını nümayiş etdirir.**

**«Bakcell» stendində nəqliyyat vasitələrində Wi-Fi şəbəkəsinin quraşdırılmasına həsr olunmuş xüsusi guşə yaradılıb. Stendin ziyarətçiləri ən son Tesla avtomobilini və avtomobil texnologiyası ilə mobil operatorun necə birlikdə çalışa bildiyini görəcəklər.**

**189 Taksi xidməti «Bakcell»in ən böyük korporativ müştərilərindən biri və "Ulduzum" sadiqlik porqramının əsas partnyorudur. Bu taksilərdən istifadə edən sərnişinlər pulsuz olaraq «Bakcell»in yüksək sürətli Wi-Fi xidmətindən yararlana bilirlər.**

**Bunun üçün «Bakcell» abunəçiləri 189 taksi xidmətinin avtomobillərində «Bakcell»in Wi-Fi şəbəkəsinə qoşulduqdan sonra öz nömrələrini daxil etməli və SMS vasitəsilə aldıqları kodu yığmalıdırlar. Qoşulmanın aktivləşdiyi andan etibarən pulsuz internet bir saat ərzində limitsiz istifadə oluna bilər. Bu xidmətdən istənilən «Bakcell» abunəçisi və ya rouminqdə olarkən «Bakcell» şəbəkəsinə qoşulan abunəçi yararlana bilər.**

**"BakuTel" sərgisi zamanı Bakı Ekspo Mərkəzindən istənilən nöqtəyə taksi sifariş edən «Bakcell» abunəçiləri "Ulduzum" kodu vasitəsilə 20% endirim əldə edirlər. "Ulduzum" guşəsinin ziyarətçiləri həmçinin monitorda 2D formatında "Rəqəmsal Caynaqlı Kran" (Digital Claw Crane) oyununda caynağı müxtəlif istiqamətlərdə hərəkət etdirməklə proqramın tərəfdaşları tərəfindən təqdim olunan hədiyyələr əldə edir.**

**«Bakcell» şirkəti "BakuTel 2015" sərgisinə gələn bütün ziyarətçiləri öz stendinə dəvət edir və onlara xoş və əyləncəli mühitdə ən son texnologiyalardan istifadə etmək imkanı vəd edir.**

## Con Kerri Qarabağ haqda danışdı

**ATƏT Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında qətiyyət nümayiş etdirməlidir.**

«Trend»in məlumatına görə, bunu ABŞ dövlət katibi Con Kerri Belqradda ATƏT Xarici İşlər Nazirləri Şurasının iclasında deyib.

O qeyd edib: "Moldovada, Gürcüstanda dondurulmuş münaqişələr, Ermənistan-Azərbaycan münaqişəsi hələ də nizamlanmayıb".

## BP Azərbaycanda neft hasilatını azaltdı

**«BP-Azerbaijan» şirkəti 2015-ci ilin 9 ayında AÇG (Azəri-Çıraq-Günəşli) blokundan 23,6 mln ton və ya 175 mln. barel neft çıxarıb. Ötən ilin eyni dövründə bu göstərici 24,2 mln. ton və ya 179 mln. barel olub.**

Bu barədə BP-Azerbaijan şirkətinin hesabatında bildirilir.

Göründüyü kimi, hasilat 600 min ton və ya 4 mln. barel azalıb.

Sutkalıq orta hasilat 640 min barel olub. Bu, ötən ilin eyni dövründəkindən 15,7 min barel azdır.

2014-cü ildə «BP-Azerbaijan» şirkəti AÇG blokundan 31,5 mln. ton, 2013-cü ildə 32,2 mln. ton neft çıxarıb.

2015-ci il sentyabrın sonunda 88 istismar və 42 texniki quyudan hasilat olub. Bir il əvvəl bu göstərici 77 və 36 idi. ("Turan")

## "İŞİD ABŞ üçün xüsusi təhlükə yaratmır"

**"İŞİD terror təşkilatı ABŞ üçün xüsusi təhlükə törətmir". "Qafqazinfo"nun APA-ya istinadən verdiyi məlumata görə, bunu ABŞ prezidenti Barak Obama CBS kanalına müsahibəsində deyib.**

"İŞİD "əl-Qaidə" kimi təhlükəli təşkilatdır. Amma biz öz müdafiəmizi olduqca möhkəm edirik. Mən dəfələrlə demişəm ki, yalnız İŞİD-ə qorxu ilə cavab verəcəyimiz və həyat tərzimizi dəyişəcəyimiz halda onlar qalib gələ bilər".

## "Bank of Azerbaijan"dan sensasion açıqlama

**Uzun müddətdir ki, fəaliyyətsiz qalan "Bank of Azerbaijan" nəhayət ki, yaxın vaxtlarda fəaliyyətini bərpa etməyə hazırlaşır.**

Bu barədə fins.az-a bankdan məlumat verilib. Bankdan bildirilib ki, hazırda bank fiziki və hüquqi şəxslərə verdiyi kreditlərin məbləğini azaltmaqla məşğuldur.

"Bankın müştərilərdən təxminən 25 milyon manat alacağı var. Bunlar problemli kreditlərdir. Amma həmin kreditlərin əksəriyyətinin girov təminatı var. Əsasən də daşınmaz əmlaklar girov qoyulub. Hazırda girovların satışını həyata keçiririk. Yəgin ki, yanvar ayının sonuna qədər "Bank of Azerbaijan" kreditləşməni və digər bank xidmətlərinin göstərilməsini bərpa edəcək" - deyə bank rəsmisi bildirib.

Bankdan "Bank of Azerbaijan"da yerləşdirilmiş əmanətlərin taleyi barədə də məlumat verilib: "Əmanətləri əlimizə pul gəldikcə qaytarırıq. Elə də çox qalmayıb".

Xatırladaq ki, "Bank of Azerbaijan" son vaxtlar üzləşdiyi maliyyə problemləri ilə gündəmdədir. Bank məşhur iş adamı Hafiz Məmmədova məxsusdur.

YENİ MÜSAVAT
N 270 (6290) 4 dekabr 2015



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Vətəndaşlıqdan çıxarılma - hüquqşünas qanuna qarşı çıxdı

## Qanundakı ilginc boşluqlar, yol verilən pozuntular barədə ekspert rəy verdi

**Xəbər verdiyimiz kimi, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna dəyişiklik ediləcək. Bununla bağlı layihə dekabrın 2-də Milli Məclisin komitələrinin birgə iclasında müzakirə olunub. Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi ilə bağlı 18-ci maddəyə yeni əlavələr (3-1, 3-2) edilməlidir. Layihəyə görə, terrorda iştirak, konstitusiya quruluşunun zorla dəyişdirilməsi hərəkətlərinin həyata keçirilməsi də vətəndaşlığın itirilməsi ilə nəticələnəcək.**

"Yeni Müsavat" isə xatırladır ki, 2014-cü ilin mayında da bu məsələ Milli Məclisin iclasında müzakirə edilmişdi. Həmin vaxt təklif olunan dəyişikliklərdə qeyd olunmuşdu ki, digər dövlətin vətəndaşlığını qəbul edən, xarici ölkənin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində xidmət edən, dövlət təhlükəsizliyinə ciddi zərər vuran davranışa yol verən şəxslər Azərbaycan vətəndaşlığından məhrum oluna bilər.

**Son dəyişikliklərlə bağlı hüquqşünas Müzəffər Baxışın maraqlı təhlili var. M.Baxış "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu məsələ hələ 2010-cu ildə də müzakirəyə çıxarılmışdı. "Azərbaycan vətəndaşlığı haqqında" Qanunun 18-ci maddəsinə "Azərbaycan vətəndaşlığının itirilməsi" ilə bağlı dəyişiklik edildi. Həmin maddəyə əsasən, vətəndaşlığın itirilməsi haqqında 1961-ci il 30 avqust tarixli konvensiyanın müddəaları nəzərə alınmaqla aşağıdakılar Azərbaycan respublikası vətəndaşlığının itirilməsi üçün əsas hesab edilirdi:**

*Azərbaycan Respublikası vətəndaşının digər ölkə vətəndaşlığını könüllü əldə etməsi;*

*Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, silahlı qüvvələrində könüllü xidmət etməsi;*

*Azərbaycan Respublikası vətəndaşının dövlətin təhlükəsizliyinə ciddi zərər vuran davranışı;*

*Azərbaycan Respublikası vətəndaşlığı əldə edən şəxsin vətəndaşlığa qəbul olunmaq üçün zəruri olan məlumatı qəsdən saxtalaşdırması və ya qəsdən saxta sənəd qəbul etməsi.*

**Müsahibimiz xatırlatdı ki, əvvəl ancaq sonuncu hal vətəndaşlığın itirilməsi üçün əsas kimi qəbul olunmuşdu. Amma son versiyada daha 3 hal da buna əlavə olunub. Hüquqşünasın fikrincə, bu, sadəcə, ifadə dəyişməklə Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilmə sayılır:** "Bu, konstitusiyanın 53-cü maddəsinin 1-ci bəndi ilə ziddiyyət təşkil edir. Çünki burda qeyd olunur ki, Azərbaycan Respublikası vətəndaşı heç bir halda vətəndaşlıqdan məhrum edilə bilməz. Amma sadalanan hallar ifadəni dəyişməklə məhrum etməkdir. Yəni mən başqa ölkənin vətəndaşlığını qəbul edərəmsə və ya hansısa xarici dövlətdə rəsmi vəzifə daşıyaramsa, onlar məni vətəndaşlıqdan məhrum edirlər. Bunların heç bir hüquqi əsası yoxdur".

M.Baxış onu da xatırlatdı ki, "Azərbaycan vətəndaşlığı haqqında" Qanunun 18-ci maddəsinin 2-ci bəndi aşağıdakı kimi idi: "Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi məsələsi bu qanunun 17-ci maddəsinin 2-ci və 3-cü hissəsində göstərilən məhdudiyyətlər nəzərə alınmaqla həll edilir. İndi isə 30 sentyabr 2015-ci il tarixdə həmin qanunun 18-ci maddəsinin ikinci hissəsinə belə dəyişiklik oldu: Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi məsələsi bu qanunun 17-ci maddəsinin 2-ci və 3-cü hissəsində göstərilən məhdudiyyətlər nəzərə alınmaqla məhkəmə yolu ilə həll edilir".

**Hüquqşünas vurğuladı ki, hazırda bu məsələnin prosedur qaydaları müəyyənləşməyib. Amma gedişat göstərir ki, bu cür hallarda məhkəməyə müraciət olunacaq, məhkəmə qətnamə qəbul edəcək:** "Sovetlər dövründə bizdə Azərbaycan Respublikası vətəndaşlığından məhrumetmə cəza kimi nəzərdə tutulmuşdu. Ola bilsin ki, bu məsələləri yenidən Cinayət Məcəlləsində bərpa edəcəklər. Bu məsələ məhkəmədə həll olunacaq.




Saxta sənəd təqdim etmədən başqa bütün hallarda bu məsələ konstitusiya ilə ziddiyyət təşkil edir. Qanun birmənalı göstərir ki, heç bir halda vətəndaş Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilə bilməz. Bu, terrorçuluqla məşğul olma və digər hallardır. Bu, qanunun özündə göstərilən, vətəndaşlığın ixtisar edilməsi haqda 1961-ci ilin 30 avqust tarixli Konvensiyanın müddəalarına ziddir. Amma bunlar yalandan deyirlər ki, həmin müddəalara uyğunlaşdırmaq üçün ediləcək. Guya konvensiyada deyilir ki, vətəndaşlıq halları azaldılsın. Məsələn, Müzəffər Baxışov terrorçuluqla məşğul olub. Mən vətəndaşlığımı itirdim və düşdüm vətəndaşlığı olmayan şəxs durumuna. Bunu da konvensiya qadağan edir".

M.Baxış dedi ki, qanunu hazırlayanlar nə konvensiyaya, nə konstitusiyaya, nə də normativ hüquqi aktlara əməl edirlər: "Ağıllarına gələni çıxarırlar. Bu, qanunsuz təkliflərdir və heç bir qanuni əsası yoxdur".

Bu günə qədər Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) sədri Emin Hüseynov, habelə Ələkrəm Hümmətov Azərbaycan vətəndaşlığından çıxarılıb. Ölkəmizdə bununla bağlı çoxlu sayda örnəklər yoxdur. Amma bu gün qəbul olunacaq qanunla sözügedən nümunələrin sayının artacağı da istisna deyil.

❑ **Sevinc TELMANQIZI**

# Ciddi xəbərdarlıq: manat əldən gedir...

## Ölkə daxilində və qlobal valyuta bazarında baş verənlər Azərbaycanda üzən valyuta siyasətinə keçidi qaçılmaz edir

**Amerikanın ən nüfuzlu banklarından olan "Bank of Amerika Merrill Lynch" Azərbaycan Mərkəzi Bankını manatın kursunu süni şəkildə stabil saxlamaq siyasətindən imtina etməyə çağırıb. Bankdan bildirilib ki, Azərbaycan Mərkəzi Bankının manatın kursunu istənilən yolla sabit saxlamaq istəyi ona baha başa gəlib və tezliklə bundan imtina etməlidir.**

Məlumatda deyilir ki, neftin qiymətinin kəskin düşməsi bir sıra milli valyutaların da dəyərdən düşməsinə səbəb olub. Kanada dollarından Norveç kronuna, Qazaxıstan təngəsindən Rusiya rubluna qədər bir çox valyutalar ABŞ dollarına nisbətdə dəyər itirib. Belə vəziyyətdə mərkəzi banklar fərqli taktikalar tətbiq edirlər. Rusiya Mərkəzi Bankı rublun kursunu sərbəst buraxaraq strateji valyuta ehtiyatlarına dəyən zərbəni yumşalda bilib. Bu, həmçinin Rusiyanın neft şirkətlərinin maliyyə göstəricilərinə də müsbət təsir edib. Neftin qiyməti kəskin ucuzlaşdıqdan sonra Qazaxıstan da bu siyasətə qoşulub.

Lakin bütün bu baş verənlərin fonunda Azərbaycan manatının kursu dəyişməz qalıb. Azərbaycan Mərkəzi Bankı (AMB) fevral ayında qəfil devalvasiya həyata keçirdi. Bu, ixracın əsas hissəsini neftin təşkil etdiyi ölkəyə baha başa gəldi. Ancaq sonrakı müddətdə Mərkəzi Bank manatın kursunu strateji valyuta ehtiyatlarından bazara intervensiya etməklə sabit saxlayıb.

"Bank of America" qeyd edir ki, Azərbaycan manatın məzənnəsini qorumaq üçün öz ehtiyatının 25 faizini sərf edib. Lakin ABŞ bankı hazırkı vəziyyətdə bu siyasətin davam etdirilməsinin real olmadığını bildirib. Bank manata yenidən 30-35 faiz devalvasiya lazım olduğunu qeyd edib.

Belə bir proqnoz verərkən «Bank of America» iki amili - neftin qiymətinin düşməsini və qonşu ölkələrin milli valyuta məzənnəsinin enməsini nəzərə aldığını bildirib.

"İndiki situasiyada, neftin qiymətinin düşmə tendensiyasını davam etdirdiyi bir vaxtda bu monetar siyasətin davam etdirilməsi qeyri-real görünür. Azərbaycan manatın kursunu dollara nisbətdə sabit saxlamaq siyasətini yaxın müddət ərzində dəyişməlidir: ya manatın yenidən 30-35 faiz devalvasiyasını həyata keçirməlidir, ya da Rusiya və Qazaxıstan kimi sərbəst üzən məzənnə siyasətini tətbiq etməlidir"- deyə məlumatda bildirilir.

Qeyd edək ki, manatın saxlanılması siyasəti nəticəsində Mərkəzi Bankın ötən ilin iyul ayından bu yana Mərkəzi Bankın valyuta ehtiyatları 60 faiz azalıb.



**Mövcud situasiya fonunda Amerika bankının xəbərdarlığını dəyərləndirən iqtisadçı alim Vüqar Bayramov da Mərkəzi Bankın məzənnə siyasətinə dəyişiklik etməsinin vacibliyini vurğulayaraq, əks halda, valyuta ehtiyatlarının tükənəcəyini bildirib:** "Doğrudur, Azərbaycanın manatla bağlı siyasətinin dəyişməsinə ehtiyac var. Mərkəzi Bankın ehtiyatlarının 6 milyard dollara yaxınlaşması da böyük bir siqnal kimi qiymətləndirilməlidir ki, artıq yeni məzənnə siyasətinə keçidə ehtiyac var. Mərkəzi Bank manatın məzənnəsində dəyişikliklər etməlidir. AMB üçün məqbul siyasət məhz "üzən məzənnə" siyasətinin tətbiq edilməsidir. "Üzən məzənnə" siyasətinin tətbiq edilməsi qaçılmazdır. 2016-cı ildə Mərkəzi Bankın "üzən məzənnə" siyasətinə keçəcəyi istisna edilmir. Təbii ki, bu, sərbəst "üzən məzənnə" siyasəti olmayacaq, tənzimlənən məzənnə siyasəti olacaq. Mərkəzi Bank yenə də valyutanın tənzimlənməsində aparıcı mövqeyini qoruyub saxlayacaq. Bazarda manatın məzənnəsinin formalaşmasında yenə də aparıcı tərəflərdən biri olacaq. Ancaq məzənnəni bazar müəyyənləşdirəcək. Mərkəzi Bank o zaman müdaxilə edəcək ki, manatın məzənnəsi ilə bağlı ciddi təhlükə var və ya bazarda dollara, digər xarici valyutaya olan tələbat ödənilmir. O halda Mərkəzi Bank manatın məzənnəsinin saxlanılması üçün bazara müdaxilə edə bilər. Bu, artıq idarə olunan, tənzimlənən "üzən valyuta siyasəti" olacaq".

**Ekspert bildirdi ki, hazırda digər ölkələrdə də üzən valyuta siyasəti tətbiq olunur:** "Məsələn, Rusiya, Qazaxıstan, Ukrayna da üzən valyuta siyasətinə keçib. Burada məqsəd Mərkəzi Bankın valyuta ehtiyatlarına qənaət etməkdir. Çünki valyuta ehtiyatları tükənə bilər. İkinci məqsəd isə qonşu ölkələrdəki valyutaların məzənnəsinə uyğun olaraq, Azərbaycanda kursun bazar tərəfindən müəyyənləşdirilməsini həyata keçirməkdir. Çünki qonşu ölkələrdə Azərbaycanın ticarət tərəfdarlarında məzənnələrin necə dəyişməsi manatın kursuna da təsir göstərəcək. Bu da eyni zamanda ölkənin ixrac potensialı baxımından vacibdir.

Eyni zamanda üzən valyuta rejimi həm də ona görə vacibdir ki, gələcəkdə neftin qiymətində artım olarsa, Azərbaycanın tədiyyə balansında profisit genişlənərsə, bu, artıq manatın bazar tərəfindən müəyyənləşdirilmiş məzənnəsinin möhkəmlənməsinə gətirib çıxarar".

**Vüqar Bayramov mövcud situasiyanı nəzərə alaraq Mərkəzi Bankın 2016-cı ildə "üzən valyuta" siyasətini tətbiq edəcəyini istisna etmədi:** "Bunun tətbiq edilməsi ona gətirib çıxaracaq, manata psixoloji təzyiqlər olacaq. Bu da manatın məzənnəsinə təsir göstərəcək. Güman edilir ki, psixoloji təzyiq olduğuna görə, üzən məzənnəyə keçidin ilk günlərində manat daha çox ucuzlaşacaq, lakin sonradan stabilləşməyə doğru gedəcək. Bizim qiymətləndirmələr ondan ibarətdir ki, manatın məzənnəsi 20 faiz ətrafında ucuzlaşa bilər. Eyni zamanda bu həm də neftin dünya bazarındakı qiymətindən və ölkəyə daxilolmalardan asılı olacaq. Bütövlükdə, əgər xarici valyutaya kəskin tələblər olarsa, o zaman artıq Mərkəzi Bank yenidən bazara müdaxilə edib, manatın məzənnəsini nəzərdə tutulmuş intervalda qoruyub saxlamağa çalışacaq.

Valyuta ehtiyatlarının azalması dünya bazarında dolların möhkəmlənməsi, xüsusən də qlobal valyuta bazarında baş verən dəyişikliklər onu deməyə əsas verir ki, Azərbaycanda üzən valyuta siyasətinə keçid praktiki olaraq qaçılmazdır. Bu, Azərbaycanın valyuta bazarındakı gərginliyin azalmasına gətirib çıxaracaq".

**Ekspert Amerika bankının bildirdiyi kimi, Mərkəzi Bankın tam sərbəst valyuta rejiminə keçməsini mümkün hesab etmədi:** "Digər region ölkələrinin təcrübəsi də onu göstərir ki, tənzimlənməyən üzən məzənnə siyasətinə keçilməsi gündəmdə deyil. Mərkəzi Bankın tədiyyə bazarında indi də profisit var. Yəni, tənzimlənən üzən məzənnə rejiminə keçilsə belə, manatın məzənnəsi kəskin aşağı düşməməlidir. Rəsmi statistikaya əsasən, ölkəyə daxil olan məzənnədən ölkədən çıxan məzənnədən daha çoxdur. Ancaq Mərkəzi Bankın birmənalı şəkildə tənzimlənməyən rejimə keçidi indiki məqamda gözlənilməsə də, bu, sonradan baş verə bilər. Ancaq indiki halda Mərkəzi Bank bazara müdaxilə edəcək".

❑ **Nərgiz LİFTİYEVA**





# Ermənistan yenə qarışdı: Sərkisyana qarşı etirazlar güclənir

## Mübariz Əhmədoğlu: "Rusiya Ermənistanda konstitusiya dəyişikliyindən narazıdır, hakimiyyətin vəziyyəti ağırlaşacaq..."

**Dekabrın 6-da Ermənistanda konstitusiya dəyişikliyi üçün referendum keçiriləcək. Referendum prezident-parlament respublikasından parlament respublikası idarə üsuluna keçidi nəzərdə tutur. Sənədə görə, dövlət başçısını - prezidenti parlament 7 il müddətinə seçəcək. Eyni şəxs yalnız bir dəfə prezident seçilə bilər.**

Layihəyə əsasən, Ermənistanda icra hakimiyyəti və dövlət idarəçiliyi sisteminə ümumi rəhbərliyi hökumət həyata keçirəcək. Silahlı Qüvvələr hökumətə tabe olacaq, müharibə vaxtı ali baş komandan vəzifəsinin icrası da baş nazirə keçəcək. Baş nazir postuna prezident parlament seçkisində qalib gəlmiş partiyanın nümayəndəsini təyin edəcək. Ermənistan müxalifəti konstitusiya dəyişikliyinin prezidentlik müddəti başa çatandan sonra Serj Sərkisyanın baş nazir postuna sahiblənərək hakimiyyətdə qalmasına xidmət etdiyini bildirir. Artıq iki gündür müxalifət İrəvanın mərkəzi meydanında mitinqlərə başlayıb.

**Ermənistandakı prosesi şərh edən politoloq Mübariz Əhmədoğlu bildirdi ki, 6 dekabra planlaşdırılan konstitusiya dəyişikliyinin məqsədi Serj Sərkisyanı hakimiyyətdə saxlamaqdır:** "Sərkisyan özünü, Ermənistanı Avropa dövlətlərinə, beynəlxalq təşkilatlara demokrat kimi təqdim edir. Üçüncü müddətə prezident olmaq istəmədiyini - guya demokrat olduğunu göstərmək istəyir. Əslində isə konstitusiyanı dəyişib gələcəkdə baş nazir olaraq hakimiyyəti əldə saxlamaq planını qurub.

O, avropalıların ağlına gəlməyən hiyləgər addım atıb. Ermənistanın parlamentli respublika idarəçiliyi əslində SSRİ-nin zamanındakı Kommunist Partiyası idarəçiliyinə bənzəyəcək. İşğalçı ölkədə dünyadakı normal parlament-üsul idarəçiliyi olmayacaq. Sərkisyan özünün partiyasını parlament seçkilərinin qalibi elan etdirəcək və prezidentdən üstün səlahiyyətlərə malik baş nazir postuna özü əyləşəcək. Bu, onun planıdır. Hansısa ciddi siyasi problemlər ortaya çıxanda, səhhətində hansısa problemlər yaranandа isə istədiyi adamı baş nazir gətirə bilər".

**Əhmədoğluna görə, Sərkisyanın qarşısında iki vacib problem var:** "Bunlardan birincisi ali baş komandanın baş nazir, yoxsa prezident olmasıdır. Ali baş komandanın kim olması məsələsi konstitusiyaya edilməsi gözlənilən dəyişiklik və əlavələrdə çox yayğın, ikibaşlı formada verilib. Qeyd edilir ki, fövqəladə durum yaransa Ermənistan parlamenti toplanmalı və ali baş komanda səlahiyyətləri prezidentdən baş nazirə verilməlidir. Fövqəladə durum qurtaran kimi səlahiyyət yenidən prezidentə keçir. Belə çıxır ki, parlament çoxluğu istənilən vaxt bəhanə ilə ali baş komandan səlahiyyətini prezidentdən alıb baş nazirə verə biləcək. Sərkisyan ali baş komandan səlahiyyətlərini baş nazir olanda ələ keçirmək üçün başqa yol tapa bilmir. Müharibə başlayacağı halda Ermənistanda ali baş komandan məsələsi probleme çevriləcək, vahid komandanlıqda problem yaranacaq, ən azından operativ qərar qəbul eləmək mümkün olmayacaq. Mitinqlərdə iştirak eləyənlərin bir qismi İrəvandan olan keçmiş Qarabağ döyüşçüləridir. Bu təbəqə Sərkisyan üçün ciddi təhlükədir".

**Politoloq onu da dedi ki, konstitusiya dəyişikliyindən sonra Qarabağ məsələsi ilə bağlı danışıqları əsas kimin aparması da qeyri-müəyyən görünür:** "İndi Ermənistan adından əsas danışıqçı prezidentdir. Ölkə parlamentli üsul-idarəçiliyə keçəndə danışıqları baş nazir, yoxsa prezident aparacaq? Bu aydın deyil".

**Onun sözlərinə görə, Sərkisyanın məqsədlərindən biri Rusiyanı aldatmaqdır:** "Rusiyaya Avrasiya İttifaqına üzv dövlətlərdə prezident üsul-idarəsinin olması lazımdır. Çünki belə olanda Putin istənilən an bütün səlahiyyətlərə malik prezidentə bir zənglə hər şeyi həll edə bilir. Ermənistanda parlamentli respublika olanda Rusiyadan gələn göstərişə baş nazir "məsələni parlament müzakirə etməlidir" cavabını verəcək, çox şeyi parlamentin üzərinə atacaq. Ona görə də Rusiya Ermənistanda konstitusiya dəyişikliyindən narazıdır. Bu narazılıq artıq özünü göstərir. Rusiya Erməniləri İttifaqının milyonçu sədri Ara Abramyan Ermənistana göndərilib. Abramyan artıq siyasi təşkilat yaradır və parlament seçkilərində hökuməti quracaq sayda üstünlük əldə eləmək hədəfini qarşısına qoyub. Sərkisyanın planlarının yarımçıq qalması ehtimalı bu baxımdan mümkündür".

**Politoloq İrəvanda müxalifətin başlatdığı etiraz aksiyasının getdikcə böyüyəcəyini və Rusiyanın bu aksiyaların şişməsində maraqlı olduğunu dedi:** "Müxalifət bilir ki, Sərkisyan gələcəkdə yalnız Daşnaksütyun Partiyası ilə əməkdaşlığa gedəcək. Yerdə qalan əsas müxalifət partiyaları kənarda qalacaq. Ona görə də müxalifət hərəkətə keçib. Təsadüfi deyil ki, tələbləri konstitusiya dəyişikliyinə getməmək və hakimiyyətin istefası, yeni prezident və parlament seçkilərinin keçirilməsidir. Müxalifət Rusiyanın da konstitusiya dəyişikliyində maraqlı olmadığını və Sərkisyana dəstək verməyəcəyini hiss edir və hakimiyyətə zərbə vurmaq üçün çox əlverişli vəziyyət yarandığını görür. Müxalifətin müqaviməti bir həftə davam eləsə, mümkündür ki, Ara Abramyan Rusiyanın xeyir-duası ilə meydandakı müxalifətə ciddi dəstək versin. Belə olsa hakimiyyətin vəziyyəti ağırlaşacaq".

❑ **Etibar SEYİDAĞA**

# "Türk axını" layihəsi dayandırıldı

## İlham Şaban: ""Türk axını" layihəsinin dayandırılmasının Azərbaycana hər hansı xeyri və ya ziyanı yoxdur"

**Türkiyənin Suriya sərhədində Rusiyaya məxsus "SU 24" təyyarəsinin vurulmasından sonra iki ölkə arasında diplomatik hərarət getdikcə yüksəlir. Bu iki dövlət bütün sahələrdə münasibətlərini dondururlar. Bu dəfə də növbəti bir qərarla "Türk axını" layihəsinin reallaşdırılması dayandırılıb. Rusiya mətbuatının verdiyi xəbərə görə, bu barədə Rusiyanın energetika naziri Aleksandr Novak bildirib.Nazirin sözlərinə görə, "Türk axını"nın reallaşdırılması ilə bağlı Türkiyə və Rusiya arasında hökumətlərarası danışıqlar dayandırılıb.**

Bəs görəsən, son baş verənlər, "Türk axını"nın dayandırılması Azərbaycanın TANAP və TAP layihələrinin taleyinə necə təsir edəcək? Rusiyanın bu layihədən imtina etməsini Türkiyə enerji bazarında Azərbaycanın ən böyük rəqibi olan Rusiyanın geri çəkilməsi kimi qiymətləndirmək olarmı? Türkiyənin bundan sonra axtaracağı alternativ qaz mənbələri arasında Azərbaycanın yeri haradadır?

**Enerji məsələləri üzrə ekspert, Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban Türkiyənin ilk müraciət edəcəyi ölkənin Azərbaycan olduğunu bildirdi:** ""Türk axını" layihəsinin bizim TANAP layihəsi ilə hər hansı bağlantısı olmadığından, indi onun dayandırılmasının da hər hansı xeyri və ya ziyanı yoxdur. Əgər Türkiyə-Rusiya arasındakı qarşılıqlı əlaqələrə baxsaq, onun 63 faizi enerji ilə bağlıdır.




Onun da 75 faizi təbii qazın üzərində köklənib. Burada Türkiyə hökuməti qarşısındakı ən önəmli məsələ zaman keçdikcə Rusiyadan qaz asılılığını azaltmaqdır. Hazırda Türkiyə Rusiyadan 27 milyard kubmetr qaz idxal edir. Bu, Türkiyə bazarında olan təbii qazın xüsusi çəkisinin 56 faizi deməkdir. Əgər Türkiyə hökuməti bunu özünün düşündüyü kimi həyata keçirsə, təqribən 5 il sonra bu payın təxminən 33-35 faizə qədər azaldılmasına nail ola bilər".

**Ekspertin fikrincə, Türkiyə ilk növbədə Azərbaycan qazı hesabına Rusiyadan enerji asılılığını azaltmağa çalışacaq:** "Bu məsələdə TANAP-ın rolu əvəzsizdir. TANAP 2018-ci ilin ortalarında hazır olacaq. Onun buraxıcılıq gücü 16 milyard kubmetrdir. Türkiyə tərəfinin alacağı qaz isə 6 milyard kubmetrdir. TANAP Şahdəniz qazının ixracı üçün nəzərdə tutulub. Həmin 16 milyard kubmetr qazın 10 milyard kubmetri Avropaya getməlidir. TANAP ilk olaraq Əskişəhərə qədər inşa ediləcək, Türkiyə-Yunanıstan sərhədinə qədər inşa edilməyəcək. Çünki onu Avropaya birləşdirəcək TAP layihəsi ən yaxşı halda 2 ildən sonra, yəni 2020-cı ildə istismara veriləcək. Həmin müddətdə Türkiyə Azərbaycan qazını bütövlükdə, yəni 16 milyard kubmetr həcmində ala biləcək. Əgər o hissəni alırsa, deməli, ona adekvat dərəcədə Rusiya qazından asılılığı azalda bilər. İkinci tərəfdən, Türkiyə prezidenti bugünlərdə Qətərdə oldu və bu ölkə rəhbərliyi ilə qaz anlaşmasına dair sənəd imzaladı. Türkiyənin iki qaz idxal terminalı var. Onlar bu günə qədər tam gücü ilə işləməyib. Onların həcmini artıra və Rusiya qazından asılılığı azalda bilər. Sual edilə bilər ki, TAP layihəsi işə düşdükdən sonra Azərbaycan qazının 10 milyard kubmetri Avropaya gedərsə, o zaman Türkiyə bu boşluğu nəyin hesabına dolduracaq. O zaman Türkiyə Azərbaycan qazını Şimali İraqdan, İraq Kürdüstanından qaz idxal etməklə əzəvləyəcək. Yəni Türkiyə öz qaz bazarını tədricən Azərbaycana və Yaxın Şərqə doğru identifikasiya edə bilər. Burada ilk növbədə Azərbaycana önəm verilir, sonra isə digər mənbələrə. Növbəti illərdə isə 2024-2025-ci illərdə TANAP genişləndirildikdən sonra isə ,Azərbaycanın növbəti qaz yataqları işə düşəcək və Türkiyə Azərbaycandan yeni qaz həcmləri ala biləcək. Azərbaycan və Türkiyə arasında qaz məsələsi yaxın 10 il ərzində strateji məsələ olacaq".

**Ekspert onu da qeyd etdi ki, əgər yaxın müddətdə Rusiya Türkiyəyə qaz nəqlini dayandırsa, Azərbaycanın Türkiyəyə əlavə qaz ixrac etmək imkanı yoxdur:** "Yaxın müddət ərzində Türkiyə Azərbaycandan qaz istəsə, Azərbaycanın maksimum imkanı hazırda 6,5 milyard kubmetrdir. Belə ki, hazırda Azərbaycandan Türkiyəyə 5,8 milyard kubmetr qaz gedir. Onun həcmini 6,5 milyard kubmetrə qədər artırmaq olar, bundan artıq isə Azərbaycanın fiziki imkanı yoxdur".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 270 (6298) 4 dekabr 2015

**Oktyabrın 17-də Eldar Mahmudov tutduğu postdan uzaqlaşdırılandan sonra onun tezliklə həbsə alınacağı gözlənilirdi. Lakin E.Mahmudovun tutduğu postdan uzaqlaşdırılmasından ay yarım ötüb, MTN-in 20-yə yaxın əməkdaşı, bir neçə generalı, idarə və şöbə rəisləri və müstəntiqləri də daxil olmaqla, "dəmir barmaqlıq" arxasına göndərilib. E.Mahmudovun istintaqa belə cəlb olunması haqda isə rəsmi məlumat yoxdur.**



# Eldar Mahmudov niyə həbs edilmir-deputatdan sabiq nazirə sərt sözlər

Bu səbəbdən "Eldar Mahmudov niyə həbs olunmur" sualı tez-tez eşidilir. Sosial şəbəkələrdə də bu sual ətrafında qızğın müzakirələr gedir.

"Yeni Müsavat"a açıqlama verən **deputat Fəzail Ağamalı** düşünür ki, E.Mahmudovun həbs olunmamasının ciddi səbəbləri var: "Qətiyyən şübhə etmirəm ki, bu gün Eldar Mahmudov məhkəmənin qərarı ilə hüquq-mühafizə orqanlarının nəzarəti altındadır. Bunun adına ev dustaqlığı, hərəkətin məhdudlaşdırılması deyirlər. Eldar Mahmudov digər adi vətəndaşlar kimi bu gün istədiyi yerə gedə, istədiyi yerdə otura, sərbəst hərəkət edə bilməz. O, hərəkətləri məhdudlaşdırılmış vəziyyətdədir. Onun nə zaman öz komandasının yanında həbsxanada oturacağı və barəsində həbs-qətimkan tədbirinin seçiləcəyi haqda məlumatsızam. Qətiyyən şübhə etmirəm ki, bütün bu olaylarda onun birbaşa günahı var, bütün bu proseslərə o rəhbərlik edib. Ola bilməz ki, hüquq-mühafizə orqanlarında illərlə işləmiş birinin başı üzərindən, ondan xəbərsiz MTN-də bu cür hərəkətlərə və qanunsuzluqlara yol verilsin. Bu qətiyyən belə ola bilməz".

**F.Ağamalı düşünür ki, Eldar Mahmudov vəzifəsindən uzaqlaşdırılan rabitə və yüksək texnologiyalar naziri Əli Abbasovu özünün qanunsuzluqlarına bulayıb:** "Eldar Mahmudov Əli Abbasov kimi ziyalı bir nazir deyildi. Əli Abbasov ziyalı idi, o isə hakimiyyət koridorlardan keçərək gəlib vəzifə tutan biri deyildi. Eldar Mahmudov ondan fərqli olaraq bütün bu işlərin başında duran, Əli Abbasovu bu işlərə qatan biridir. Ona görə də Eldar Mahmudovun barəsində daha ciddi addımların atılacağı istisna olunmur".

**F.Ağamalı deyir ki, E.Mahmudov nazir olarkən MTN-də baş verən və hazırda cinayət işlərinin əsasını təşkil edən cinayətlərdən xəbərsiz olması mümkün deyil:** "Qanunsuz dinləmələr, sahibkarların talanması onun xəbəri olmadan mümkün deyildi. Bütün bunlar, o adamları ətrafına yığan Eldar Mahmudovun özü olub. Nazir postuna təyin olunandan sonra öz komandasını formalaşdırıb. Komandaya gətirilən hər bir şəxs yazılmamış qanuna görə onu gətirən şəxs qarşısında öhdəliyi var. Komandaya gətirilən şəxs rəhbərinə sadiqlik nümayiş etdirməlidir. Müəyyən sapmalar ola bilər. Onun formalaşdırdığı komandanın ondan xəbərsiz nələrsə etdiyini düşünmək sadəlövhlük olar".

**Deputat deyir ki, E.Mahmudov komandasının qanundankənar hərəkətləri onun nəfsinə hakim ola bilməməsi ilə əlaqəlidir:** "Eldar Mahmudovun hərisliyi mənəviyyatsızlıq, dövlətə xəyanət, etimaddan sui-istifadə, dövlətçiliyimizə saygısızlıq yaradıb. Bu, adamlar dövlətə xəyanət ediblər. Bu sıradan bir qurum deyildi. Azərbaycan dövlətinin təhlükəsizliyini həyata keçirən ciddi bir qurumdur. Orada öz nəfsinə yiyəlik edə bilən, əli təmiz, Azərbaycanın müstəqilliyinə, xalqına, prezidentinə, dövlətinə bağlı insanlar olmalıdır. Eldar Mahmudovun komandası ancaq varlanmaq haqda düşünənlərdən ibarət olub. Nazirin bundan xəbəri olmayıbsa, o, ikiqat məsuliyyət daşıyır. Yaramazları, quldurları ora yerləşdirməklə üzərində nəzarəti itirib və daha böyük cinayətə yol verib".



**Fəzail Ağamalı:** "Yaramazları, quldurları ora yerləşdirməklə üzərində nəzarəti itirib və daha böyük cinayətə yol verib"



**İlham İsmayıl:** "Dövlətə dəyən ziyanları ortaya qoyub Eldar Mahmudovu istintaqa cəlb etmək olar"

**F.Ağamalı hazırda qanunsuz olaraq həbsdə saxlanılan sahibkarların dərhal azad edilməsi haqda cəmiyyətdən gələn çağırışlara da münasibət bildirdi:** "Baş Prokurorluğun yaydığı rəsmi məlumatdan aydın oldu ki, iş üzrə hələlik 57 nəfər zərərçəkən müəyyən edilib. Həbsdə olanlarla bağlı da istintaq orqanına müraciət edib konkret faktları təqdim etmək olar. Bu işdə kimin hüquqları pozulubsa, onun hüququnun bərpa edilməsi istiqamətində addımlar atılmalıdır. Sahibkarları hədə- qorxu yolu ilə qanunsuz olaraq həbsxanalarda saxlamaqla əmlakları əllərindən alınıb. Əlbəttə ki, sahibkarların pulları, əmlakları geri qaytarılmalıdır. Eyni zamanda verilən işgəncələrə görə mənəvi təzminat ala bilərlər. Azərbaycan qanunları buna imkan verir. Bu gün günahsız olaraq həbsxanada yatan, Eldar Mahmudovun komandasının qanunsuz əməlləri nəticəsində ora düşən sahibkarların yenidən məhkəməsi keçirilməli, onlara bəraət verilməlidir. Ümidvaram ki, bu gün araşdırmalar xüsusi bir yanaşma ilə həyata keçirilir. MTN rəhbərliyinin təzyiqi, təhdidi, təhriki ilə günahsız insanlara, sahibkarlara, vətəndaşlara saxta hökmlər, qərarlar vermiş hakimlər də məsuliyyətə cəlb olunmalıdırlar. Bu, çox vacib bir məsələdir. O ki qaldı o adamların azad olunması üçün parlamentdə çıxış etmək məsələsinə, bu gün ortada prezidentin iradəsi var, bu prosesin açılması, gedişi onun təşəbbüsü ilə həyata keçirilir".

**F.Ağamalı hesab edir ki, MTN-dəki təmizləmələr ölkə rəhbərliyinin son dərəcə riskli bir addımıdır və Azərbaycan xalqının maraqlarına xidmət edir:** "Bu addım bütün sahələri əhatə edir və kimsə burada haqqı pozulmuş şəxslərin hüququnun bərpa olunmasına əngəl ola bilməz. Haqsız yerə tutulan, bu gün günahı olmadan həbsdə olan insanlar var və düşünürəm ki, bu məsələlər də Baş Prokurorluğun diqqətindədir. Hadisələrin mahiyyətinin məntiqi bunu diktə edir".

**Sahibkarların mal və varının əllərindən alınması üçün dinlənilməsi haqda məlumatlarla yanaşı, ölkə rəhbərliyinin də qanunsuz dinlənməsi haqda xəbərlər var. F.Ağamalı hesab edir ki, istintaq bütün bu məsələləri araşdırıb qanunsuz dinləmələrin məqsədlərini ortaya çıxaracaq:** "Bu çox ciddi bir məsələdir. Ona görə də bu məsələ haqda nəsə demək istəmirəm".

**Milli Təhlükəsizlik Nazirliyinin istefada olan polkovnik-leytenantı İlham İsmayıl isə deyir ki, Eldar Mahmudovun istintaqa cəlb olunmaması istintaq orqanlarının problemi deyil:** "Bu daha yüksək instansiyadan gələn göstərişdir və həbs olunub-olunmayacağı da həmin o göstərişdən asılıdır. "Niyə azadlıqdadır" sualına cavab vermək səlahiyyəti hüquq-mühafizə orqanlarına aiddir. Onlar da formal olaraq cavab verə bilərlər ki, əlimizdə kifayət qədər material yoxdur. Amma məsələ bir qədər başqadır".

**İ.İsmayıl deyir ki, Eldar Mahmudovun istintaqa cəlb edilməsi üçün kifayət qədər əsaslar var:** "Deyək ki, Eldar Mahmudovun əleyhinə ifadə verən yoxdur. O, 10 ildən artıq böyük bir nazirliyə rəhbərlik edib və ən azı ətrafında baş verən cinayətlərə görə vəzifə səlahiyyətlərinə səhlənkar yanaşdığına görə məsuliyyətə cəlb olunmalıdır. Onun bu səhlənkarlığına görə dövlətə dəyən ziyanları ortaya qoyub Eldar Mahmudovu istintaqa cəlb etmək olar. Amma bu gün bizim "Eldar Mahmudov niyə istintaqa cəlb olunmur" deyib fal açmağımıza ehtiyac yoxdur. Bu gün hərə bir pərdəarxası, kluar söhbətlərinin nədən ibarət olması, Beynəlxalq Bankın pullarının geri qaytarılmasına görə bu adamın azadlıqda olması fikirlərini deyir. Amma bu gün Eldar Mahmudovun nədən azadlıqdan olmasını dəqiqliyi ilə buna səlahiyyəti olan şəxs bilə bilər".

❑ **E.MƏMMƏDƏLİYEV**

---

# 8-9 il öncənin bəd proqnozları necə doğruldu



**Xalid KAZIMLI**

**Ölkəmizdə hansı elm olmasa da, politologiya gerçəkdən xeyli inkişaf edib. Maşallah, politoloqlarımızın dünyada, regionda, ölkədə gedən siyasi proseslərə, münaqişələrə aid verdikləri analizlər dərinliyi, əhatəliliyi ilə seçilir, proqnozları əvvəl-axır birər-birər doğrulur.**

Yeni fikir, düşüncə məsələsi yaxşıdır, fəqət proseslərin bizi aparıb çıxaracağı mənzil barədə deyilən qızıl kimi sözləri ciddiyə alan, işini, siyasətini ona uyğun quran yoxdur. Əsas problem budur.

Bizdə gündəlik konyukturaya uymaq, "bu gün belədir, belə olaq, sabah baxarıq" prinsipiylə hərəkət etmək dəbdədir. Bəlkə də dünya üzərində bizim qədər strateji planlardan bəhs edən başqası yoxdur, ancaq bizdə dövlət, siyasət işləri səhər açılanda dünyada hansı hadisə baş veribsə, ona uyğun dəyişə bilər.

Politoloqlarımız, jurnalistlərimiz azı on il öncədən yazırdılar ki, hakimiyyətin demokratik müxalifətə qarşı tutduğu güzəştsiz təqib-təzyiq siyasəti yanlışdır, zərərli nəticələri olacaq.

Yazırdılar ki, bu qanunsuz və total təzyiq-təqib siyasəti demokratik seçki keçirilməsini, qanunların aliliyinə riayət tələb edən mülki müxalifəti zəiflədə, parçalaya bilər, amma onların yerini daha mürtəce qüvvələr tutacaq.

Deyirdilər ki, indiki müxalifət müstəqil dövləti bərpa edənlərdir, böyük kəsimi vətənpərvərdir, xalqına bağlıdır, dövlətinə sadiqdir, amma onların yerinə gələnlər hakimiyyət əldə etmək üçün dövləti satmağa, xalqa xəyanətə hazır olacaqlar.

Xəbərdarlıq edirdilər ki, baxın ha, bu müxalifət əliyalındır, mötədildir, hədəfinə silaha əl atmadan, sadəcə, xalqın gücü, iradəsi ilə yetmək istəyir, ondan mandat alıb hakimiyyətə gəlmək fikrindədir, ancaq başqaları nə dürüst seçki istəyəcək, nə də başqa şey, silahla, zorla, qan tökməklə niyyətini gerçəkləşdirməyə çalışacaq.

Bütün bunları yüz dəfələrlə deyiblər də, yazıblar da. Fəqət saray başbilənləri həmişə bu düşüncədə olublar: güc bizdədir, əlimizin altında canlı qüvvə də var, maliyyə də, silah da, xarici dəstək də, heç kəs bizə bata bilməz.

Zamanında heç kim düşünmürdü ki, ölkəyə sunami dalğaları kimi axıb gələn pul-para bir gün azala bilər, elə olar ki, canlı qüvvə və silah da işə yaramaz, xarici dəstək isə etibarsız dairələrin dəstəyidir, qüdrətli paytaxtlarda fikir dəyişər, dəstək kəsilər.

Budur, nə qədər acıdıl və acıqlı olsa da, hakimiyyətə dinc yolla, məqbul mexanizmlərlə gəlmək istəyən demokratik müxalifət xeyli zəiflədilib *(ələ alınan alınıb, didərgin salınan salınıb, bir hissəsi rəhmətə gedib, xeylisi küsdürülüb, ortada yalnız nüvələr qalıb)*, yerində isə 20-35 yaş arasında minlərlə gənci öz ətrafında birləşdirə biləcək yeni güc mərkəzləri əmələ gəlib. Onlar isə demokratiya, dürüst seçki, qanun-qayda, insan haqları hayında deyillər.

Bu mərkəzlərin də xaricdən dəstəkləri var və qarşılarındakı məqsəd aydındır - hakimiyyəti götürüb dövlətin idarəçiliyini ələ almaq. Onların buna çatmaq üçün yolları da konkretdir: güclənib, toparlanıb, üsyan etmək, hakimiyyəti devirmək - ixrac olunmuş inqilabların həyata keçirildiyi başqa ölkələrdə olduğu kimi.

Ortada inqilab, üsyan ideyası və planları varsa, onu həyata keçirmək üçün hutilər tapılacaq. Sel kimi axıdılan pul-para qarşılığında hutilərə qoşulmaq istəyənlər də çox olacaq.

Belə olanda mürəkkəb fırıldaqlara, xırda çaplı zorakılıqlara, müəllimlərin saxtakarlıq aksiyalarına cəlb edilməsinə, Məzahir Pənahova, "karusel"ə, müşahidəçilərin ağızlarının rüşvətlə yumulmasına lüzum qalmır, radikallarla mübarizə daha çoz vəsait, enerji, vaxt, əsəb aparır.

Əsl destruktiv qüvvələrin arsenalları da fərqlidir, onlar qollarını qabağa tutub qandal vurulmasını gözləmirlər, müqavimət göstərirlər.

Elə ən pisi də budur - etirazın dəyirmi masalarda, toplantı salonlarında, ən uzağı hansısa boş küçə və meydanda bildirilməsi yox, Şərqdə dəb olan növlərdə - insanları gur olduğu yerlərdə, həm də səs-küylü şəkildə bildirilməsi.

Çıxış yolu mədəni iqtidar-müxalifət çəkişməsini, rəqabət düzənini bərpa etməkdir ki, narazılar dinc müxalifətin ətrafında birləşsin, razılar - iqtidar komandasının.

YENİ MÜSAVAT
N 270 (6298) 4 dekabr 2015

## Milli Məclisin komissiya sədri "od püskürdü"

# Deputatın Rəsulzadəni təhqir etməsi bu gün parlamentdə müzakirə olunacaq

### Milli Məclisin İntizam Komissiyasının sədri: "Nə qədər təhsilsiz, mədəniyyətsiz olasan ki, Rəsulzadəni düşmən adlandırasan"; vəkillər Naqif Həmzəyevi məhkəməyə verir; YAP-çı deputatı hansı cəza gözləyir...

**Milli Məclisin Gəncədən seçilmiş deputatı Naqif Həmzəyevin Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) banilərindən olmuş Məhəmməd Əmin Rəsulzadə haqqında dediyi nalayiq fikirlər cəmiyyətdə etirazlar doğurub. YAP-çı deputatın AXC liderini vətən xaini adlandırması və onun həyat yoldaşı, qurduğu dövlət haqqında xoşagəlməz fikirlər səsləndirməsi bir neçə gündür sosial şəbəkələrdə ciddi müzakirə olunur. Bu fikirlərə görə hər kəs Naqif Həmzəyevi tənqid atəşinə tutub, qınayır.**




Modern.az saytı Milli Məclisin İntizam Komissiyasından deputat Naqif Həmzəyevin bu davranışının necə qiymətləndiriləcəyini soruşub.

**Milli Məclisin İntizam Komissiyasının sədri Ağacan Abiyev** modern.az-a açıqlamasında bildirib ki, bu gün məsələ parlamentdə müzakirə olunacaq. O bildirib ki, deputatın bu çıxışına siyasi deyil, insani qiymət verilməlidir.

"Bununla bağlı İntizam Komissiyasında deyil, Milli Məclisin iclasında geniş müzakirə aparılacaq. Gəlib bu səviyyəyə qalxasan, deputat seçiləsən, millətin nümayəndəsi olasan, Azərbaycanın yeni tarixindən xəbərin olmasın?.. Demirik ki, Azərbaycanın min il bundan qabaqkı tarixini bilmirsən, dünən yaşadığımız tarixdən xəbəri yoxdur. Sən axı o cür kişini niyə elə adlandırırsan?.. Ona görə də hesab edirəm ki, buna əxlaqi qiymət vermək lazımdır".

**A.Abiyev deputatın səhv hərəkət etdiyini vurğulayaraq, onu orta məktəbdə keçilən tarixi bilməməkdə günahlandırıb:** "Nə qədər təhsilsiz, mədəniyyətsiz olasan ki, müstəqil Azərbaycanın ilk sözünü deyən insanı "Azərbaycanın düşməni" adlandırasan. Heç bu sözü deməyə ermənin gücü çatmaz. Naqif Həmzəyev çox böyük səhv edib. Səhv deyilsə, bacardığı, bildiyi budursa, onda heç olmasa gedib ali məktəb dərsliyini demirəm, orta məktəb kitablarını oxusun. Azərbaycan tarixi orada da keçilir, tariximizlə tanış olsun. Məhəmməd Əmin Rəsulzadəyə ulu öndərimiz Heydər Əliyev yüksək qiymət verib. Ölkənin ən ağır, qorxulu vəziyyətində Azərbaycanın müstəqilliyi haqqında danışan, Azərbaycanın üçrəngli bayrağını qoruyan şəxsiyyətə sən hansı haqla "vətən xaini" deyirsən?.. Hesab edirəm ki, bu xoşagəlməz fikirlərə Milli Məclis mütləq qiymət verməlidir".

**Bir sıra vəkillər N.Həmzəyevlə bağlı məhkəməyə müraciət edəcəklərini deyiblər.** "Gəncədən deputat seçilən Naqif Həmzəyevin Azərbaycan Demokratik Respublikasının banisi Məhəmməd Əmin Rəsulzadəni təhqir etdiyi üçün yaxın günlərdə bir neçə vəkil onu məhkəməyə verəcək"-deyə, vəkil Adəm Məmmədov ANS-ə bildirib. Düzdür, qanuna görə, deputat parlamentdə dediyi sözlərə görə, hüquqi məsuliyyət daşımır, bundan azaddır. Amma fakt budur ki, deputat Rəsulzadə haqqında parlamentdən kənarda danışıb. Deputat Fazil Mustafa da qəzetimizə açıqlamasında həmkarının dediklərinə görə məsuliyyətdən azad olmadığını vurğuladı. Bildirdi ki, deputat Milli Məclisdən kənarda dediyi sözə görə məsuliyyət daşıyır. Ancaq F.Mustafa deyir ki, məhkəmədənsə, ictimai qınaq daha güclü vasitədir: "Orda məhkəməyə zərurət yoxdur. İctimai qınaq bəzən məhkəmədən daha güclü silahdır. Məhkəməyə vermək lazım deyil. İctimai qınaq daha effektlidir".

**M.Ə.Rəsulzadə irsinin digər araşdırmaçısı Nəsiman Yaqublu "Yeni Müsavat"a dedi ki, Rəsulzadəyə qarşı həqarətə yol verilməsi ilk dəfə deyil:** "3-4 ay bundan əvvəl də Rəsulzadəyə qarşı Zahid Oruc tərəfindən başqa formada fikirlər səsləndirilmişdi. Ondan əvvəl də bənzər hallar olmuşdu. Azərbaycan dövlətini sevmək, bu dövləti quran şəxsləri dəyərləndirmək mənəvi məsələdir. Rəsulzadəyə qaşı münasibət siyasi-hüquqi müstəviyə keçməkdədir, amma hər şeydən əvvəl bu, mənəvi məsələdir. Hər bir vətəndaş öz dövlətinin tarixini bilməli və dəyərləndirməli, sevməlidir. Bu dövləti quran şəxsiyyətləri də dəyərləndirməyi bacarmalıdır. Əgər bunu bacarmırsa, onun vətəndaş olmaq hüququ, vətəndaş adını daşımaq haqqı da yoxdur. Milli Məclisin deputatının Rəsulzadə haqqında dediklərini ciddi şəkildə müzakirə edilməli və bu adam öz dediyi sözlərin məsuliyyətinə varmalıdır".

**N.Yaqublu hesab edir ki, məsələ kompleks yanaşma tələb edir:** "Bəlkə bir qanun qəbul etmək, yaxud qanunvericiliyə dəyişiklik etmek lazımdır ki, dövləti quran şəxsiyyətlərə münasibət tənzimlənsin. Hər kəs bilməlidir ki, bu insanlara qarşı aşağılayıcı fikir işlətmək olmaz! Eks-prezidentlərin statusu haqqında qanuna bənzər bir qanun qəbul edilməlidir ki, bu insanlara qarşı hər yoldan ötən adam ağlına nə gəldi, danışmamalıdır". **N.Yaqublu bildirdi ki, məsələnin məhkəmə müstəvisində çözülməsi çıxış yolu deyil:** "Bu, məhkəməlik məsələ də deyil. Dövlətin ali qanunverici orqanında həll edilməsi məsələdir ki, bu dövləti yaradanlara münasibət necə olmalıdır. 1995-ci ildə də Rasim Ağayev Rəsulzadəni təhqir etmişdi, biz onda məhkəməyə müraciət etmişdik. Mən onda ictimi vəkil olaraq çıxış edirdim. Lakin müraciətin hər hansı nəticəsi olmadı. Türkiyədə Atatürkə necə yanaşılırsa, Rəsulzadəyə də Azərbaycanda o cür yanaşılmalıdır. Kompleks tədbirlərə ehtiyac var. Hər dəfə məhkəməyə müraciət etməyəcəyik ki, bu məsələ hüquqi müstəvidə, qanunvericilik müstəvisində birdəfəlik həllini tapmalıdır".

Hesab olunur ki, N.Həmzəyevin dediklərini etiraf edərək xalqdan üzr istəməsi isə məsələyə nöqtə qoya, məhkəməyə müraciətlərin təxirə salınmasına səbəb ola bilər...

**Bu arada politoloq Hikmət Hacızadə yeni təkliflə çıxış edib. "Mən isə təklif edirəm ki, Gəncədə Məhəmməd Əminin büstündən torbanı götürmək haqqında petisiyaya imza ataq!"-H.Hacızadə sosial şəbəkədə yazıb.**

**Elşad PAŞASOY**

# Rəsul Quliyev müxalifət liderlərini istefaya çağırdı

### Tural Abbaslı eks-spikerin normal təşəbbüslə çıxış etdiyini bildirdi

**"Azərbaycanda 2005-ci ildən demək olar müxalifət yoxdur. 2012 və 2013-cü illərdə yenidən müxalifət yaratmağa cəhd edildi, onun əvəzində növbəti Milli Şura adlanan amorf, heç kimin məhəl qoymadığı, altında heç bir şey olmayan bir ad ortaya çıxdı". Bunu Azərbaycan parlamentinin eks-spikeri, hazırda ABŞ-da mühacirətdə olan Rəsul Quliyev müxalifətin vəziyyətini şərh edərkən deyib.**

Modern.az-a açıqlamasında Rəsul Quliyev bildirib ki, dəqiq elmlərdə işləyən qanunları dəyişmək mümkün olmadığı kimi, ictimai-siyasi proseslər də müəyyən qanunauyğunluqlar çərçivəsində işləməlidir. Sabiq spiker qeyd edib ki, demokratiya üçün müxalifətin olması vacib şərtdir: "Bəzi ölkələrdə, məsələn, Qazaxıstanda liderlər müxalifət imitasiyası yarada bilər. Bəzilərində isə bu yoxdur. Biz əgər demokratiya, hüquq bərabərliyi yolunu seçiriksə, ölkədə normal müxalifətin olması əsas şərtdir. Bu gün Rusiyanın Krım və Donbas vilayətini işğal etməsi, Türkiyəyə meydan oxuması, həm də ideologiyalı terrorizmin inkişafı problemləri qloballaşıb. Belə bir məqamda heç bir ölkənin kənarda seyrçi kimi dayanmaq şansı yoxdur. Belə bir vəziyyətdə respublikada ölkə maraqlarını meyar kimi qəbul edən güclü müxalifətin olması vacibdir. Ümumiyyətlə, güclü müxalifətsiz inkişaf ola bilməz. Ölkədə hakimiyyətin apardığı siyasətə opponentlik edən güclü qurumların olması vacibdir. Xalqın müəyyən hissəsinin, azı 30 faizinin qulaq asdığı, qəbul etdiyi opponentin gücü olur. Çünki hakimiyyət onlarla razılaşmağa və siyasətində müəyyən korrektələr etməyə məcburdur. Lakin Azərbaycanda vəziyyət fərqlidir".



**Rəsul Quliyevin fikrincə, indiki müxalifət liderlərinin yerlərini daha cavan nəslə verməsi fikri mənasız bir ideyadır:** "Müsavat Partiyasında sədr yerini vermək prosesini gördük. Nəticədə "mən varam, partiya var, mən yoxam, partiya yoxdur" şüarının düz olduğu özünü göstərdi Hadisələrin nə ilə nəticələndiyini bilirik".

**R.Quliyev bütün müxalifət partiyaları liderlərinin istefa verməsinin əhəmiyyətli olduğunu vurğulayıb:** "Onlar yerlərini heç kimə vermədən, sadəcə, istefa verib getməlidirlər. Hökumət iki il bundan qabaqkına nisbətən, indi normal müxalifətin yaranmasında daha maraqlıdır. Ona görə onların səhnəni tərk etməsi və yeni nəslin irəli keçməsinə kömək etməlidirlər. Məsələn, onlara pensiya kəsilməlidir. Əminəm ki, bu, prosesləri tezləşdirər və yeni nəsil özü boşalan müxalifət meydanını tutar".

**Müsavat Gənclər Təşkilatının keçmiş sədri, "AG blok"un təsisçisi Tural Abbaslı Rəsul Quliyevin fikirlərinə və təklifinə münasibət bildirdi. Tural Abbaslı qeyd etdi ki, illərdir ilk dəfədir Rəsul Quliyevin təklifini normal sayır:** "Son illər ərzində, nəhayət, Rəsul Quliyev obyektiv, normal hesab edilməli fikir və təklif verdi. İnanmazdım ki, nə vaxtsa Rəsul Quliyevin fikirləri ilə razılaşacağam. Ancaq bu fikirləri ilə razılaşıram. Onun təklifi də çox məntiqli təklifdir və dəstəkləyirəm. Bu təklif indiyə qədər müxalifətin öz nümayəndələri tərəfindən də zaman-zaman səslənib ki, 25 ildir siyasətlə məşğul olan müxalifətçilərə dövlət təqaüd ayırsın. Həmin müxalifət liderləri təqaüd yaşına çatanda normal pensiya ala bilsinlər. Çünki həmin insanlar ömürlərinin çox hissəsini siyasətə həsr ediblər və buna görə əmək kitabçaları, iş stajı yazılmır. Bəlkə də pensiya və ya müavinətlərin ayrılmamağıdır ki, müxalifət partiyalarının başında 20 ildir eyni insanlar oturur. Düşünürlər ki, buradan gedəndə gəlirlərimiz ümumiyyətlə sıfıra enəcək. Bəlkə də "müxalifət partiyalarının başından getsək, ümumiyyətlə, sıradan çıxacağıq" qorxusu var ki, onlar getmirlər. Odur ki, onlara müavinət, pensiya verilməsi daha məqsədəuyğun olardı. Həmin adamların getməsinə stimul yaratmaq lazımdır. Azərbaycanda 22 ildir nə iqtidar, nə də müxalifət dəyişir. Bu da hakimiyyətdə olduğu kimi, müxalifətdə də fəsadlarını göstərir. Müxalifətdə mübarizə əzminin sınması, yorğunluq, inamsızlıq həm də onunla bağlıdır ki, 10 illərdir eyni sifətlər partiyaların başındadır. Cəmiyyət də bundan bezir. Ən pisi odur ki, vaxt uzandıqca cəmiyyətin yaddaşında bu insanlar uğursuz siyasətçilər kimi qalmağa başlayırlar. Onlar insanların yadında 22 ildə heç bir dəyişikliyə nail ola bilməyən bir dəstə kimi qalır".

**T.Abbaslı dedi ki, bəzi müxalifət partiyalarında birinci şəxslərin öz postundan getməsi hallarına rast gəlinsə də həmin proses süni şəkildə olub. Süni şəkildə olduğu üçün də heç bir müsbət nəticə, irəliləyiş əldə edilməyib. Əksinə, problemlər yaradıb:** "Bir çox partiyalarda sədr seçkisi rəmzi xarakter daşıyıb və daşıyır. Əvvəlcədən bilinir ki, kim sədr seçiləcək. Təbii ki, təyinatla, süni prosesslə sədrliyə gələn adam da onu ora gətirən əvvəlki sədrin işinə yaramağa çalışacaq. Mən Müsavatdakı son qurultaydakı seçkilərlə bağlı bir söz demirəm. Amma orada qoyulan tavrlar, partiyanın keçmiş başqanının belə tutduğu xətt yeniliyə gətirib çıxarmadı. Sadəcə, ad dəyişikliyi oldu. Yanaşma dəyişikliyi olmadı.

Rəsul Quliyev bu baxımdan da düzgün qeyd edib ki, yer boşalanda yeni nəsil özü boşalan müxalifət meydanını tutar. Proses təbii, öz axarı ilə gedən proses olmalıdır. Belə olanda lider özü ortaya çıxacaq. Kimisə lider elan eləməyə ehtiyac olmayacaq. Azərbaycanda isə proses süni şəkildə, müdaxilələrlə getdiyi üçün hazırkı acınacaqlı vəziyyət meydana gəlib. Biz prosesin müsbətə doğru dəyişməsi üçün "AĞ blok"u partiyaya çevirməyə çalışacağıq. Xalqın gözlədiyi yeni qüvvəni, alternativi təqdim etməyə nail olmaq üçün addımlar atacağıq. Əks təqdirdə, biz daha 22 il müxalifətdə qalacağıq".

**Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 270 (6298) 4 dekabr 2015

# Reportyorumuz Nardarandan yazır

**Nardaran dekabrın 1-dən Daxili Qoşunların və polisin nəzarətindədir. Kəndə kənar şəxslərin girişi qadağan edilib. Kənd sakinləri isə postlardan yoxlanılaraq buraxılır. Nardaranla əlaqə demək olar ki, tam kəsilib. Jurnalistlər də kəndin yaxınlığına buraxılmır. Kəndə elektrik enerjisi verilmir. Nardaranda yaşananlarla bağlı mətbuatı və ictimaiyyəti məlumatlandıran yalnız kənd ağsaqqalı Natiq Kərimovdur.**

# "Camaata deyirəm silahınız varsa, mənə verin..."

## Məşədi Natiq: "Kaş ki, belə olmayaydı..."

O, kənddə baş verənlərlə bağlı öz bilgilərini və sakinlərdən aldığı məlumatları jurnalistlərlə bölüşür. Elə bizim də Nardarandakı "gözümüz- qulağımız" Natiq Kərimovdur.

Dekabrın 3-də "Yeni Müsavat"ın reportyoru kəndin mərkəzinə qədər gedə bilib.

Hazırda bütün istiqamətlərdən Nardarana gedən yollarda bir neçə post var. Bu postlardan keçərək kənddə baş verənləri öz gözlərimizlə görməyə çalışdıq. Müxtəlif yollarla bir neçə postdan keçərək kəndin mərkəzi hissəsinə-pir və məscidin olduğu "Əli meydanına" yaxınlaşdıq. Meydanın girişində xeyli sayda polis əməkdaşı vardı. Kəndin əsas mərkəzi hissəsi sayılan "İmam Hüseyn" və "Əli meydanı"ında polislər hər evə, hər şəxsə nəzarət edir.

Ara yollarla kəndə yaxınlaşarkən qarşılaşdığımız bir neçə kənd sakinindən məlumat əldə etməyə çalışdıq. Kilometrlərlə yol gəldiyimiz halda cəmi 4-5 nəfərlər qarşılaşa bildik. Küçələrdə insana rast gəlməməyimiz bizi təəccübləndirirdi. Yolu soruşmaq üçün yaxınlaşdığımız insanlar belə bizdən ehtiyatlanırdı. Yaxınlaşdığımız hər kəs bizə sadəcə yolu göstərirdi. Əlavə suala cavab vermək istəmirdilər.

**Nəhayət, yolda bir nəfərlə rastlaşıb söhbət edə bildik. Məlum oldu ki, bu şəxs Nardaran sakini deyil. Məscidə ziyarətə gələn Maştağa sakini "İmam Hüseyn" meydanından gəldiyini və yalnız əsgər və polis gördüyünü dedi:** "Meydanda əsgər və polis var. Məscidə ziyarətə getmişdim. Küçələrdə ara-sıra nardaranlı gördüm. Bütün küçələri nəzarətə götürüblər".

Ara küçələrlə kəndin mərkəzinə gedərkən yolda Sabunçu Rayon icra Hakimiyyətinin birinci müavinini gördük. O, kənddəki dini plakatların sökülməsinə, divarların rənglənməsinə nəzarət edirdi. Evlərin qarşısından keçərkən diqqətimizi çəkən qaz və işıq sayğaclarının yararsız vəziyyətdə olması idi. Əksər sayğaclar sındırılıb. Qaz xətləri birbaşa borulara birləşdirilib.

Biz olan yollarda bütün bayraqlar və plakatlar sökülsə də, hələ ki divarlardakı dini şüarlar rənglənməmişdi. Bütün küçələrdə dini şüarlar yazılıb. Demək olar ki, hər evin hasarında belə şüarlara rastlaşmaq mümkündür. Onu da qeyd etmək lazımdır ki, bu şüarlar hər bir kənd sakininin öz istəyi ilə evinin hasarına yazılıb.

Kəndə çatmağımıza az bir məsafə qalmış Nardaran Ağsaqqallar Şurasının sədri Natiq Kərimovla qarşılaşırıq. Bizi öz maşınına dəvət edən N.Kərimov yolun qalan hissəsində bizə yoldaşlıq edəcəyini dedi. Məşədi Natiq kimi bütün kənd sakinlərinin tanıdığı ağsaqqal sükan arxasında olarkən belə zəng edən jurnalistlərin suallarını cavablandırırdı.

**Söhbət zamanı Məşədi Natiqdən haradan gəldiyini soruşduq. Cavanların kəndə çıxmasının tərəfdarı olmadığını deyən N.Kərimov evə lazım olan ərzağı almaq üçün mağazaya özünün getdiyini dedi:** "İndi kənddə vəziyyət qarışıqdır. Gənclər çölə çıxmasa yaxşıdır. Hər yerdə əsgər, polis var. Polislər bizimlə rəftar etdiyi kimi gənclərlə rəftar etmir. Bizə "ağsaqqal" deyə müraciət edirlər. Aksiyadan sonra ən çox gənclər diqqət mərkəzinə düşüb. Bir də baxırsan ki, polislə gənclər arasında mübahisə düşür. Polis harada gənc gördü, çağırır, sorğu-sual edir. Bəzi gənclərlə aralarında mübahisə olur. Elə ən yaxşısı onların çölə çıxmamasıdır. Nə lazım olsa, özüm gedib alıram".













Yolda gördüklərimizi, əsasən də boş küçələr haqda danışırıq.

***- Məşədi, kənddə indi vəziyyət necədir?***

- Sakitçilikdir. Hər kəs mümkün qədər evdən çölə çıxmamağa çalışır. Əsasən də cavanlar. Bütün kənd nəzarətdədir. Meydanların, küçələrin, məscidlərin, pirlərin hamısında polis və əsgər var. Keçən il bu vaxt Nardaran küçələri insan qaynayırdı. İmamın 40 mərasiminə minlərlə insan gəlirdi. Meydanlar dolub daşırdı. Bu gün təəssüflər olsun ki, Nardaran başqa Nardarandır.

***- Bu dəfə mərasim baş tutmadı, deyəsən...***

- Yox, icazə vermədilər. 40 mərasimi günorta namazına qədər başa çatdı. Ondan sonra məsciddə heç kim qalmadı. Kənar yerlərdən də çox az adam gəlmişdi. İnsanlar bu vəziyyətdən qorxub.

***- Bəs nə etməyi düşünürsünüz. Vəziyyəti necə dəyişmək olar?***

- Məsələni yumşaltmaq lazımdır. Ölənlərin dəfni üçün getməliyik. Həbs olunanlar üçün vəkillər lazımdır. Yaralananlardan xəbər tutmalıyıq.

***- Meyitlərlə bağlı müəmma var. Hər kəs məlumatsızdır...***

- Meyitlərdən xəbərimiz yoxdur. Mən kəndin pirində də elan etdim ki, dəfn olunanların yerini kim bilirsə, desin. Heç kimin xəbəri yoxdur. Kənd sakini Nazimin oğlu ölüb, meyiti hardadır bilmir... Qəbiristanlığa da baxmışıq. Dəfndə valideynlər də olmayıb. Ancaq xəbərlərdə deyirlər ki, meyitlər basdırılıb. Bu nə oyundur baş aça bilmirik...

***- Kənddən kimləri aparıblar?***

- Saxlanılanlardan xəbər gəlir. Bilmirik dəqiq olaraq kənddən əməliyyat zamanı kimlər aparılıb. Bəzilərinin adlarını bilirik. Deyirlər ki, başqa bir 30 nəfərlik siyahı da var. Həmin şəxslərdə də silah olduğu deyilir. Biz də istəmirik ki, qarşıdurma olsun. Əgər ki, kimdəsə silah varsa, təhvil verməlidir. Deyirəm camaata ki, əgər silahınız varsa, verin mən aparım təhvil verim. Biz əməliyyatlara etiraz etmirik. Nə istəyirlərsə, etsinlər. Şərait də yaratmarıq ki, kimlərsə buna qarşı gəlsin. Amma bəzi məsələlərdə hökumət doğru addım atmadı. Əvvəlcə bayraqları çıxardılar. Sonra divardakı kəlamları rənglədilər.

***- Sakinlər daha çox nədən narazıdır?***

- İmamın 40 mərasiminə imkan vermədilər. Məscidləri boşaltdılar, camaat da əlbəttə narazıdır. Qara bayraqları yığışdırdılar. Biz onsuz da Məhərrəmlikdən sonra yığışdıracaqdıq. Daha sonra divarlardakı dini şüarları rənglədilər. Axı yazılanların nəyi pisdir? Peyğəmbərin hədisləri, imamların kəlamları yazılmışdı. Meydanlarda asılan plakatları, bayraqları kənd camaatı öz hesabına düzəldib. Elə abadlıq işlərini də. Nə icra, nə də bələdiyyə pul xərcləməyib. Meydanlarda Azərbaycan bayrağını ən uca zirvəyə asmışdıq. Mübariz İbrahimovun şəkli də var idi. İndi bizim plakatları, şüarları sökdülər. Biz bunu yenidən edə bilərik. Buna gərək yox idi. Bəzi insanlara deyiblər ki, üzünüzü qırxın. Yaxşı, indi qırxdı. Bu tükdür də, üzdən çıxır. İndi qırxacaq, sonra yenə çıxacaq. Belə şeylərə camaatı məcbur etmək olmaz.

***- Sizcə, məsələnin bu həddə çatmasına, hadisələrin bu şəkildə cərəyan etməsinə səbəb nə oldu? Qan tökülməsinin qarşısını almaq mümkün idimi?***

- Kənddə əməliyyat keçirilərkən səhvə yol verildi. Kaş ki, əvvəlcədən ağsaqqallara xəbər verilərdi. Onların hamısını polisə çağırardılar. Biz istəmərik ki, balalarımıza nəsə olsun. Polis də, əsgər də bizim balalarımızdır. Lap başdan bu məsələnin həll yolunu danışıqla aparmaq lazım idi. Kaş ki, belə olmayaydı... Elə əməliyyatdan sonra da danışıq olmalı idi. 3 gün kənd meydanında aksiya oldu. Orda da bəzi insanlara nəzarət etmək mümkün olmadı. Başqa yerlərdən bizim dərdimizə şərik olmağa gələnlər də var idi. Amma gələnlər arasında tanımadığımız, məqsədli şəkildə gələn və aranı daha da qızışdıran şəxslər var idi. Bunu sonradan bildik. Vəziyyət artıq nəzarətdən çıxmışdı. Belə vəziyyətdə insanları sakitləşdirmək asan olmur.

N.Kərimovla söhbətimizdən sonra "Əli meydanı"na bir az da yaxınlaşmaq istəyirik. Lakin bunun mümkün olmadığını görüb, dalanlardan birində bir az gözləməyə başlayırıq. Bu zaman qapını açan kənd sakini bizim oradan uzaqlaşmağımızı tələb edir. Jurnalist olduğumuzu bildikdən sonra isə bu israrını daha da artırır: "Gedin başqa yerdə dayanın. İndi sizə görə polislər gələcək bura. Başlayacaqlar bizi də sorğu-sual etməyə. Onsuz da 3 gündür bu vəziyyətdəyik. Bu baş verənlər bizə lazım deyildi. Heç sizin də nəyisə yazmağınız bizə lazım deyil. Gedin burdan..."

Olanları izləyən təxminən 18-19 yaşlı gənc isə gülərək bizə yaxınlaşdı. Həmin gənc bizi evlərinə dəvət etdi. Bu təkliflə razılaşmadıq, amma onların evinin qarşısında dayanmağa bizə icazə verdiyi üçün ona təşəkkür etdik. Onu küçədə gördüyümüzə təəccübləndiyimizi deyərək söhbətə başladıq.

***- Sən yaşda gənci yolda ilk dəfədir gördük. Heç kim küçəyə çıxmır.***

- Elə mən də. İndi evimizin həyətindən sizin səsinizi eşitdik. Çıxdım söhbətinizi eşitdim.

***- Polislər sizin evə də gəlib?***

- Yox. Deyirlər ki, siyahı var. Özləri bilirlər ki, kimin evini və kimləri yoxlamaq lazımdır. Mən kimə nə etmişəm ki? Qaz yox, işıq yox... Bütün günü evdəyik. Həyətdə ocaq yandırıb çay qaynadırıq, yemək bişiririk.

Onunla sağollaşdıqdan sonra geri qayıtmaq üçün yenidən Nardaranın səssiz və kimsəsiz küçələrinə üz tuturuq. İndi Nardaran küçələrində səssizliyi yalnız polis maşınlarının hərəkəti pozur...

❑ **İlkin Muradov**



# Məktəb islahatı

Zamin HACI
zaminhaci@gmail.com

## Aya 400 manatdan məktəbdən azadlığa çıxmaq mümkün olacaq

**Çoxdandır nə gəlinlər qaçır, nə səfirlər. Adamın ürəyi sıxılır. Azərbaycanı maraqlı, koloritli, rəngarəng edən cəhətlərin azalmasına dözə bilmərik.**

Bu yaxında mətbuat baş nazirin soyadının necə yazılmasını müzakirə elədi. Ciddi müzakirə idi. Ortada bir neçə variant vardı: Rasizadə, Rəsizadə, Rəsi Zadə, Rəsi-zadə, sadəcə, Zadə, Bombarbiya Kerqudu və sairə.

Şəxsən mən 25 ildir qəzetçiliklə məşğulam, dünyaya gələndən bəri Artur müəllimin Nazirlər Kabinetində dinozavrlara arpa verməyini görmüşəm, ancaq onun gerçək soyadını bilmirdim. Rəsi-zadə imiş! Təsəvvür edirsinizmi? İllərdir mən bu soyadı yanlış yazmışam, oxucuları aldatmışam. Buna görə üzr istəyirəm. İmkan varsa, məni bağışlayın. Bir informasiya da verim, bəlkə ona görə günahımdan keçəsiniz: mədəniyyət və turnik naziri Əbülfəz Qarayevin adı pasportda və rəsmi sənədlərdə əslində Əbülfəs şəklində gedir. Niyə belədir, heç mən də bilmirəm. Bunun sirrini mənə də açmadılar. Əbülfəz adını Əbülfəs yazanda Vaqif Bəhmənlinin şeir, qafiyə qurmağı asanlaşırmı? Kim bilir... Biz belə sirlərə vaqif deyilik.

Bizim Artur müəllimin soyadını yanlış bilməyimiz sayəsində iqtisadiyyatımız yaxşı inkişaf etməmişdir. Əgər Rəsizadə yox, Rəsi-zadə yazsaydıq, indi bəlkə də peyki kosmosa Kürdəmir Kosmodromundan buraxırdıq, hansısa Fransa Qvineyasına getməyimizə ehtiyac yox idi. Yeri gələndə öz vətənimiz ekvatora daha yaxındır.

Rəsulzadə irsindən uzaq düşməyimizin də bələnçik milli məsələlərə böyük təsiri yaranır. Nəticədə hansısa naqis yapist ortaya çıxır, böyük öndərimiz Məhəmməd Əmin Rəsulzadəyə böhtan atır. Həmin naqis, burnufırtıqlı şəxsin çərənləməsi cəmiyyətə necə mənfi təsir edibsə, srağagün ağsaqqal jurnalist Firuz Haşımov mənə zəng vurub dedi: "Mən iqtidarı dəstəkləyən yazar olmuşam, amma hətta mən də bu deputatın .... *(burada Firuz müəllim yazılması mümkün olmayan xeyli gözəl ifadələr işlətdi - Z.H.)* danışığına görə, beləsini öz sıralarından tapıb parlamentə qoyan hakimiyyəti qınayıram, çox əsəbləşmişəm".

Yeri gəlmişkən, azərbaycanlıların Rəsulzadəyə səmimi, əvəzsiz sevgisini yoxlamaq üçün bu son hadisə bir növ lakmus kağızı oldu. Göründü ki, millət öz böyük oğlunu unutmur, hakimiyyətdə heç bir qohum-əqrəbası olmasa da Rəsulzadəyə təmənnasız məhəbbət bəsləyir. Maraqlı hadisədir.

Dünən vətəndaşlıqdan çıxarılacaq azərbaycanlıların Qrenlandiya buzlaqlarında, ya da Sakit okeanda kimsəsiz mərcan rifində azdırılması projesini uğurlamışdım, sən demə, hakimiyyət həmin dəqiqələrdə daha bir antiböhran tədbiri hazırlayırmış. İnzibati Xətalar Məcəlləsinə dəyişiklik eləmək istəyirlər: üzrsüz səbəbə 1 ayda 7 gün məktəbə getməyən şagirdlərin valideynləri 100 manat cərimə olunacaqdır.

Əhsən! Yoxsa hər ay Neft Fonduna və başqa offşor hesablara yığdığın milyardlardan neçə kisə bazara at ki, manat çezməsin... Heç belə də iş olar? Üstəlik, sonra qədirbilməz azərbaycanlılar qara bayraq qaldırıb üstünə gəlsinlər, işıq pulu verməsinlər. Ən yaxşı yol odur məktəbliləri cərimə eləyəsən. Onsuz bu dəqiqə heç kim məktəbə uşaq göndərmir, müəllimlər evdə repetitorluq edirlər. Bir sinifdə minimum 20 uşaqdan hər ay adambaşına 100 manat cərimə toplasan, bunu respublika məktəblilərinin sayına vursan, hətta tank alıb Qarabağı azad etmək mümkündür! Urrra! Qoy millətdə ruh yaşasın! Təzə təhsil naziri Mikayıl müəllimə də bu yeniliyə görə bütün valideynlər adından minnətdarıq! Kabinetiniz pulla dolsun!

Ancaq hesab edirəm, bu tədbir dövlət büdcəsinin kəsiri üçün azlıq edəcəkdir. Yaxşı olar şagirdlərin dərsdən icazə alıb tualetə getməsi pullu olsun. Hər uşağın ayda 7 dəfə məktəb tualetinə çiş eləməsi 50 manatdan sayılsın. Bununla dövlətimiz daha qüdrətli olar, uşaqlar da dərsdən yayınıb tualetə getməz. Pis oxuyan uşaqlar şalvarını doldura bilər, təbii. Demokratik ölkəmizdə seçim imkanları vardır.



# Qaz savaşı qızışır: Kreml Tehranı Ankaranın müttəfiqinə çevirir

## Rusiya bölgədə olan-qalan müttəfiqlərini sürətlə itirir; Azərbaycanın da energetik dəyəri artır...

**Belə görünür ki, Türkiyə-Rusiya münasibətləri noyabrın 24-dək olan səviyyəyə qayıtmayacaq. Hər halda, gerçək budur ki, Türkiyə hava məkanını pozduğu üçün "Su-24" təyyarəsinin vurulmasını şimal qonşumuz heç cür həzm edə bilmir. Rusiyanın siyasi-hərbi rəhbərliyinin, onun aparıcı KİV-lərinin Ankaranın, prezident Rəcəb Tayyib Ərdoğanın ünvanına sərt, eyni zamanda aşağılayıcı ritorika sərgiləməkdə davam etməsi belə söyləməyə əsas verir.**

Türkiyə rəsmilərinin, Ərdoğanın, baş nazir Əhməd Davudoğlunun ikitərəfli əlaqələri korlamamağa yönəlik permanent çağırışları və xəbərdarlıqları hələ ki havada qalır və vəziyyətə təsir göstərmək gücündə deyil. Halbuki əlaqələrin heç olmasa, minimal səviyyədə saxlanması ən çox Kremlin iqtisadi, siyasi maraqlarına cavab verir. Bunu Rusiyada da anlayanlar az deyil.

Söhbət ilk növbədə iki ölkə arasında qaz anlaşmalarından - Türkiyəyə qaz satışından və "Türk axını", Akkuyu AES tikintisi kimi iri layihələrin taleyindən gedir. Doğrudur, "Qazprom" Türkiyəyə qaz satışını dayandırmayıb. Ancaq Ankara Moskvanın aqressiv və hədələyici bəyanatlarını ciddiyə alaraq preventiv addımlar atmaq zorunda qalıb. O məntiqlə ki, Rusiya qəfildən və qış günlərində bu ağılsız addıma da getsə, ağır durumda qalmasın.

Ərdoğanın Qətər Əmirliyinə iki günlük səfəri sübhisiz ki, ən əvvəl bu məqsəddən - Rusiyadan energetik asılılığı minimuma endirmək məramından doğmuşdu. Səfər çərçivəsində tərəflər - BOTAS və Qətərin Milli Neft Şirkəti arasında imzalanan ilkin qaz memorandumu qənaətimizə sübutdur. Bu anlaşmadan öncə isə xəbər verilmişdi ki, Ankara Rusiyadan təbii qaz asılılığını 25% azaltmaqdan ötrü başqa dövlətlərdən sıxılmış qaz idxalın artıracaq.

***

**Siyasi analitiklər isə Türkiyə-Rusiya qaz savaşında sonuncuya ciddi dividentlər vəd eləmirlər.** "Qaz anlaşmasında hazırkı qarışıqlıq tək təyyarə böhranı ilə əlaqəli deyil. Əvvəldən də Ankara ilə Moskva arasında ciddi fikir ayrılıqları var idi". Bu barədə axar.az -a açıqlamasında politoloq Tofiq Abbasov deyib.

**Onun sözlərinə görə, Rusiya-Türkiyə arasında iqtisadi gərginlik idxalçı tərəfin ixracatçı qarşısında güzəştli qiymət məsələsindən sonra başlayıb:** "Problemdə "Qazprom"un sədri Aleksey Miller çaşqın mövqe tutmaqla vəziyyəti staqnasiyaya (durğunluğa-red.) gətirib çıxartdı. Əlbəttə ki o, özbaşına deyil və çox güman ki, Kremlin diktəsi ilə öz mövqeyini sərtləşdirdi. İkitərəfli münasibətlər artıq gərgindir və ola bilsin "Türk axını"na dair qaz müqaviləsi ümumiyyətlə, gündəmdən çıxsın. Ancaq Türkiyə ehtiyaclarını digər tərəflərin ehtiyatları hesabına ödəyə bilər. İran, Azərbaycan və Türkmənistan həqiqətən də Ankara ilə anlaşma əldə edə bilərlər".

**Politoloqa görə, hər üç ölkənin ehtiyatları, ötürücü və paylaşdırıcı infrastrukturu buna imkan verir:** "İran bu baxımdan daha əlverişli imkanlara malikdir. Çünki hələ Nəcməddin Ərbakanın dövründə əldə olunmuş ikitərəfli müqaviləyə əsasən, Türkiyə sərhədinə kəmər çəkildi. Düzdür, sonra Ankara öhdəliklərin yerinə yetirilməsindən imtina etdi və nəticədə Tehran beynəlxalq məhkəməyə müraciət etdi. Lakin hazırda bölgədə geosiyasi durum xeyli dəyişib, İran sanksiyalardan azad olur və istisna etmək olmaz ki, tərəflər sıfırdan bu məsələyə qayıtsınlar".

**Onun fikrincə, Azərbaycan əlavə ehtiyatlar taparsa, onda Bakı da Türkiyəyə ixrac etdiyi enerjidaşıyıcısının həcmini artıra bilər:** "Lakin düşünürəm ki, Azərbaycan hələ bu rola tam hazır deyil. Türkmənistan Rusiyanı əvəz etməli olsa, gərək İranın vasitəsilə ixrac marşrutunu işləsin. Çünki Transxəzər qaz kəməri hələ gerçəkləşməyib".

***

Beləcə, "Su-24" insidentindən sonra yaranmış yeni və yetərincə maraqlı geosiyasi vəziyyətdə Kreml istəmədən belə, Azərbaycanın energetik əhəmiyyətini artıra, İranı isə Türkiyənin tərəfdaşına və hətta müttəfiqinə çevirə bilər. Çünki iqtisadi bağlılıq siyasi bağlılığa gətirir. Bu isə həm Suriya (Bəşər Əsəd) məsələsində, həm də digər regional məsələlərdə Moskva-Tehran ənənəvi əməkdaşlığı və müttəfiqliyinin zəifləməsi deməkdir.

Onu da unutmaq olmaz ki, beynəlxalq sanksiyalardan təzəcə qurtulan, büdcəsi xeyli kasadlaşmış İran dünya neft-qaz bazarında öz layiqli yerini tutmağa can atır və bu xüsusda Türkiyə ondan ötrü həm əlverişli qaz alıcısı, həm də Avropaya doğru ən məqbul tranzit ölkə qismindədir. Elə bu günlərdə Tehran Xəzərdəki 50-yə yaxın neft-qat yatağının istismarına dair xarici (Qərb) şirkətləri ilə 30 milyard dollar həcmində kontraktlar imzalayıb.

***

Bir sözlə, 24 noyabrdan sonra iqtisadi, geosiyasi proseslər açıq şəkildə Moskvanın əleyhinə işləməyə başlayıb. Vurğulandığı kimi, bunu Rusiyada da başa düşənlər var. Misal üçün, iqtisadi inkişaf naziri Aleksey Ulyukayev bildirib ki, Türkiyə ilə AES inşası və "Türk axını" layihələri dondurulmayacaq. "İri layihələrə gəlincə, hələlik onların dondurulması, maliyyələşdirilməsinin dayandırılması haqda heç bir qərar verilməyib. Ona görə də biz ondan çıxış edirik ki, bu layihələr hökumətin son qərarına kimi hansı vəziyyətdə idisə, o cür də qalır" - qeyd edib nazir.

Ulyukayev xüsusi vurğulayıb ki, Türkiyə ilə sərmayə əməkdaşlığı üzrə komissiyanın işinin dayandırılması AES inşası və "Türk axını" layihələri ilə bağlı deyil. "Bu - təsərrüfat subyektləri olan "Qazprom" və "Rosatom"un funksiyasına daxildir. Hökumətin türk mallarına məhdudiyyət haqda qərarı əsla o demək deyil ki, onlar da öz fəaliyyətlərini dayandırmalıdır" - əlavə edib Ulyukayev.

**"Qazprom" şirkəti Türkiyəyə qaz ixracını dayandırsa, bu ölkənin qaz bazarı şirkət üçün qəti və geridönməz şəkildə bağlanacaq". Bunu isə Rusiya mavi yanacağının yerli ixracatçılarından birinin nümayəndəsi deyib.** "Siyasi ziddiyyətlər fonunda belə bir şey baş verərsə, o halda cəsarətlə söyləmək olar ki, "Qazprom"un Türkiyədəki reputasiyası öləcək, yəni şirkət Türkiyəyə daha qaz sata bilməyəcək. Sonuncu istehlakçılar da bu üzdən güclü ziyan görəcək. Onlar artıq indidən təchizatın dayandırıla biləcəyindən narahatdır. Ümid edirik ki, belə bir şey baş verməyəcək" - bildirib o. Mənbə əmindir ki, Türkiyə-Qətər qaz anlaşması məhz bununla bağlıdır.

***

Hər şeydən göründüyü kimi, bölgədə qaz müharibəsi tədricən yeni və daha sərt mərhələyə adlamaqdadır. Bu mərhələdə ənənəvi dostlar itirilə, köhnə rəqiblər isə müttəfiqə çevrilə bilər - ən çox da Rusiyanın ziyanına.

❑ **Analitik xidmət**



# Türkiyə baş naziri Bakıda önəmli mesajlar verdi

## “Heç bir dövlət Türkiyə və Azərbaycan qədər yaxın deyil” deyən Əhməd Davudoğlu Bakıdaykən Putin Ankaranı hədələdi; **İlham Əliyev:** “Azərbaycanla Türkiyə bütün məsələlərdə bir yerdədir...”

**Türkiyənin baş naziri Əhməd Davudoğlunun Bakıya iki günlük səfəri başlayıb. Ötən sayımızda da qeyd elədiyimiz kimi, səfər Türkiyə-Rusiya münasibətlərindəki olduqca gərgin və həssas duruma təsadüf eləməsi ilə həm yerli, həm də beynəlxalq medianın və analitiklərin xüsusi diqqətində idi.**

Dünən ali qonağı Bakı hava limanında baş nazirin müavini Əli Əhmədov qarşılayıb. Qarşılanma mərasimindən sonra planlaşdırıldığı kimi, Azərbaycan prezidenti İlham Əliyev Türkiyə baş nazirini qəbul edib. Görüş əvvəlcə təkbətək formatda keçirilib, ardınca isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib (APA).

**Prezident Əliyev görüş öncəsi Əhməd Davudoğlunun Türkiyədə son parlament seçkilərindən sonra ilk səfərini Azərbaycana etməsinin önəmini vurğulayaraq, bunu Türkiyə-Azərbaycan münasibətlərinin yüksək səviyyədə olmasının, qardaşlığın göstəricisi olduğunu deyib:** “Azərbaycan və Türkiyə bütün məsələlərdə bir yerdədir, biz bir-birimizi dəstəkləyirik və dəstəkləyəcəyik. Bütün sahələrdə əlaqələr inkişaf edir və bu səfər də əlaqələrin inkişafında mühüm rol oynayacaq”.

***

**Görüşdən sonra keçirilən mətbuat konfransında Azərbaycan prezidenti iki qardaş ölkə arasındakı əlaqələrin yüksək səviyyədə olduğuna və önəminə bir daha diqqət yönəldib:** “Türkiyənin G-20 sammitinə Azərbaycanı dəvət etdiyi üçün də sizə minnətdaram. Türkiyə və Azərbaycan ictimaiyyəti, habelə dünya ictimaiyyəti gördü ki, biz bir-birimizə nə qədər yaxınıq. Bizi birləşdirən ortaq mədəniyyətimiz, etnik köklərimiz, dilimizdir. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir. Daim bütün məsələlərdə bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Bu, dəyişməz siyasətdir. İstəyirik ki, gələcək nəsillər də əlaqələri yüksək səviyyədə saxlasınlar. Bunun üçün bütün imkanlar var. Türkiyə və Azərbaycanın siyasəti bölgədə sabitləşdirici rol oynayır”.

**Ölkə başçısının sözlərinə görə, Türkiyə nə qədər güclü olsa, Azərbaycanın gücü də bir o qədər artacaq. Qeyd edib ki, dünyada və Avropada gedən proseslərdə Türkiyə və Azərbaycan ciddi faktor kimi mövcuddur:** “Dünyada Türkiyənin artan rolu bizi sevindirir və gücləndirir. Biz dost, qardaşıq və bundan sonra da bir-birimizi dəstəkləyəcəyik”.

**İki ölkə arasında energetik sahədə əməkdaşlıqdan söz açan ölkə başçısı bildirib:** “TANAP Türkiyə və Azərbaycan layihəsidir. Bu layihənin icrasında heç bir problem yoxdur. Layihə 2018-ci ildə, bəlkə də daha tez istifadəyə veriləcək. Bununla da Türkiyə və Avropa ölkələri yeni qaz mənbəyinə çıxış əldə edəcəklər. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bizim əsas ixrac yolumuz da Türkiyə və Türkiyə üzərindən digər Avropa ölkələridir”.

Prezident mətbuat konfransında indiyədək həllini tapmamış Dağlıq Qarabağ məsələsindən danışıb və bu məsələdə verdiyi dəstəyə görə qardaş ölkəyə təşəkkür edib.

***

**Öz növbəsində Əhməd Davudoğlu bildirib ki, hələ anadan olduğu İstanbula getməyib, ancaq Azərbaycana gəlib:** “Azərbaycan ”Can Azərbaycandır", bizim canımızdır. Əlaqələrimiz genişdir, dünyada heç bir dövlət Türkiyə və Azərbaycan qədər yaxın deyil". O, Türkiyə və Azərbaycanı bir millət, iki dövlət olduğunu xatırladaraq Azərbaycanın uğurla inkişaf etdiyini, əlaqələrin yüksək səviyyədə olduğunu söyləyib, “Türkiyə hər zaman Azərbaycanın yanındadır” deyib.

“Görüşümüzdə TANAP layihəsinin 2018-ci ildə deyil, daha tez istismara verilməsi barədə razılığa gəldik. Avropanın enerji təhlükəsizliyində Xəzərin resursları mühüm rol oynayır. Bakı-Tiflis-Qars dəmir yolu da Çindən Avropaya uzanan yolun onurğasını təşkil edir. Çinlə də bu mövzuda görüşlərimiz, müzakirələrimiz olub. Azərbaycan prezidentinin Çinə səfərində də bu məsələ müzakirə ediləcək. Biz Azərbaycanı, Bakını Asiyanın yüksələn ulduzu kimi görürük. Baş nazir kimi bəyan edirəm ki, qarşıdakı 4 ildə Azərbaycan bayrağı haradadırsa, Türkiyə də orada olacaq” - bildirib Davudoğlu.

**Türkiyə baş naziri həmçinin iki ölkənin ticarət dövriyyəsinin həcmini 5 milyard dollardan 15 milyard dollara çatdırmağı qarşıya məqsəd qoyduğunu söyləyib. O, hərbi müdafiə sənayesi sahəsində Türkiyənin Azərbaycanla ortaq fəaliyyəti davam etdirəcəyini deyib:** “Qafqazda sülhün bərqərar olması Azərbaycan-Türkiyə əməkdaşlığından asılıdır. Görüşümüzdə Dağlıq Qarabağ münaqişəsinə də toxunduq. Türkiyə Azərbaycana torpaqları tam azad edilənədək dəstəyini davam etdirəcək”.

***

**Maraqlıdır ki, Davudoğlu Bakıda ikən Rusiya prezidenti Vladimir Putin Türkiyə əleyhinə, AKP hökuməti əleyhinə sərt və alovlu çıxış edib, rəsmi Ankaranı hədələyib, hətta aşağılayıb. Belə ki, canlı yayımda xalqla ünsiyyəti zamanı o, “Su-24" bombardmançısını vurması insidentini növbəti dəfə şərh edərkən deyib:** ”Mən heç cür başa düşmürəm ki, onlar (Türkiyə-red.) nəyə görə bunu elədilər. İstənilən problemi tamamilə ənənəvi şəkildə həll etmək olardı. Biz onlarla ən həssas məsələlərdə belə təmaslara hazır idik. Onlar niyə belə ediblər, bunu ancaq Allah bilir. Görünür, Allah Türkiyənin hakim elitasının ağlını başından alaraq onları cəzalandırmağı qərara alıb. Rusiya Türkiyəyə cavab olaraq düşünülmüş və konstruktiv addımlar atacaq. Bizdən bütün dünya üçün təhlükəli ola biləcək əsəbi, isterik reaksiyalar gözləməsinlər. Ancaq əgər onlar düşünürlərsə ki, belə alçaq cinayət törədib canlarını pomidorla, tikintidə, yaxud hansısa sahədəki işlərin həcmini azaltmaqla qurtaracaqlar, dərindən yanılırlar. Biz onlara nə elədiklərini hələ çox xatırladacağıq və onlar buna görə hələ çox peşman olacaqlar. Biz nə etmək lazım olduğunu bilirik".

***

**Bu hədələrə Türkiyə baş nazirinin Bakıdan cavabı özünü çox gecikdirməyib:** “Dostumuz və qonşumuz olan Rusiyanın baş verənləri soyuqqanlı şəkildə dəyərləndirməsini gözləyirik. Rusiya Türkiyənin sərhədlərini dəfələrlə pozub və bu barədə dünya ictimaiyyətinə məlumat verilib. Türkiyə sərhədləri bizim üçün müqəddəsdir. Bizim üçün sərhədlərimiz və suverenliyimiz yeganə toxunulmaz məsələdir”. **Baş nazir onu da xatırladıb ki, Türkiyə İran və Rusiyaya qarşı iqtisadi təcriddə iştirak etməyib:** “Ancaq bu gün Türkiyənin günahı olmadığı bir hadisəyə görə Rusiyanın Türkiyəyə qarşı iqtisadi embarqosuna təəccüb edirik”.

**Davudoğlu emosiyaları daha da qızışdıran Putinə çağırış da edib:** “İki qonşu ölkə olaraq masa ətrafında oturaraq problemlərin çözülməsinin tərəfdarıyıq. Türkiyəyə qarşı əsassız ittihamları isə qəbul etməyəcəyik. Türkiyə sərhədlərinin pozulmasına yönəlmiş heç bir addıma imkan verməyəcəyimizi də bir daha bəyan edirəm”.

❑ **Siyasət şöbəsi**



---

# Putinin alınmayan “Türk qambiti”



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Kremlin Ankaraya qarşı “Su-24" isterikası davam edir. Davam etdikcə də daha çox özünə ziyan vurur. Çünki olan-qalan tərəfdaşı və müttəfiqlərinin də itirilməsinə aparır. Onsuz da Krımın işğalına görə dünyanın 3/4-ü Rusiyaya pis gözlə baxırdı, bu yandan da Moskva özü-özünün təcridini gücləndirməklə, barmaqla sayılacaq ənənəvi tərəfdaş ölkələri də özündən itələməklə məşğuldur.**

Yada iki gün öncə Putinin köməkçisi Yuri Uşakovun açıqladığı “Rusiyaya dost ölkələr” siyahısı düşür. Siyahıya Avrasiya İqtisadi Birliyi ölkələri - Belarus, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Ermənistan, həmçinin Suriya, İran, Azərbaycan kimi ölkələr daxildir. Necə deyərlər, şərhə ehtiyac qalmır. Hərçənd, bir azca ehtiyac var.

İş ondadır ki, Azərbaycan da daxil, sadalanan dövlətlərin mütləq əksəriyyəti Moskva ilə zorən dostluq-müttəfiqlik münasibətlərindədir. Onları həqiqi dost ölkələr kimi, ciddi iqtisadi əlaqələr və ortaq dəyərlər birləşdirmir. Üstəgəl, Kremlin imperiya ambisiyaları və postsovet məkanında yeni ilhaqçılıq siyasəti hətta kağız üzərində olan Avrasiya Birliyi üzvlərini də ciddi qorxudub.

Başqa yandan, Moskvanın Ankaraya qarşı qaz şantajı artıq qardaş ölkəni yeni qaz təchizatçıları axtarmaq zorunda qoyub. Türkiyə bu yöndə Qətərlə ilk anlaşma əldə edib və sırada nəhəng qaz ölkəsi olan qonşu İrandır. Tehran isə buna məmnuniyyətlə, razılıq verəcək. Demək, İran da ənənəvi dostlar siyahısından çıxacaq. Kim qaldı yerdə?..

Yaxşı deyiblər, hirsli başda ağıl olmaz. Söz yox ki, Moskvanın isterikası prezident Rəcəb Tayyib Ərdoğanın daxili dayaqlarını laxlatmağa yönəlib. Bunu Putinin son açıqlamasından aydınca görmək mümkündür. Türkiyə rəhbərliyini növbəti dəfə terrorçulara dəstək verməkdə günahlandıran Kreml başçısı deyib: “Türkiyə xalqı bizə dost xalqdır. Mən hələ də anlaya bilmirəm ki, nəyə Türkiyə bu addımı atıb. Təkcə Allah bilir Türkiyə bunu niyə edib. Biz bilirik ki, Türkiyədə kim öz ciblərini doldurur, terrorçulara pul qazanmağa kömək edir. Bununla belə, Türkiyə xalqı mehriban, əməksevər və istedadlı xalqdır. Biz onunla Türkiyə iqtidarını eyniləşdirmirik”.

Putin əlbəttə ki, blef edir. Əvvəla, rəsmi Ankara açıq şəkildə bəyan edib ki, Rusiya tərəfi dəfələrlə edilən xəbərdarlığa məhəl qoymadığı üçün imicini qorumaq məcburiyyətində qalaraq təyyarəni vurub. Bəs Moskva bu xəbərdarlıqları bilə-bilə nədən yenidən Türkiyə dövlətinin səbrini sınağa çəkib və bu təxribata gedib? Putinin təbirincə desək, bunu tək Allah bilir.

Bax, Rusiyada bu suala cavab verməyi xoşlamırlar. Halbuki, sonradan özləri də etiraf etdilər ki, “təyyarə cəmi 17 saniyə Türkiyə hava məkanını pozub”. Lap bir saniyə olsun, hər halda pozub ki - özü də bundan əvvəlki bir neçə xəbərdarlıqlar fonunda!

O ki qaldı Rusiya liderinin Türkiyə xalqı ilə hökumətini fərqləndirməsinə, bu da təbii ki, Ərdoğana daxildə etimadsızlıq yaratmağa hesablanmış hiylə

gər və təbliğati gedişdir. Yəni “Ey Türkiyə xalqı, ondan imtina etsəniz, qısa zamanda hər şey qaydasına da düşə bilər”. Fəqət, qardaş ölkədə bu insidentdən dolayı nəinki cəmiyyət, bütövlükdə siyasi müxalifət də Türkiyə hökumətinin yanındadır...

Türkiyə toplunmu gerçəyi, o sırada İŞİD-lə kimlərin neft alveri eləməsini də Putindən və onun əsabələrindən yaxşı bilir. Odur ki, Rusiya siyasi-hərbi rəhbərliyi terrorçularla müəmmalı neft alverinə dair abstrakt şəkillər nümayiş etdirməkdənsə, qoy öncə öz qeydinə qalsın, öz dərdini çəksin. Məsələn, ABŞ-ın kosmosdan çəkdiyi və Rusiya qoşunlarının Ukraynaya soxulmasını təsdiqləyən foto-faktlara münasibət bildirsin. Hansı faktları ki, Moskva hələ də israrla danır. Ancaq bütün dünyaya bəllidir ki, Rusiya qoşunları Ukraynaya girib, Krımda, Donbasdadır.

Hər halda, qonşu ölkələrin (Gürcüstan, Ukrayna) suveren ərazisinin bir parçasını zorla özünə birləşdirib beynəlxalq hüquqa və normalara tüpürmək daha ağır cinayətdir, nəinki Türkiyə dövlətinə və xalqına dəxli olmayan hansısa yaramaz ünsürlərin İŞİD-lə neft alveri.

YENİ MÜSAVAT
N 270 (6298) 4 dekabr 2015



# Dərsə getməyən uşaq üçün valideynə 100 manat cərimə-əks reaksiyalar

## Təhsil ekspertləri "dərsdən yayınmanın səbəbləri araşdırılmalıdır" deyirlər

**Dərsə gəlməyən şagirdlərin valideynləri cərimələnəcək. "İnzibat Xətalar Məcəlləsi"nə əlavə edilən 51.1-1 maddəsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səbəblər istisna olmaqla, dünyəvi icbari ümumi orta təhsil üzrə dərs gününün şagird tərəfindən 1 ay ərzində 7 gündən çox buraxılmasına görə 100 manat miqdarında cərimə tətbiq ediləcək. Bu dəyişiklik barədə artıq Milli Məclisdə keçirilən Hüquq siyasəti və dövlət quruculuğu komitəsi və Dini qurumlar və ictimai birliklər komitəsinin birgə iclasında müzakirə edilib və Milli Məclisin dekabrın 4-də keçiriləcək plenar iclasına tövsiyə ediləcək.**

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev** cəriminin yaxşı metod olmadığını dedi: "Dərsə davamiyyət məsələsi orta məktəblərimizin ən ciddi problemlərindən biridir. Cərimə ilə bağlı layihənin hazırlanmasından əvvəl dərsdən yayınmanın səbəbləri araşdırılmalı idi. Cərimə yaxşı metod deyil. Niyə türk və ingilis dilli liseylərdə dərsə davamiyyət 100 faizdir, bizim məktəblərdə isə bundan qat-qat aşağıdır? Bizdəki vəziyyət məktəblərdəki intizamsızlıqla bağlıdır. Valideynlər uşaqlarının məktəbdə keçilən dərslərə getməməsi üçün pul verirlər. Bu rüsvayçılıqdır. Axı məktəb əvvəl belə deyildi. Məktəbi belə gözdən salmaq olmaz. Onda valideynlər də övladlarının buraxılış imtahanlarından "2" qiymət almalarına görə məktəbdən pul tələb etməlidirlər. Yəni dövlət şagirdə vəsait ayırıb, amma yaxşı dərs keçilmədiyinə görə o, "2" alıb. Məncə, məktəbin problemlərini cərimələr hesabına həll etmək doğru deyil. Məktəb rəhbərliyi bir uşağın belə dərsdən yayınmasına imkan verməməlidir".

**E.Əliyev valideynlərin çoxunun məktəb təhsilinin keyfiyyətinə inanmadığını və buna görə də övladlarını məktəbdən çəkindirdiklərini dedi:** "Dərd burasıdır ki, valideynlərin böyük kəsimi məktəb təhsilinin keyfiyyətinə inanmırlar. Bu inamı bərpa etmək lazımdır. Telekanallarda bütün günü mənşəyi məlum olmayan kursların, el arasında isə TQDK-nın bunker müəllimlərinin təbliğatı aparılır. Bunu eşidən valideyn uşağını məktəbdən çəkindirir. Bu cür təbliğatlar dayandırılmalıdır. Təhsil və tərbiyə məktəbdə verilməlidir".

**Təhsil eksperti Nabatəli Qulamoğlu isə mətbuata açıqlamasında cərimələri yaxşı oxuyan uşaqların təhsilinə yönəltməyin tərəfdarı olduğunu bildirib. Onun fikrincə, valideynlərin cərimələnməsi təhsilin inkişafı və yeniyetmələrin gələcəkdə düzgün istiqamətdə tərbiyə alması üçün müsbət addımdır:** "Bu qayda keçmiş sovet təhsil sistemində var idi və müsbət hal kimi qəbul olunurdu. Müstəqillik qazandıqdan sonra fikirləşdilər ki, demokratik cəmiyyətdə təhsil azaddır, kim necə istəsə oxuya bilər. Burada termin dəyişikliyini ortaya atdılar. "Məcburi təhsil" ifadəsini "icbari təhsil"lə əvəz etdilər. Yəni uşaqlar 9-cu sinfə kimi məcburi oxumalıdırlar. Əgər valideyn buna mane olarsa, ona cərimə sanksiyası tətbiq olunacaq. Bu qayda sivil ölkələrin böyük əksəriyyətində vardır. Həmin cəmiyyətlərdə artıq savadsızlığın cəmiyyət üçün böyük bir bəla olduğu qəbul olunub".

**Bakının Nardaran qəsəbəsində baş verən son hadisələrə toxunan N.Qulamoğlu bu cür halların funksional təhsilin olmamasından meydana gəldiyini vurğulayıb:** "Əgər bir kənddə valideynlər uşağını məktəbə qoymayacaqsa, oradan gələcəkdə potensial xurafatçılar çıxacaq. O baxımdan mən hesab edirəm ki, sivil ölkələrdə olduğu kimi şagirdlərin 9-cu sinfə kimi oxuması məcburi olmalıdır. Yəni onlar ümumi dünyagörüşünə, minimum biliklərə sahib olmalı, cəmiyyətdə davranış qaydalarını öyrənməlidir. Hesab edirəm ki, bu cərimə sanksiyası bu gün üçün vacib addımdır. Bunu gərək əvvəldən tətbiq edərdilər. Mən yeni qərarı müsbət qarşılayıram. İnsanlar savadsız olduqca dinə meyl edirlər, xurafata yuvarlanırlar. Bunun qarşısını ancaq təhsillə almaq olar. Yeni dəyişiklikdə nəzərdə tutulan qaydaların tətbiqinin nəticəsini isə zaman göstərəcək".

❑ Günel MANAFLI

# Dərsə getməyən uşağa görə dünyada daha sərt cəzalar varmış...

## Dünyadakı ilginc "davamiyyət cəzaları" barədə arayış "Yeni Müsavat"da

**Xəbər verdiyimiz kimi, Azərbaycanda bir ay müddətində 7 gündən çox dərs buraxan şagirdin valideyni 100 manat cərimə olunacaq. Bu barədə İnzibati Xətalar Məcəlləsinə dəyişiklik ediləcək. Dəyişiklik parlamentin Hüquq siyasəti və dövlət quruculuğu, İctimai birliklər və dini qurumlar komitələrinin birgə iclasında müzakirə olunaraq Milli Məclisin dekabrın 4-də keçiriləcək plenar iclasına tövsiyə edilib.**




### Dərsə gedilməyən hər gün üçün 15 tl - Türkiyə qaydaları...

"Yeni Müsavat" dünya məktəblərində də davamiyyət məsələsinin ciddi problem olduğunu və bununla bağlı maraqlı çıxış yollarının olduğunu araşdırdı. Məlum oldu ki, uşaqları dərsə gəlməyən valideynlərə qarşı dünyanın bir çox ölkələrində cəza tədbirləri nəzərdə tutulub.

Qonşu Türkiyədə bu cəza sistemi çoxdan tətbiq olunur. Məsələn, Şanlıurfada hər hansı səbəb olmadığı halda məktəbə gəlmədiyi müəyyənləşən, böyük əksəriyyəti qız olan məktəblilərin valideynlərinə 2 milyon 462 min 790 TL pul cəzası verilib. Məktəbə gəlinməyən hər gün üçün 15 lira (7 AZN) məbləğində pul cəzası müəyyənləşdiyi üçün toplam cəza məbləği bu qədər yüksək olub. Sözügedən şəhərdə uşaqların məktəbə göndərilməməsi halları çox geniş yayılıb və bu səbəbdən də valideynləri bu formada cəzalandırma mexanizmi tapılıb. Orada 3 min 541 şagirdin heç bir səbəb olmadan 1 ilə 3 ay arasında dərslərə girmədiyi müəyyənləşib.

### Pul cəzası, həbs... bunlar fayda verməsə, uşaq ailəsindən alınacaq

Təhsil naziri Nimet Çubukcu isə bu istiqamətdə daha sərt tədbirlərin görüləcəyinin anonsunu verib. Belə ki, uşağını məktəbə göndərməyən valideynə öncə xəbərdarlıq ediləcək, ardınca isə pul və həbs cəzası veriləcək. Amma bunlar nəticə verməsə, uşağın ailəsindən alınması da mümkündür. Nazir bununla bağlı ölkənin bir çox bölgə valilərinə yazılı bildiriş göndərib.

Amma Türkiyədə təhsillə bağlı daha bir pul cəzası da uşağını liseyə yazdırmayanlar üçün tətbiq olunur. 4+4+4 sistemi ilə məcburi hala gələn lisey təhsilindən imtina edən valideyn də günlük 15 TL (7 AZN) məbləğində cərimə ödəməlidir. İsrar edən və bundan nəticə çıxarmayan valideyni isə 500 TL (250 AZN) məbləğində cəza gözləyir.

### İngiltərədə... 2 həftə dərsə getməmək olar

Ingiltərədə isə vəziyyət nisbətən fərqlidir. İngilis qanunlarına görə, şagirdlər ailələrinin icazəsi ilə məktəbə ən çoxu 2 həftə ərzində getməyə bilər. Amma vacib dərsləri və imtahanları olduğu zamanı dərsdən yayınma yolverilməzdir. Xüsusən də GCSE imtahanını ötürmək kimi bir səhvə əslə düşmək olmaz. GCSE imtahanın ödənişi daha öncədən edildiyi üçün imtahana girməyən şagirdin ödədiyi məbləğ də avtomatik olaraq yanır. Və növbəti il GCSE imtahanına girə bilmək üçün də yenidən müvafiq məbləğ ödənməlidir. GCSE imtahanı may ayının sonu, iyunun əvvəlində baş tutur.

### Almaniya da valideynlərin hüququnu sıfırlayır

Fransa liseylərində icazəsiz 10 gün dərsə getməyən şagirdin qiyməti neçə olursa-olsun, uğur qazanmamış sayılır. 1 və ya 2 gün müddətində dərsə gəlməyən şagirdin valideyni tərəfindən yazılan ərizə vacib sənəddir. Amma bu müddət 1 həftə və ondan artıqdırsa, bu zaman həkim arayışı tələb olunur.

2012-ci ildən Almaniyada da dərsə gəlməyən şagirdin valideyninin cəzalandırılması qüvvəyə minib. Cəzanı kifayət qədər sərt adlandırmaq olar. Belə ki, 20 dəfə ardıcıl əsassız səbəbdən dərs buraxan şagirdin valideyni daha uşağının təhsilinə müdaxilə və ya nəzarət edə bilməz. Yeni qanun onları sadəcə bu hüquqdan məhrum edir. Qanunun işləməsinə birbaşa yeniyetmələrlə iş üzrə məhkəmənin hakimləri nəzarət edir. Əgər şagird 20 gün dalbadal dərs buraxırsa, hakim dərhal həmin uşağın valideynlərini uşağın təhsili ilə bağlı bütün hüquqlardan məhrum edir. Bundan sonra uşağın davamiyyəti, təhsili yalnız təhsil ocağının nəzarətində olur. Məktəb hətta səbəbsiz dərs buraxan şagirdi ilkin olaraq cəzalandırmaq məqsədilə onu məcburi əməyə cəlb edə və ya ailəni cərimə ödəməyə məcbur edə bilər. Bu yalnız xəbərdarlıq məqsədli ilk cəzadır. İkincidə isə məktəb məhkəmənin dəstəyi ilə şagird üzərində nəzarəti tam əlinə alır və valideyn avtomatik olaraq hər hansı təsir edə bilmək imkanını itirir.

Statistikaya görə, hazırda Almaniyada şagirdlərin 8 faizi təhsilini başa vurmadan məktəbi atır. 8 faiz isə rəqəmlə yarım milyondan çox yeniyetmə deməkdir. İndi dövlət yeni qanunun köməyi ilə bu rəqəmi 2015-ci ilə qədər yarıbayarı azaltmağı planlaşdırır.

### İlginc araşdırma - dərsə getməyən uşaqlar daha savadlıymış...

Bu arada heç bir səbəb olmadan dərsə getməyən məktəblilərin savad göstəriciləri də maraqlı araşdırma mövzusu olub. Türkiyədə ən azı bir dərsi ötürən şagirdin riyaziyyatdan aldığı qiymət digər həmyaşıdlarından 9 bal yüksəkdir. Yəni davamiyyət çox vaxt savad göstəriciləri ilə tərs mütənasiblik təşkil edir. Ya da şagirdlər digər ölkələrlə müqayisədə məktəb xaricindəki qaynaqlar tərəfindən daha çox savad alırsa - bu, Azərbaycanda da belədir - bu halda savad-davamiyyət arasındakı balans pozulmuş olur.

İsrail və Meksikada da eyni vəziyyətdir. Orda da tam bir gün məktəbə getməyən şagirdlərin riyaziyyatdan aldığı qiymət digər həmyaşıdlarından 7 bal daha yüksəkdir. Orda da özəl dərslər, hazırlıq kursları çox populyardır.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 270 (6298) 4 dekabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Türkiyə-Rusiya gərginliyinin davam edəcəyi təqdirdə bunun zərbəsinin həm də Azərbaycana dəyəcəyi barədə irəli sürülən ehtimallar özünü sürətlə doğrultmaqdadır. Moskvanın Qarabağda müharibəni alovlandırmaq niyyətinin olması da ermənilərin son günlər yenidən aqressivləşməsi misalında özünün təsdiqini tapır.**






# Moskva Qafqazdakı "barıt çəlləyi"nə od vurmaq istəyir

## NATO və Türkiyəyə qarşı hərəkətə keçən Rusiya Ermənistanı təxribatlar törətməyə sövq edir; ordumuzun giziri şəhid oldu; Müdafiə Nazirliyi düşmənə xəbərdarlıq etdi

**Fərrux Məmmədov:** "Moskva Cənubi Qafqazda müttəfiqi olan Ermənistan üzərindən Azərbaycana və Gürcüstana siyasi və hərbi təzyiqləri artıracaq"

Rusiyanın Ermənistandakı hərbi mövcudluğunu son günlər qat-qat artırması da işğalçı ölkənin daha da quduzlaşmasına stimul verib. Son günlərdə bir əsgərimizin şəhid olması barədə xəbər vermişdik. İndi isə məlum oldu ki, cəbhədə Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu gizir Novruzov Fariz Əlabbas oğlu da düşmən gülləsindən həlak olub. Müdafiə Nazirliyi bildirir ki, Ermənistan tərəfi regiondakı çətin hərbi-siyasi şəraitdən öz xeyrinə istifadə etmək məqsədilə vəziyyəti bir qədər də gərginləşdirməyə çalışır: **"Silahlı qüvvələrimizin bölmələri tərəfindən əməliyyat şəraitinə uyğun olaraq düşmənin fəallaşması cəhdinin qarşısının alınması və şəhidlərin qanının yerdə qalmaması məqsədilə zəruri tədbirlər həyata keçiriləcək".**

Müşahidəçilər hesab edir ki, Ankara-Moskva qarşıdurması ilə paralel şəkildə NATO-nun Rusiyanın maraq dairəsində olan bölgələrə doğru irəliləməsi qarşıdurmanın miqyasını getdikcə böyütməkdədir. Alyansın öz sıralarına Monteneqronu daxil etməklə bağlı qərarının ardınca NATO-nun baş katibi Yens Stoltenberq rəsmi Moskvanı silkələyən növbəti açıqlamanı verib. O deyib ki, NATO və Gürcüstan əməkdaşlığı dərinləşəcək. Bundan əvvəl ABŞ-ın analoji mövqedən çıxış etməsi, həmçinin Gürcüstanda Krtsanisi milli təlim-məşq mərkəzində NATO-nun təlim-tədris bazasının açılışı da Rusiyanın regiondan sıxışdırılmasına yönəlik planlardır. Yay aylarında Rusiyanın Abxaziyadakı hərbi birləşmələrinin Gürcüstanın içərilərinə doğru irəliləməsi, Batumi magistralına və Bakı-Supsa neft kəmərinə nəzarət etmək imkanı qazanması sözsüz ki, reaksiyasız qala bilməzdi və artıq son müşahidələr də bunun təsdiqidir. Rusiyanın Gürcüstana bayrağını sancması isə Azərbaycanın da əl-qolunun birdəfəlik bağlanması, enerjidaşıyıcılarımızın Qərbə çıxışının dayandırılması demək olardı. NATO-nun son addımlarını Rusiyanın cavabsız qoymayacağı bəllidir. Həm NATO-Rusiya, həm Türkiyə-Rusiya münasibətlərində gərginliyin artması, həmçinin tərəflərin Qafqaz regionunda toqquşması Qarabağ ətrafındakı duruma da ciddi təsir göstərəcək. Təsadüfi deyil ki, eyni vaxtda Rusiyanın bir neçə media orqanı Qarabağ müharibəsinin başlayacağı barədə ehtimallar irəli sürməyə başlayıb. "Bakı Xəbər" qəzetinin məlumatına görə, solovei.info saytı diplomatik mənbəyə istinadən Dağlıq Qarabağda müharibənin başlaya biləcəyi xəbərini yayıb: **"Dağlıq Qarabağ Türkiyə və Rusiya arasında ciddi qarşıdurmaya səbəb ola bilər. Türkiyə Azərbaycan tərəfindən çıxış etmək niyyətindədir".** Polit.ru saytı da eyni iddialardan çıxış edərək Qarabağda Ankara və Moskvanın müharibəyə başlayacağı ehtimalının güclü olduğunu yazıb. "Svoboda Pressa" nəşri isə bildirir: **"Anlamaq lazımdır: Qarabağ Cənubi Qafqazda barıt çəlləyidir. Təhlükəsizlik siyasəti üzrə ixtisaslaşan Stokholm İnstitutunun direktoru Svante Kornell deyirdi ki, "Qafqaz münaqişələrində Qarabağ ən böyük strateji və ümumregional qiymətə malikdir. 1990-cı illərdən sonra Qarabağ münaqişəsi Qafqazda dövlətlərin əsas qarşıdurma nöqtəsinə çevrilib".** Kornellin dediyi kimi, Qarabağ Cənubi Qafqazda böyük müharibənin başlanması üçün ən qaynar nöqtədir. Görünür, yeni geosiyasi qarşıdurmalar Qarabağ atəşinə alovlandıracaq".

***

Bu ərəfədə Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun ATƏT-in Belqradda keçirilən nazirlər toplantısı çərçivəsində Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Andrej Kaspşiklə görüşü diqqət çəkir. Düzdür, belə görüşlərin sayı-hesabı bilinmir. Ancaq hazırkı gərginliklər, üstəlik, ermənilərin son vaxtlar cəbhədə aktivləşməsi, Azərbaycanın itkilər verməsi, həmçinin bölgədə böyük müharibənin başlayacağı barədə yayılan informasiyaların fonunda bu görüşün özəlliklərinin olması şübhə doğurmur. E.Məmmədyarov münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq dörd qətnaməsinə uyğun olaraq, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində tezliklə həllinə nail olmaq üçün Minsk Qrupu həmsədrlərinin səylərinin artırılmasının vacibliyini vurğulayıb. XİN başçısı Bakının mövqeyini bir daha bəyan edərək deyib ki, münaqişənin həlli üçün ilk növbədə Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması təmin olunmalıdır.

Türkiyənin XİN başçısı M.Çavuşoğlunun ardınca baş nazir Əhməd Davudoğlunun Bakı səfəri Azərbaycan xaricində, xüsusilə Rusiya və Ermənistanla həssaslıqla izlənilir. Ermənistan parlamentinin deputatı, xarici əlaqələr komitəsinin üzvü Artak Zaxaryan da deyib ki, Türkiyə ətrafında yaşanan gərginlik bölgədə mürəkkəb vəziyyət yaradacaq. Yeri gəlmişkən, bundan öncə həm Çavuşoğlunun, həm də Davudoğlunun "Qarabağ məsələsində Azərbaycanın yanındayıq" deməsi düşməni xeyli narahat edib və Türkiyənin Qarabağı azadetmə əməliyyatına qoşulacağı ehtimalları güclənib.

**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov isə "Yeni Müsavat"a bildirdi ki, Rusiya-Türkiyə gərginliyinin yaxın vaxtlarda səngiyəcəyini düşünür:** "Bunun alternativ yolu yoxdur. Bəribaşdan risk edib belə bir qəti fikir söyləmək istəyirəm ki, hər hansı silahlı toqquşmanın olmasını istisna edirəm. Tərəflər arasında informasiya məkanında söz dueli, dartışmalar, hardasa didişmələr olması qaçılmazdır. Amma yenə də təkrarlamaq istəyirəm ki, bu baş vermiş insident ilə əlaqədar dünyanın aparıcı gücləri öz qəti mövqeyini bildirib və Rusiya da yavaş-yavaş sakitləşməyə borcludur. Əks təqdirdə, rəsmi Moskvanın ata biləcəyi NATO üzvü olan Türkiyəyə qarşı hər hansı səhv addımı fəlakətli sonluqlara gətirə bilər. Bunu yəqin ki, Putin və onun beyni qızmış generaliteti də bilməmiş deyillər". **Ü.Cəfərov qeyd etdi ki, ermənilərin fəallaşması həm öz ağılsızlıqlarının, həm də onların himayədarlarının işarəsi ilə olan bir hərəkətə daha çox oxşayır:** "Bu da cavabsız qalmayacaq. Çox keçməyəcək ki, Ermənistan ordusunun da itkiləri ilə bağlı xəbərlərə rast gələcəyik. Bu, hər dəfə belə olub və artıq xeyli vaxtdır ki, sanki eyni ssenari üzrə hadisələr təkrarlanır. Əlbəttə ki, burada Ermənistan tərəfinin özbaşınalığı və təxribatı daha aydın şəkildə özünü büruzə verir. Hər zaman Azərbaycana öz qardaşlıq əlini uzatmış və uzadan Türkiyə də proseslərin kim tərəfindən qızışdırılmasına yönəlik addımları görür və ermənilərin özlərinə və havadarlarına həm diplomatik, həm də əyani şəkildə deyir ki, diqqətli olun, edəcəyiniz hər hansı hərəkət əsla cavabsız qalmayacaq". **Hərbi ekspert şübhə etmir ki, Türkiyə Qarabağ məsələsinə qarışa və uzun illərdir işğal altında qalan torpaqların azad edilməsi prosesində iştirak edə bilər:** "Türkiyənin baş naziri Əhməd Davudoğlunun Bakı səfərindən də çox vacib nəticələr gözləməyə dəyər. Rusiya unutmamalıdır ki, həm Azərbaycan, həm də Türkiyə əgər Ermənistan Silahlı Qüvvələrini işğal altında olan ərazilərdən sıxışdırıb çıxartmağa başlasa, buna Rusiya əsla qarışa bilməz! Çünki söhbət Azərbaycanın beynəlxalq arenada tanınmış və tanınan ərazilərindən gedir. Ruslar o vaxt hərəkət edə bilərlər ki, söhbət Ermənistanın ərazisinə ola biləcək təhlükələrdən getsin. Belə təhlükənin olması isə gözlənilən deyil. Ən sonda, onu deyim ki, Rusiyanın dəstəyi və köməyi olmazsa, Azərbaycan çox qısa bir zamanda Ermənistanın işğalçı qüvvələrini separatçılarla birgə bizim ərazilərdən silib-süpürə bilər. İnanıram ki, bizim türkiyəli qardaşlarımızın yalnız mənəvi dəstəyinə ehtiyacımız ola bilər. Yerdə qalanını isə özümüz bacaracayıq".

**NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov isə "Yeni Müsavat"a açıqlamasında xatırlatdı ki, Putin hələ baş nazir təyin olunarkən onun qarşısında üç önəmli məsələ prioritet xarakter daşıyırdı.** "Birinci, həmin tarixdə mövcud olan Çeçenistanda və Dağıstanda müharibənin bitirilməsi və Rusiyanın Şimali Qafqazda tək hakimliyinə sahib olması, ikincisi, Yeltsinlə bərabər məhv olmuş Rusiya vizyonunun yenidən bərpası və dünya siyasi arenasında yenidən güclü görünmək, üçüncü isə köhnə SSRİ-ni bərpa etmək, lakin yeni adla. Putin demək olar ki, dolayı yolla olsa da, bunlardan ikisinə nail olub. Üçüncü proses isə ağırdır. Lakin Rusiya bu prosesi də öz siyasətinə uyğun şəkildə davam etdirir. Bu nədən ibarətdir? Bəzi ölkələrə siyasi təzyiq, digərlərinə hərbi təzyiq və çevriliş etmə qorxusu ilə özlərinə və yaratmaq istədikləri ittifaqa sürükləmək. Əslində bu ittifaq öz-özlüyündə səmimi olmayan, sadəcə, işğalçılıq niyyəti kəsb edən bir birlikdir. Rusiya üçün plan daha çox önəmlidir, çünki bu, onun yaxın gələcəkdə varolma, yaxud yoxolma məsələsini həll edir. Bu baxımdan Rusiya Cənubi Qafqaz ölkələrini öz təsirindən kənara buraxa bilməz. Əgər Cənubi Qafqazda Rusiyanın hakimliyi bitərsə və ya burada kiçik bir axsama yaşansa, Rusiyanın zəifləməsi və parcalanması sürətlə davam edəcək. Rusiya bütün bunları hesablayaraq Cənubi Qafqazda müttəfiqi olan Ermənistan üzərindən Azərbaycana və Gürcüstana siyasi və hərbi təzyiqləri artıracaq. Onun əsas məqsədi Gürcüstan üzərindən Ermənistan və İran dəmir yolu xətti layihəsini reallaşdırmaqdır. Bu, reallaşsa, NATO və Avropa Birliyinin bu ölkələrlə hər hansı bir əlaqəsi mümkün olmayacaq".

**Rusiyanın 5 rayonu azad edə biləcəyi barədə aylardır dolaşan söhbətlərə gəlincə, politoloq indiki şərtlər daxilində Rusiyanın təsiri ilə Dağlıq Qarabağın, yaxud ətraf rayonların geri qaytarılmasını real saymır:** "Bu gün Dağlıq Qarabağın Azərbaycana qaytarılması kimi məsələləri ortaya atan Rusiya əslində torpaqları qaytarmır, əksinə, işğal edir. Bir dəmir yolu xətti bütünlükdə Rusiyanın Cənubi Qafqazda tək hakimiyyətliliyinə gətirib cıxaracaq. Amerika, NATO və Avropa Birliyi bununla bağlı region ölkələri olan Gürcüstan və Azərbaycanı xəbərdar edib. Rusiyanın bu tərkib planının əsas hissəsində Gürcüstanda yaşayan Azərbaycan türklərini də rəsmi Tiflisə qarşı qaldırmaq durur. Bütün bunların bir səbəbi var: NATO və Amerikanı regiondan cıxarmaq. Bugünlərdə NATO-nun Qaradağı üzvlüyə dəvət etməsi Rusiyanın bu planını daha da sürətləndirdi. Çünki NATO getdikcə genişlənir və alyansın hərbi-siyasi gücü artır. Sabah üçün NATO artıq xilaskar qismində çıxış edəcək və bu da Rusiyanı təbii olaraq narahat edir. Rusiya hazırda Azərbaycan tərəfinə demək olar ki, hər gün siyasi olaraq və cəbhədə hərbi olaraq təzyiqlər edir. Prezidentlərin görüşündə acıq olmasa da, gizli şəkildə bu məsələlər müzakirə mövzusu olacaq. Təzyiqlərin bir səbəbi də NATO-nun genişlənməsi, Rusiyanın isə prosesləri sürətləndirmək istəməsidir".

Görünən budur ki, Rusiya Qafqazdakı "barıt çəlləyinə" od vurmaq, Qarabağ müharibəsini yenidən alovlandırıb digər məsələləri unutdurmaq istəyir. Diplomatik qaynaqlardan əldə etdiyimiz məlumata görə, Rusiya Ermənistandakı hərbi bazasına birbaşa quru yol açmaq üçün Azərbaycanı da tam nəzarət altına almaq planını işə salıb. Bu isə vəziyyətin olduqca təhlükəli məcraya daxil olmasından xəbər verir...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 270 (6298) 4 dekabr 2015



# Xoşbəxt olmaq istəyiriksə...

Hüseynbala SƏLİMOV

**Rusların məşhur satirik personajı K.Prutkov xoşbəxtlik məsələsini olduqca sadə həll etmişdi. Deyirdi ki, əgər xoşbəxt olmaq istəyirsənsə, onda vaxt itirmə tez ol...**

Bəli, onun dilində hər şey sadə idi - xoşbəxtliyi sadəcə, istəmək yetərdi... İndi bizim xoşbəxt cəmiyyət olmaq, layiq cəmiyyət olmaq çabalarımızı da seyr edən hər kəs deyərdi ki, niyə özünüzə əzab verirsiniz, xoşbəxt cəmiyyət olmaq istəyirsinizsə, olun...

Fəqət, bu xoşbəxtliyi açıqlamaq məqamı yetişəndə hərə üzünü bir tərəfə tutur. Bəzisi hətta "Kim deyir ki, biz xoşbəxt deyilik?" söyləyir...

Xoşbəxt cəmiyyəti necə təsəvvür edirəm? Ətraflı sadalasam çox yer alar.

Bəli, mən başa düşürəm, bütün müqayisələr əslində qüsurludur. İndi deyəcəyim məsələ də bir az nisbi, hətta qeyri-ciddi də görünə bilər. Amma nə etmək olar? Mən də xoşbəxtliyi belə başa düşürəm! Buna görə durub məni qınamayacaqsınız ki?!.

Bəli, o gün baxırdım, türkiyəli jurnalistlər baş nazir Ə.Davudoğlundan müsahibə götürürdülər. Yenə də qayıdacaqsınız ki, burada nə var ki? Məsələ bundadır ki, bizim birincilər kateqorik olaraq yerli media strukturlarına müsahibə vermirlər. Əvəzində ən ölüvay, ən geridə qalmış xarici media strukturlarına böyük həvəslə və hətta deyərdik ki, sevinclə müsahibə verirlər...

Xarici media strukturuna müsahibə verəndə sən daha çox dövlətin və ölkənin adından danışırsan, dövləti və ölkəni təmsil edirsən. Amma gəl, yerli mediaya sən bir hökumət və hakimiyyət təmsilçisi kimi müsahibə verirsən...

Türkiyədə sonuncunu - yerli mediaya müsahibə verməyi böyük həvəslə edirlər. Niyə? Səbəbi sadədir. Yerli media seçicilərə çıxış deməkdir. Sabah bu müsahibəni dinləyən və ya oxuyan adamlar hökumət və onun işi haqqında müəyyən təsəvvür əldə edəcək və qənaətə gələcəklər...

Bizdə dedik ki, yerli strukturlara müsahibə vermirlər. Ona görə ki, bizim hakimiyyət ictimai rəydən asılı deyil, onu seçicilər formalaşdırmır, ona görə də ictimaiyyətin onun haqqında nə düşünməsi hakimiyyəti heç narahat etmir...

Əgər bizdə də Türkiyədəki kimi seçkilər olsaydı onda bizim hakimiyyət də cəmiyyətə hər bir çıxışın üstündə əsərdi, fürsəti əldən verməzdi...

Ona görə də bilmirəm kədərlənim, yoxsa yenə də ironiya edim? Ona görə "ironiya" sözünü işlədirəm ki, bizimkilər on illərlə siyasətdə olsalar da yenə də müsahibə vermək və seçib-seçilmək nə olduğunu bilmədilər...

Elə bu səbəbdən də hətta Türkiyə cəmiyyəti mənə olduqca xoşbəxt görünür.

Hətta düşünürəm ki, bu xoşbəxtliyin üstündə əsmək lazımdır. Qorxuram ki, bu ölkə də siyasi sistemini dəyişəndən, prezident üsul-idarəsinə keçəndən sonra demokratiyadan uzaqlaşar, çünki prezident respublikaları bir qədər avtoritarlığa meyl edirlər. Nə etmək olar? Ümid edək ki, Türkiyə bu aqibətdən qaça biləcək...

Gələk özümüzə... Bəlkə kimsə deyəcək ki, xoşbəxtlik üçün buna nə az şey lazımdır!?.. Bəli, mənə çox şey lazım deyil. Düşünürəm ki, biz düşüncə vektorunu dəyişsək, güclü lider çabalarından güclü cəmiyyət arzusuna yönələ bilsək, hər şey yaxşı olar...

Bu gün baş verənlər həm də onun nəticəsidir ki, biz daim güclü lider arzulayırdıq. Müəyyən mənada bu arzuya çatdıq. Amma o vaxt heç ağlımıza da gəlməzədi ki, həmin güclü liderin güclü əli bizim başımıza da dəyə bilər...

Bəli, bunu fikirləşməmişdik. Amma oldu. İndi başa düşənlər və baş verənlərin fərqində olanlar daha güclü lider demir, güclü cəmiyyət deyir...

Amma qorxuram ki, bunun da ziyanı olsun. Sadəcə, başa düşmək lazımdır ki, güclü cəmiyyət heç də güclü kütlə, güclü toplum deyil, o, güclü fərdlərdən təşkil olunmuş böyük bir sosial qrupdur. Bəlkə də sonuncu bir qədər aydın və dəqiq təsəvvür olunmayacaq. Ona görə də deyiblər ki, demokratiya azad və savadlı cəmiyyətin hakimiyyətidir. Əgər azadlıq və savad yoxdursa, onda tez bir zamanda avtoritarizmin girdabına yuvarlanacağıq...

Elə bu səbəbdən sonda etiraf etməyə məcbursan ki, ən azı cəmiyyətin xoşbəxtlik formulu K.Prutkovun təsəvvür etdiyi qədər də sadə deyil. Əgər tək mən azadlıq istəyirəmsə, amma başqaları bunu istəmirsə, nə qədər əlləşirsənsə əlləş, xeyri yoxdur, biz azad olmayacağıq. Ona görə də badələri qaldıranda həmişə "Bizim və sizin azadlığınızın şərəfinə!" demək lazımdır...

# Xədicə İsmayılın həbsindən bir il ötür

## Elmira İsmayılova: "Həmişə birlikdə qalmışıq deyə, onun üçün çox darıxıram..."

**Dekabrın 5-də araşdırmaçı-jurnalist, AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılın həbsindən 1 il ötür. Məhkəmə bu ilin sentyabrında Xədicə İsmayılı vergidən yayınma, qanunsuz sahibkarlıq ittihamlarıyla 7 il yarım azadlıqdan məhrum edib. Xədicə İsmayıl ittihamları rədd edir, həbsinin jurnalist fəaliyyəti ilə bağlı olduğunu deyir. «Amnesty International» Xədicə İsmayılı vicdan məhbusu elan edib.**

*Həbsin ildönümündə jurnalistin anası Elmira İsmayılova AzadlıqRadiosuna müsahibə verib:*

**- Elmira xanım, Xədicəsiz 1 il necə keçdi?**

- Çox darıxıram. Xədicə 1 ildir ki, yoxdur, amma elə bilirəm ki, 5 ildir yoxdur. Həmişə birlikdə qalmışıq deyə, onun üçün çox darıxıram. Amma bilirəm ki, o, düz yoldadır, haqq sözü dediyinə görə həbsdədir. Ona görə də dözürəm, sınmıram. Allah Xədicə kimi insanları çoxaltsın və onlara cansağlığı versin.

**- Bu 1 ildə jurnalistikada Xədicənin yeri görünürmü?**

- Görünür. Mən həmişə AzadlıqRadiosuna da qulaq asmışam, oxumuşam, xüsusilə də araşdırmaları. Amma bu 1 ildə Azərbaycandan 3-4 araşdırma çıxıb. Xədicə olanda isə elə bir ortam qaynayırdı. O, həm uşaqlara öyrədirdi, həm də yazırdı. Uşaqlar gəlirdilər evə, burada müzakirələr aparırdılar, günümüz gur keçirdi, hiss edirdim ki, iş gedir və onlarla birgə mən də sevinirdim.



Xədicə İsmayıl

**- Həbs Xədicənin xarakterində, həyata baxışında nəyisə dəyişdiribmi? Siz bir dəyişiklik hiss edirsinizmi?**

- Yox. Xədicə elə həmin adamdır. Həmin azad fikirli adamdır və öz yolundan heç vaxt dönməyib və dönməyəcək də.

**- Bu 1 ildə keçən məhkəmə prosesləri barədə fikriniz nədir?**

- Mən bilirdim ki, bizdə məhkəmə yoxdur. Bir məhkəmə ki, qanunları tapdalayıb keçir, deməli, o, məhkəmə deyil. Bu 1 ildə bir daha bunun şahidi oldum. Mən bizdə məhkəməyə inanmıram.

**- Elmira xanım, sizcə, Xədicə nə vaxt azad olunacaq?**

- Xədicə saxlananda düşünürdüm ki, məhkəmə proseslərinin birində onu buraxacaqlar. Xədicə mənə dedi ki, «ana, möhkəm ol, məni buraxmayacaqlar, özünü belə şeylərə hazırlama». O bilirdi ki, mən hər prosesdə onu buraxacaqlarını gözləyirəm və buraxmayanda pis oluram, halım pisləşir. Məni arxayın etdi ki, buraxmayacaqlar. Ondan sonra buraxılmasını gözləmirdim. Bilirdim ki, ona 7-8 il verəcəklər, elə də oldu. Bizim məhkəmə yuxarılar üçün işləyir, millət üçün yox.

**- Sizcə, həbs 7 il çəkəcək?**

- Baxarıq, artıq heç nəyə inamım yoxdur. Hər şeyə də hazıram, sınmıram.

**- Elmira xanım, adətən siyasi məhbuslar və ya təzyiq hiss edən bir kəs mühacirət yolunu seçir. Sizcə, Xədicə azadlığa çıxandan sonra o da bu yolla gedəcək, mühacirətə yollanacaq?**

- Xədicə necədirsə, elə də olacaq. Buna əminəm, hamı da əmin olsun ki, Xədicə olduğu kimi qalacaq.

# Leyla Yunusun səhhəti daha da pisləşib

## Hüquq müdafiəçisinin mədəsi yemək qəbul etmir

**8,5 il azadlıqdan məhrum edilən Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunusun hazırda mədəsi yemək qəbul etmir, yediklərini qaytarır. Bu barədə Meydan.TV-yə hüquq müdafiəçisinin yaxınları məlumat verib. Onların bildirdiyinə görə, noyabrın 30-da həkim Vitt Leyla Yunusu müayinə edib və ona "sağlamlığınızın bu həddə çatdığını təsəvvür edə bilməzdim"deyə, söyləyib.**

Yaxınları əlavə edib ki, hüquq müdafiəçisinin səhhəti çox kritikdir, hətta bu vəziyyəti ölüm həddi də adlandırmaq olar: "Buna görə Leyla Yunusun səhhətinin kəskin pisləşməsi ilə bağlı müdafiə tərəfi dekabrın 7-də onun barəsində həbs-qətimkan tədbirinin dəyişdirilməsi barədə məhkəməyə müraciət edəcək". Bu xəbərləri eşidən Leyla Yunusun həyat yoldaşı Arif Yunusun da səhhəti pisləşib. Onun ayaqları şişdiyindən yerimə qabiliyyətini itirib: "Bütün bunlar Leyla Yunusa görədir, o, çox fikir çəkir və bununla da təzyiqi qalxır. Onu müalicə olunmaq üçün azad etmişdilər, amma Leyla Yunusun durumu Arif bəyin səhhətini daha da pisləşdirir".

Leyla Yunus Cinayət Məcəlləsinin 274-cü (Dövlətə xəyanət), 178.3.2-ci (Dələduzluq (külli miqdarda ziyan vurmaqla törədildikdə), 192.2.2-ci (Qanunsuz sahibkarlıq (külli miqdarda gəlir əldə etməklə törədildikdə), 213.2.2-ci (Vergi ödəməkdən yayınma) külli miqdarda törədildikdə), 320.1-ci (Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) və 320.2-ci (Bu Məcəllənin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri, Arif Yunus isə 178.3.2-ci (dələduzluq) və 274-cü (Dövlətə xəyanət) maddələri ilə təqsirləndirilir.



Leyla Yunus

Hər iki şəxsin barəsində olan Cinayət Məcəlləsinin 274-cü (Dövlətə xəyanət) maddəsi üzrə cinayət işi ayrı icraata verilib. Hazırda məhkəməyə göndərilən cinayət işi dələduzluq və digər cinayət işləri ilə bağlıdır.

# MTN-in həbsdəki generalının şikayəti rədd edildi

**Bakı Apelyasiya Məhkəməsində Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Transmilli İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsinin sabiq rəisi, general-mayor Sübahir Xaliq oğlu Qurbanov barəsində həbs-qətimkan tədbirinin seçilməsinə dair məhkəmə qərarından apelyasiya şikayəti üzrə məhkəmə keçirilib.**

Modern.az saytı "Report"a istinadən xəbər verir ki, Məhkəmə Səbayel Rayon Məhkəməsinin qərarını qüvvədə saxlayıb, S.Qurbanovun apelyasiya şikayəti təmin edilməyib.

Qeyd edək ki, noyabrın 25-də Baş Prokurorluğun yaydığı məlumatda MTN-in 21 sabiq əməkdaşının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edildiyini bildirilib. 19 şəxs barəsində həbs-qətimkan tədbiri, 1 nəfər barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib, istintaqdan yayınan 1 şəxs barəsində isə həbs-qətimkan tədbiri seçilməklə axtarış elan edilib. MTN əməkdaşlarının törətdiyi cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 57 nəfər zərərçəkmiş şəxs qismində tanınıb. Onlara dəymiş ziyanın ümumi məbləğinin on milyonlarla manat olduğu müəyyən edilib.

Səbayel Rayon Məhkəməsində S.Qurbanov barəsində dörd ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Ona Cinayət Məcəlləsinin 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 309-cu (vəzifə səlahiyyətlərini aşma) maddələri ilə cinayət işi açılıb.

# Baş redaktor əvəzi Hacı Taleyə görə tutulub?

**Dekabrın 1-də axşam saatlarında azadxeber.net dini saytının redaktor əvəzi İlkin Məmmədli saxlanılıb. Jurnalistin həmkarları bildiriblər ki, İ.Məmmədli Bakıxanov qəsəbəsində saxlanılıb.**

Mağazaya gedən gənc geri dönməyib. Sonradan şahidlər bildiriblər ki, mülki geyimli şəxslər jurnalisti avtomobilə əyləşdirərək naməlum istiqamətə aparıblar. Sabunçu Rayon Polis İdarəsində İ.Məmmədlinin saxlandığını atasına təsdiqləyiblər.

Onun DİN Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinə aparıldığı ehtimal edilir. Azadxeber.org saytının redaktoru Nicat Əliyev həbsdədir. O, 2012-ci ilin mayında Bakıda keçirilən "Eurovision" mahnı müsabiqəsini tənqid etdikdən sonra həbs olunub. Sonradan dini ədavətin qızışdırılmasında, qanunsuz silah saxlanmasında ittiham edilib və 10 il azadlıqdan məhrum olunub.

Eyni saytın öncə baş redaktorunun, bir neçə il sonra isə baş redaktor əvəzinin həbsi diqqət doğurur. Əldə etdiyimiz məlumata görə, sayt çoxdan bəri fəaliyyət göstərmir. Sadəcə, onun facebook səhifəsi var. Amma fəaliyyəti dövründə onun daha çox Hacı Tale Bağırzadəyə informasiya dəstəyi verməsi bilinir. İ.Məmmədlinin də bu səbəbdən saxlanılması şübhəsizdir. Bu baxımdan T.Bağırzadə ilə yanaşı, onun bütün yaxın ətrafı, habelə ona yaxınlığı ilə seçilən media orqanı rəhbərinin istintaqa çəkilməsi təəccüblü deyil. Saytın baş redaktoru N.Əliyevin də məhz dini motivlərlə həbsi onların dini kəsimlə əlaqə, hətta sonuncuların informasiya orqanı olması şübhələrini artırır.

❑ Sevinc TELMANQIZI

**Hüquq-mühafizə orqanlarında çalışan hüquqi biliyi olmayan antihüquqçular var. Bu şəxslərin əksəriyyətinin ilk təhsili tamamilə başqa ixtisas üzrə olsa da, vəzifəyə keçmək üçün hansısa yollarla ikinci təhsil alır və hüquq diplomu əldə edirlər. Ancaq əllərində hüquq diplomu olmasına baxmayaraq, bu cür şəxslər hüquq və qanun anlayışlarını bir-birindən ayırd edə bilmirlər. Məsələn, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov 1993-cü ildə, yəni 37 yaşında Bakı Dövlət Universitetinin hüquq fakültəsini qiyabi olaraq bitirib. Bəlkə də MTN-də baş verənlər bu cür hüquq anlayışı olmayan şəxslərin uzun illər vəzifə tutmasına görə baş verib.**

# Hüquq diplomlu antihüquqçular...

## Müzəffər Baxış: "Sonradan hüquq təhsili alan şəxslər cəmiyyətin bu sahə üzrə ən savadsız adamlarıdır"

Maraqlıdır, bu cür hüquq diplomlu antihüquqçuların qarşısını necə almaq olar? Ümumiyyətlə, hüquq fakültəsini ikinci təhsil kimi qiyabi bitirmək nə dərəcədə effektli ola bilər?

**Hüquqşünas Müzəffər Baxış** bildirdi ki, vəzifədə olan və sonradan hüquq təhsili alan şəxslər cəmiyyətin bu sahə üzrə ən savadsız adamlarıdır: "Bu məsələ Azərbaycanda çox ciddi məsələdir. Əgər şəxs ilk təhsil olaraq tibbi təhsil və ya digər ixtisas üzrə ali məktəbi bitirirsə, sonradan onun başqa bir sahə üzrə ali təhsil alması heç bir effekt vermir. Yəni həmin şəxsin ikinci təhsil aldığı sahə üzrə peşəkarlıq əldə etməsinə dəlalət etmir. Məsələn, Azərbaycanda hüquq təhsili alan şəxsin nadir hallarda görə bilərsiniz ki, gedib ikinci peşə kimi həkim peşəsinə yiyələnsin. Amma mən sizə çoxlu sayda həkim peşəsinə yiyələnmiş şəxslər göstərə bilərəm ki, onlar sonradan hüquq təhsili alıblar və hüquqşünas kimi fəaliyyət göstərməyə başlayırlar. Bunun isə bir neçə səbəbi var. Bizim cəmiyyət korrupsiyaya qurşanmış bir cəmiyyət olduğuna görə həkim kimi gözəl bir peşəyə yiyələnmiş şəxs sonradan öz marağını təmin etmək məqsədi ilə hüquq təhsili alır, hakim, prokuror və digər vəzifələrdə çalışıb rüşvət toplayır. Məsələn, Eldar Mahmudov sovet dövründə Azərbaycan İqtisad İnstitutunu bitirib. Oranı necə bitirib, həmin dövrdə təhsilin hansı səviyyədə olması hamıya bəllidir. Eldar Mahmudov sonradan əyri yollarla Bakı Dövlət Universitetinin (BDU) hüquq fakültəsinə daxil olub və qiyabi olaraq oranı bitirib. Mən tam məsuliyyətlə deyə bilərəm ki, Eldar Mahmudov Bakı Dövlət Universitetində hüquq sahəsi üzrə heç bir bilik əldə etməyib, heç bu biliyi öyrənməyə cəhd də göstərməyib. Eldar Mahmudov o vaxt polis işçisi olub və orada da təhsil alıb. Mən onunla təhsil alanları da tanıyıram. Onlar Azərbaycan cəmiyyətində bu sahə üzrə ən savadsız adamlardı və qiyabi təhsil alıblar. Ümumiyyətlə, mən hüquq fakültəsi üzrə qiyabi təhsili qəbul etmirəm. O vaxt Bakı Dövlət Universitetində qiymət almağın üç yolu vardı. Mən orada təhsil aldığım üçün bunu bilirəm. Birinci yol ondan ibarət idi ki, yaxşı biliyin olsa sənin qiymətini heç bir müəllim kəsmirdi. Biliyə həmin dövrlərdə çox yüksək qiymət verilirdi. İkinci yol, tapşırıq idi. Üçüncü yol isə rüşvət yolu idi. Elə müəllimlər var idi ki, onlar pulun qarşısında əyilirdilər. Eldar Mahmudov polis işçisi olduğu üçün o əyri yollarla gedib Bakı Dövlət Universitetinin hüquq diplomunu alıb. Ancaq bu şəxs hüquq və qanun anlayışlarını da bir-birindən ayıra bilmir. Müəllimlər həmişə bizə deyirdilər ki, bu savadsız tələbələri qoruyun, onlar sizin rəhbəriniz olacaq. Biz həmişə müəllimlərin bu sözünə gülürdük. Elə bilirdik ki, lağ edirlər. Cavan idik, həyatı yaxşı dərk etmirdik. Amma onların dediyi kimi də oldu".





## Etibar Əliyev: "Elmin və təhsilin normal monitorinqinə icazə verilsə, dəhşətli rüsvayçılıqlar ortaya çıxa bilər"

**Hüquqşünas savadsız insanların vəzifələrdə olmasının Azərbaycanın ən böyük bəlası olduğunu bildirdi:** "Bu cür qeyri-hüquqa söykənən Azərbaycan kimi dövlətlərdə savadsızlıq vəzifə əldə etmək üçün çox yaxşı effekt verir. Savadsız adamı vəzifəyə qoyurlar ki, onlar istənilən sifarişi yerinə yetirsinlər. Ona görə də Azərbaycan reallığında Eldar Mahmudov və digərlərinin ən yüksək vəzifədə işləmələri onların sırf savadsız olmaları ilə bağlıdır və sistemin yaratdığı bir qaydadır. Sistem nə qədər çox savadsız olsan sənə daha çox etimad göstərir. Ona görə də problem onun təhsil almasında deyil. Əgər həmin şəxslər çox yüksək savada, təhsilə sahib olsaydı, onu heç vaxt vəzifəyə qoymazdılar. Məsələn, Azərbaycanın sabiq baş prokuroru İlyas İsmayılov çox yüksək intellektə, təhsilə, biliyə, bacarığa sahib olan bir insan olub. Ona heç kim siyasi sifariş verə bilmirdi, bu qeyri-mümkün idi. Bu kimi savadlı insanlar onları doğrultmadığı üçün ən şərəfsiz, ləyaqətsiz insanları gətirib vəzifəyə qoydular ki, onlara siyasi sifarişlər verilsin və onlar da bu sifarişləri canla başla yerinə yetirirlər. Çünki onlar bilirlər ki, o vəzifəyə layiq deyillər. Onları yalnız şəxsiyyəti savadsız, əxlaqsız olduğuna görə o vəzifəyə qoyurlar. Ona görə də onlara verilə bütün sifarişləri yerinə yetirirlər. Bu, Azərbaycan cəmiyyətinin çox böyük bəlasıdır. İnanmıram ki, yaxın dövrlərdə Azərbaycan bu bəladan qurtulsun. Sistem dəyişilməsə xeyri yoxdur".

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev:** "İngilis lordlarının birinin ölkənin inkişafının səbəbləri haqqında maraqlı fikrini xatırlatmaq istəyirəm: "Biz hüquq və tibb ixtisaslarına təsadüfi adamların yiyələnməsinə imkan verməedik". Düşündürücü fikirdir. Azərbaycanda hüquq ixtisası vəzifəyə çəkilməkdə mühüm rol oynayır. Sovet vaxtı ixtisas dəyişməyə icazə verilmirdi. Mən boş vaxtlarımın birində hakimlərin bioqrafiyası ilə maraqlandım. Birinci təhsili Texniki Universitet, Tibb Universiteti olan hakimlər var. Hüquq ixtisasının Azərbaycanda perspektivli sahə olduğunu nəzərə alıb, çox adam bu ixtisasa hətta ehtiyat variant kimi də olsa yiyələnir. Buna şərait olduğu üçün kimin imkanı varsa, bu fürsətdən istifadə edir. Keçmiş təhsil naziri Misir Mərdanovun imzası ilə minlərlə insan ixtisasını dəyişib və ikinci ixtisas kimi hüquqa qəbul olunub. Yaxşı ki, Eldar Mahmudovun könlündən elmlər doktoru diplomu keçməyib. Mən sizi əmin edim ki, ona müdafiəsiz hansı sahədən istəsə elmlər doktoru, alimlik dərəcəsi verilərdi. Toxunduğunuz məsələ çox aktual olduğundan başqa mühüm bir məqamı diqqətinizə çatdırım. İndi hüquq sahəsi üzrə ali təhsil diplomu almaq, artıq bu sahə üzrə alimlik dərəcəsi almağın kölgəsində qalıb, indi elmə girişiblər. Yenə də münbit şərait var. Məsələn, Konstitusiya Məhkəməsində yüksək vəzifə tutan şəxslərdən biri 48 yaşında namizədlik dissertasiyası müdafiə edib. Bu yaxşı nümunə deyil. Son 10 ildə hüquq üzrə fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələri alanların siyahısına baxsanız dəhşətə gələrsiniz. Elmin və təhsilin normal monitorinqinə icazə verilsə, dəhşətli rüsvayçılıqlar ortaya çıxa bilər".

❑ **Günel MANAFLI**



# Hacı Məmmədovun ifadəsini Ali Məhkəmə araşdırmalıdır

## Səhv məhkəmə hökm və qərarlarına baxılması hüququna yalnız Ali Məhkəmənin Plenumu malikdir

**Xəbər verdiyimiz kimi, Milli Təhlükəsizlik Nazirliyinin (MTN) İstintaq Təcridxanasında saxlanılan Daxili İşlər Nazirliyinin (DİN) sabiq baş əməliyyat müvəkkili Hacı Məmmədov yenidən ifadə verməyə hazırlaşır. Artıq onun yaxınları vəkillərdən biri ilə müqavilə bağlayıblar.**

Hacı Məmmədov MTN-in yeni rəhbərliyinə, Baş Prokurorluğa və Ali Məhkəməyə müraciət hazırlayır. O, 2005-ci ildə həbs edildəndən sonra yalan ifadə verməyə məcbur edildiyini, ifadəsi əsasında həbsə alınaraq ömürlük azadlıqdan məhrum edilmiş DİN-in Baş Cinayət-Axtarış İdarəsinin sabiq rəisi Zakir Nəsirovun günahsız olduğunu açıqlayıb. Onun belə bir müraciətinin araşdırılması qaydası haqda məlumat almaq üçün "Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri, tanınmış **hüquqşünas Müzəffər Baxışa** müraciət etdik. Tanınmış hüquqşünas qaydaları izah etməklə yanaşı, maraqlı fikirlər də söylədi: "Məhkəmənin hökm və qərarlarına yeni açılmış hal üzrə baxılması əsasları ola bilər. Cinayət Prosessual Məcəlləsinin 461-ci maddəsi ilə tənzimlənir. Həmin əsaslardan biri də düzgün olmayan, səhv hökm və ya qərarın çıxarılmasına səbəb olan zərərçəkmiş şəxsin, şahidin bilə-bilə yalan ifadə verməsi, ekspertin bilə-bilə yalan rəy verməsi, tərcüməçinin bilə-bilə yalan tərcümə etməsi, maddi sübutların, istintaq və məhkəmə hərəkəti protokollarının və digər sənədlərin saxtalığının məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarı ilə müəyyən edilməsi; cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı təhqiqatçının, müstəntiqin, prokurorun və ya hakimin məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarı ilə müəyyən edilmiş sui-istifadələrinin düzgün olmayan - səhv hökm və ya qərarın çıxarılmasına səbəb olması; özü-özlüyündə və ya əvvəllər müəyyən edilmiş digər hallarla birlikdə məhkumun təqsirsizliyinə və ya onun məhkum olunduğu cinayət əməlindən ağırlıq dərəcəsinə görə fərqlənən cinayət törətməsinə, yaxud bəraət almış və ya barəsində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verildiyi şəxsin təqsirliliyinə dəlalət edən, hökm və ya qərarın çıxarılması zamanı məhkəməyə və cinayət prosesinin tərəflərinə məlum olmayan digər hallar ola bilər.

Belə hallarda həmin səhv məhkəmə hökm və qərarlarının baxılması hüququna yalnız Ali Məhkəmənin Plenumu malikdir.

İşə Ali Məhkəmədə baxılması üçün yeni açılmış hallarla bağlı ərizə olmalıdır. Belə bir hüquqa təqsirləndirilən şəxs kimi Hacı Məmmədovla yanaşı, Baş Prokurorluq və Ali Məhkəmənin sədri malikdirlər. Hər bir halda kasasiya şikayəti öyrənilməlidir. Əgər qeyd olunan əsaslar tapılarsa, iş Ali Məhkəmənin Plenumuna çıxarılmalıdır.

Plenum həmin məhkəmə qərarlarını ləğv etməli, işi Ali Məhkəmənin kasasiya instansiyasına qaytarmalıdır. Kasasiya instansiyası da işi birinci və ya apelyasiya instansiyasına baxılmaq üçün göndərə bilər".

Qeyd edək ki, Hacı Məmmədov və digərləri 2005-ci il martın 10-da MTN-in keçirdiyi "Qara Kəmər" əməliyyatı zamanı həbs olunublar. 2006-cı ildən 2007-ci ilə qədər davam edən məhkəmə zamanı H.Məmmədov yarımçıq Hacı Məmmədovun yarımçıq ifadələri ilə yaddaşlarda qalan məhkəmənin sonunda onun özü də daxil olmaqla, DİN-in keçmiş şöbə müdiri Kamil Sədrəddinov, nazirliyin Baş Cinayət Axtarış İdarəsinin keçmiş rəsi Zakir Nəsirov və digər 7 nəfər ömürlük həbs cəzasına məhkum ediliblər.

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 270(6298) 4 dekabr 2015




# İman sahibinə xas olmalı üç keyfiyyət

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Ərbəin gününü - İmam Hüseynin (ə) və Kərbəla qəhrəmanlarının şəhadətinin 40-cı gününü arxada qoyduq. Alimlərimiz buyururlar ki, Ərbəin - Aşuranı yaşadan, Aşuranı yada salan bir fenomendir. Bu günlər bizə bir daha Aşura dərslərini xatırladır və ən başlıcası - İmam Hüseyn (ə) məntiqi, Həzrət Zeynəb (s.ə.) məntiqi ilə yaşamağı öyrədir.**

## Biganəlik cinayətə rəvac verir

Nə deyir bizə Hüseyn (ə) məntiqi, nələri öyrədir? Niyə zalım və sitəmkarlar zaman-zaman bu məntiqlə mübarizə aparmış, hər vəchlə onu aradan aparmağa səy etmişlər? Nəyə görə bəşərin aydınları üçün bu məntiq hər zaman mayak rolunu oynamış, qaranlıqdan işığa çıxaran bir bələdçi olmuşdur?

İmam Hüseyn (ə) məntiqi insana hər zaman haqqın, ədalətin, düzgünlüyün yanında olmağı tövsiyə edir. Axı zülm güclü və qüdrətli görünə bilir, dünyaya hökmranlıq edə biləcək qədər əhatəli qüdrətə malik olmaq xülyası yarada bilir. Zəif insan, məsləki formalaşmamış insan isə özünü aldatmaq durumunda ola bilər, müxtəlif bəhanələrlə özünü haqqın müdafiəsindən kənarda qoya bilər, hətta o dərəcəyədək yetişə bilər ki, haradasa zülmə bəraət də qazandırsın - amma bunlar mahiyyəti dəyişmir: insan nəticə etibarilə ya haqladır, yə da haqla müxalifdir.

Kərbəlada İmam Hüseynə (ə) qarşı nə qədər qoşun çıxarılmışdı? Əksər tarixçilər 30 min nəfər rəqəmini göstərirlər. Təsəvvür edək, 72 nəfərə qarşı 30 min! Biz öncəki bəhslərimizdə qeyd etmişdik ki, İmam Hüseyn (ə) qeyri-zorakı müqavimətin gözəl məktəbini qoymuşdur. Özü ilə kiçik uşaqlarını, ailəsini götürür bu şəhadət səfərinə. Məkkədə, Mədinədə insanları ayıldır, onlara anladır ki, Peyğəmbərin (s) gətirdiyi din məhv olmaq təhlükəsi ilə üz-üzədir. Bütün yol boyu aydınladır ki, onun səfəri - heç bir imtiyaz verməyən, fəqət yaxşılıqlara dəvət və pisliklərdən çəkindirmək kimi nəcib İlahi vəzifəni yerinə yetirməyə yönəli bir səfərdir və bu səfərin sonu şəhadətdir. Niyə? Çünki, milyonlarla kvadrat kilometr ərazidə olan xilafəti bir səltənət olaraq qəbul edən, bu səltənətə yiyələnmək üçün hər nə rəzilliyə getmək mümkündürsə, qol qoyan lənətlik Yezid güruhu üçün haqqın səsi - hətta çox azsaylı və kiçik bir qrup tərəfindən səsləndirilsə də belə - çox böyük, hətta ölümcül bir təhlükə kəsb edirdi. Və aydın idi ki, bu təhlükəni susdurmaq üçün lənətlik Yezid bütün qeyri-insani cinayətlərə əl atacaqdır və atdı da.



Amma yezid lənətlik təkbaşına nə edə bilərdi? Heç bir şey! Ona güc verən əsas amil - insanların laqeydliyi, biganəliyi, qorxaqlığı, "ağa deyir sür dərəyə - sür dərəyə" ideologiyası idi. Tarixçilər bəlli edirlər ki, Yezidin (lən) 30-minlik qoşununun böyük əksəriyyəti, "hamı gedir, birdən mən tək qalaram, deyərlər İmam Hüseynin (ə) tərəfdarısan» motivini rəhbər tutaraq, sürü instinkti ilə hərəkət edənlərdən formalaşmışdı. Amma öncə, sadəcə olaraq, qoşulanlar, "qıraqda qalaram, təki görsünlər ki, buradayam" deyənlər, kənarda qala bilmədilər! Mərhələ-mərhələ onlar alçaqlıqlara cəlb edilərək, nəhayət 1400 ildir ki, dünyanın hər bir yerində lənətlə yad edilən bir bəşəri cinayətdə şərik oldular. Allah Təala hər bir insanı laqeydlik və qorxaqlıq mərəzindən, haqqın xilafına getmək aqibətindən hifz etsin, inşəallah!

## İman sahibinə xas xislətlər

İnsanı diri saxlamaq üçün dinimizin tövsiyə etdiyi mühüm məqamlara toxunaq. Dinimiz vicdanı yaşatmaq üçün, imanı diriltmək üçün zəruri olan keyfiyyətlər mövzuna ciddi diqqət yetirir. İslam dini insanın vicdanını susdurmaq istəyən lənətlik iblisə şans vermir - bir şərtlə ki, insan özü azmaq istəməsin. İmam Cavaddan (ə) nəql edilən hədisdə bildirilir: **"İman sahibinin 3 xislətə ehtiyacı vardır: (1) Allah tərəfindən tövfiq; (2) özü tərəfindən vaiz (moizə olunmaq); (3) nəsihət edəndən qəbul".**

Mübarək hədisdə bəlli olur ki, iman yolunu getmək istəyən insanın yolu - İlahi tövfiqdən, Allahın ona yol göstərməsindən, onu hidayət yoluna yönəltməsindən keçir. Allah Təala hər bir insana yol göstərir, bu, Onun rəbbliyindən, qəyyumluğundan irəli gələn mövzudur. Lakin ümumi yol göstərməklə - Peyğəmbərlər (s), İmamlar (ə) vasitəsilə doğru yolu nişan verməklə, Müqəddəs Kitablar nazil etməklə yanaşı, Allah Təala hər bir insana xüsusi tövfiq inayət edir, xüsusi rəhm təzahür edir. Və bu tövfiqin dərəcəsi, insanın ruhi mərtəbəsindən asılı olur. Əgər insana İlahi tövfiq inayət olunmasa, insan bu lütfdən özünü məhrum etsə - heç bir iman hərəkəti mövcud ola bilməz. İlahi tövfiq kimlərə aid olur? Bu tövfiqin inayətini istəyənlərin və bu tövfiqin əta olunması şərtlərinə riayət edənlərin. O insanların ki, özlərinin daima Allaha bağlı olduqlarını dərk edirlər. İlahi tövfiq - iman yolunda olmanın birinci rüknü, mühüm dayağıdır.

İkinci rükn, ikinci mühüm və daşıyıcı dayaq - insanın daxilindən gələn moizə, onu ayıldan, daima xəbərdarlıq edən bir sədadır. Bu olmasa, insanın kənardan aldığı məlumat kafi deyildir. Əgər insan bir pis iş görübsə və bu zaman onun içində hansısa bir narahatlıq, təşviş yoxdursa - demək, vəziyyəti pisdir. Əgər insan etdiyi günahın üstündən rahatlıqla keçə bilirsə - bu, onun qəlbinin xəstəliyinə dəlalət edir.

İnsanın əli ilə yaradılan texnikanın, cihaz və mexanizmlərin belə, müvafiq siqnal ötürücüləri var ki, avadanlığın hansısa hissəsi sıradan çıxdıqda, xəbərdarlıq siqnalı göndərirlər. Allah Təala da insanın daxilində belə siqnal mənbəyi qoymuşdur ki, mənfi hərəkət baş verəndə, insan özünə qəlbi yaralar vuranda, dərhal həyəcan siqnalı verilsin. Bu ötürücünün, siqnalvericinin adı - vicdandır. Bu siqnalverici nə qədər həssas olduqsa, insanın daxili də bir o qədər sağlam durumdadır. Və əksinə, siqnalverici paslandıqda, insanın ruhi durumu çox acınacaqlı olur. İnsan vicdanın səsini batıra-batıra elə nadürüstlüyə gedib çıxa bilər ki, öz daxili barədə əslə heç bir məlumatı olmaz, özü özündən bixəbər olar. Allah insanı belə aqibətdən saxlasın!

## İnsanı oyaq saxlayan amil

İmanın bu ikinci rüknü üzərində bir qədər təfsilatı ilə dayanaq. Beləliklə, iman yolunda olmağın ikinci şərti odur ki, insanın daxilində, onu hər zaman oyaq saxlayan bir amil mövcud olsun. Burada söhbət vicdanın məhkəməsindən, insanın susmayan daxili nəzarətçisindən gedir. İnsanı günaha sürükləyən, onun məhvini istəyən lənətlik iblis, bu səsin susdurulmasını istəyir. İnsanların haqqını basan, özgənin malını yeyən şəxs, ən əvvəl öz vicdanını susdurur, daxildən gələn səsi batırır. Hər hansı bir günahı götürsək, təfavütü yoxdur, hər birinin səbəbi - məhz bu vicdan səsinin boğulmasındadır. Vicdan - bu amansız və heç bir rüşvət qəbul etməyən hakim, insanın tənəzzülə getməsinin qarşısını alır və onu məhvdən qoruyur.

Əlamətdar məqam odur ki, insanın mənəvi sərhədlərinin genişliyi bilavasitə onun özünənəzarət qabiliyyətinin durumu ilə bağlıdır. Çox rast gəlinən bir məsələdir ki, insanlar var, hansısa xoşagəlməz əməli yerinə yetirirlər, irad tutanda isə deyirlər ki, "günah ki, işlətmirik, başqasına pislik etmirik, nə olsun ki, hansısa əxlaqi prinsipləri pozmuşuq". Çox ağrılı bir təfəkkür tərzidir! Axı elə hər işin başı - məhz əxlaqdır. Bir şey ki, əxlaqın ziddinədir, demək bu, tənəzzülə aparan amildir. Digərinə zərər vurmursan, amma özünə ki, zərər vurursan! Allahın sənə verdiyi ölməz ruhu, bu qiymətli əmanəti yaralayırsan!

Həqiqətdə, insanın rəhbər tutmalı olduğu meyar - kamillik və naqislikdir. Naqislik - insanı Allahdan uzaqlaşdıran, tənəzzülə aparan hər bir şeydirsə, həqiqi kamal da bunun əksidir - insanı Rəbbinə yaxınlaşdıran, onu İlahi rəhmətdə həll edəndir. Və vicdan, bu baxımdan ən gözəl köməkçidir. Harada ki, vicdan sızıldayır - demək, nə isə bir diqqətsizlik, naqislik olub, nəyisə düzəltmək, kiminləsə halallaşmaq gərəkdir. Düşünən insan üçün böyük ibrətlər müəyyən etmişdir dinimiz.

## Söz eşitmək qabiliyyəti

Hədisdə toxunulan üçüncü məqam insanın nəsihət qəbul etmə mərifətinə, söz eşitmək qabiliyyətinə aiddir. Həzrət Əli (ə) buyurur: **"Xoş olsun, ona yol göstərən nəsihətçiyə tabe olan və onu məhvə sürükləyən azğından uzaqlaşanın halına".**

Hədisdən məlum olur ki, dinimizin nəzərində nəsihətçi o kəs hesab olur ki, insana doğru yolu göstərir. Əks tərəfə yönələn, nəinki nəsihətçi hesab olunmur, İslamın nəzərində o, azğın bir kəsdir. Beləsinə qulaq asmaq nəticəsində, insanın məhvə sürükləndirildiyi barədə xəbərdarlıq edilir. Nəsihətin doğru-yanlışlığının da dəqiq meyarı vardır - əgər bir kəsin dedikləri Quranla, İlahi tövsiyələrlə, Həzrət Peyğəmbərimizin (s) və məsum İmamların (ə) buyuruşları ilə uyğun gələrsə - düz, bunlara ziddirsə - tənəzzülə aparan bir amillərdir.

Həzrət Əlidən (ə) nəql edilən digər bir hədisdə deyilir: **"Nəsihəti qəbul etməkdən boyun qaçıran şəxs məhv olar".**

Gördüyümüz kimi, imanın təzahürü olan nəsihət eşitmək qabiliyyətindən məhrum bir durumda olmaqlıq, insanı məhvə sürükləyən bir amil kimi qətiyyətlə pislənilir. Bu sıraya, o cümlədən, təkəbbürlük nişanəsi kimi - "mənə heç kəsin məsləhəti-filanı lazım deyil, mən özüm hər şeyi bilirəm" məfkurəsinin daşıyıcılığı da aiddir, digər motivlər ucbatından xoşməramlı nəsihəti eşitməməyə üstünlük verməklik də.

İmam Muhəmməd Baqirdən (ə) nəql edilən hədisdə isə yaxşı və pis məsləhət sahiblərinə münasibət barədə söz açılır: **"Səni ağladan, amma sənin xeyrini istəyən şəxsə tabe ol, səni güldürən, amma sənə qavrşı hiyləgərlik işlədənə isə tabe olma".**

İnsan gərək tərəf müqabilinin onda yaratdığı aldadıcı emosiyalara deyil, bu insanın ona göstərən yolun keyfiyyəti barədə düşünsün. Bu məsələdə ən yaxşı məsləhətçi - vicdan və əqldir. İnsan gərək dost-düşməni bu iki köməkçisinin süzgəcindən keçirərək ayırd etsin, ona təklif edilən seçimin mahiyyətinə varsın.

## Nəsihət verən necə olmalıdır

Nəsihət verən şəxsin keyfiyyətləri barədə dinimizin açıqlamalarına da qısaca toxunaq. Həzrət Rəsuli-Əkrəmdən (s) nəql edilən hədisdə həqiqi mənada nəsihət verən, müsbət yola yönəldən şəxsi tanımağın meyarları göstərilmişdir: **"Nəsihət verən şəxsin 4 nişanəsi var: o, haqq hökm çıxarır; özündənsə, başqalarına haqq qazandırır; özü üçün bəyəndiyini başqaları üçün də bəyənir; və heç kəsə (heç kəsin haqqına) əl uzatmır".**

Əgər insan yaxın-uzaqlığına, qohum-özgəliyinə baxmayaraq, ədalət və vicdanı rəhbər tutaraq qərar verirsə, əgər özünü daima təmizə çıxarmağa çalışmırsa, əksinə - digərlərini nəcabətli və şərafətli durumda təqdim etməyə üstünlük verirsə, əgər başqasına yalnız onu qıyır ki, nəyi özünə rəva bilir və heç kəsin haqqını pozmursa - beləsinin tövsiyə və məsləhətlərinə rahatlıqla riayət etmək olar. Bu cür şəxs adama pislik istəməz, onu problemə salmaz. Ümumilikdə İslam tarixini, o cümlədən, Kərbəla vaqiəsini, İmamlarımızın (ə) həyatını, onların ardıcıllarının, övliyaların həyatını nəzərdən keçirsək, görərik ki, hər bir şəraitdə, hər bir halda ədalət və mürüvvəti rəhbər tutanlar ümməti işığa doğru aparanlar olmuşdur.

Yuxarıda gətirilmiş hədisə qayıdaraq, yekunda deyə bilərik ki, təhlil, İlahi tofiqata layiq olanların, özlərini moizə edənlərin, saleh əməl sahiblərinin nəsihətlərinə diqqətlə yanaşanların nicat tapmalarını, bu 3 xüsusiyyətdən məhrum olan insanların isə mənəvi zənginlikdən, tərəqqidən kənarda qaldıqlarını göstərir. Və Uca olan Allahdan diləymiz budur ki, cəmi insanlara bu gözəl xüsusiyyətlərə malik olmağı nəsib etsin!

**Allahım, bizləri dünya və axirətdə Həzrət Peyğəmbər (s) və Əhli-Beyti (ə) ilə birgə et!**

**Allahım, ümmətin elmlənməsini, qarşıda duran müşküllərin həllini nəsib et!**

**Allahım, gənclərin elmli və mərifətli, ağsaqqalların vüqarlı və müdrik, qadınların iffətli və dəyanətli, ümumilikdə bütün ümmətin ləyaqətli və fədakar, laqeydlikdən uzaq bir durumda olmasını nəsib et!**

**Allahım, işğal altında olan torpaqların, ilk növbədə Qarabağ və Qüdsün azad olmasını, 12-ci İmam Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini nəsib et! Amin!**

YENİ MÜSAVAT
N 270 (6298) 4 dekabr 2015

# “Dərnəgül bazarı” iflas həddində

## “Alıcı yoxdur, qəpik-quruş üçün metal yığıb satırıq”

**Azərbaycanda iqtisadiyyatın bir çox sahələrində yaşanan böhran tikinti sektorunda da durğunluq yaradıb. Paytaxtda gedən iri tikinti layihələri ilə yanaşı, fərdi tikililər də dayandırılıb. Belə demək mümkünsə, nə dövlətin, nə də vətəndaşın tikintiyə ayıracaq pulu qalmayıb.**










Bu vəziyyət də özünü ilk növbədə tikinti materialları bazarında göstərir. Əgər manatın devalvasiyasından sonra tikinti bazarında qiymətlərin artması səbəbindən durğunluq yaranmışdısa, indi bunun səbəbi insanların iqtisadi durumunun zəifləməsidir.

Məlum olduğu kimi, devalvasiyadan sonra tikinti materiallarının qiymətində bahalaşma qaçılmaz oldu. Əksər materialların qiyməti 30 faiz artdı. Hazırda isə alıcılıq olmadığından, bazarda tələb azaldığından tikinti materiallarının qiyməti sürətlə ucuzlaşır.

Bazarda vəziyyətin necə olmasını, mövcud qiymətləri öyrənmək üçün paytaxt əhalisinin, o cümlədən iri şirkətlərin topdan alış-veriş etdiyi ticarət mərkəzi olan “Dərnəgül bazarı”na yollandıq.

Kifayət qədər böyük bir sahəni əhatə edən bazarın tikinti materialları olan hissəsinə baş çəkib satıcılarla həmsöhbət olduq.

Bazarda durğunluq hiss olunurdu. Alıcıların hər zaman çoxluq təşkil etdiyi bazarda indi çarəsiz satıcılardan başqa kimsə gözə dəymir. Boş yük maşınları, müştəri gözləyən taksilərin çoxluğu alıcılığın zəif olmasından xəbər verirdi.

Tikinti materiallarının qiymətinə gəlincə, ən çox sement, daş və kirəmitlərin qiymətində ucuzlaşma var. Belə ki, 5 manata satılan “Mətanət A” sementləri indi 4 manat 60 qəpiyə, bir daşın qiyməti isə 40 qəpikdən 30-32 qəpiyə enib. Digər tikinti materiallarında isə cüzi qiymət azalması müşahidə olunur.

Bazarda işləyən, alıcıların aldığı materialların maşınlara yüklənməsi ilə məşğul olan fəhlələr isə bekarçılıqdan bir yerə toplaşıb dərdləşirdilər.

Satıcılar bizimlə söhbətində bildirdi ki, son 2-3 ayda bazarda alıcılıq sıfıra bərabərdir: “Tikinti materiallarının satışı dayanıb. Alıcılıq aşağı səviyyədədir. Son aylar bu sahədə durğunluq yaranıb. Səbəbi isə iri tikinti şirkətlərinin işlərini dayandırmasıdır. Pərakəndə alıcıdan çox topdansatışlar olurdu. Bu satışlar da həmin şirkətlərin hesabına həyata keçirdi. İndi isə gördüyünüz kimi bazarda seyrəklikdir. Gün ərzində 3-5 alıcı olur, onlar isə xırda təmir işləri üçün materiallar alırlar”.

**Sahibkarlar onu da dedi ki, bu cür durğunluq “Dərnəgül bazarı”nı çökdürə bilər:** “Dolların bahalaşmasından sonra bazarda vəziyyət daha da acınacaqlı duruma düşdü. Tikinti materiallarının satışı ilə məşğul olan bir çox obyektlər bağlandı. Son 1-2 aydır ki, bazarda adam tapmaq olmur. Bu günlərdə daha bir neçə obyekt də bağlandı. İcarə haqqını verə bilmədilər. İcarə haqlarında güzəştlər olsa belə, alver olmadığı üçün hər ay büdcəmizdən ”yeməklə" müflisləşirik. Ziyanın yarısından qayıtmaq da xeyirdir. Məcburuq obyektimizi bağlayaq".

**Taksi xidməti və yükdaşımada çalışan sürücülər isə bazardakı sönüklüyün onların da qazancına təsir etdiyini dedilər:** “İllərdir ki, bazarda işləyirik. Dolanışığımız ”Dərnəgül bazarın"da yük daşımaqla çıxır. Bu bazarın hesabına ayaqda qalırdıq. Lakin bu ildən bazarda ruzi-bərəkət qalmayıb.1 aydır ki, iş yoxdur. Son günlər obyektlər bağlanır. Bundan əlavə, bazarda alıcı da gözə dəymir. Bizim də işimiz alıcıdan asılıdır. Gündə 3-5 manata işləyirik. Taksi çox, iş yox..."

**Bazardakı durğunluq fəhlə sinfini də işsiz qoyub. Alıcılığın olmaması müxtəlif sahələrdə günəmuzd işləyən fəhlələri qazancsız qoyub. Gündəlik 10-15 manata işləyən fəhlələr günorta saatlarına kimi 1 manat belə qazana bilmədiklərini dedilər:** “Səhər saatlarından bazardayıq. Bir nəfər belə 1 metr taxta almayıb. Pərakəndə alarkən alıcının bizə ehtiyacı olmur. Bizim qazancımız yalnız topdan taxta satışı zamanı yaxşı olur. Taxtanın hər kubmetrinə görə pul alırıq”.

**Fəhlələr iş olmadığı halda bazarda metal yığmaqla gündəlik çörək pullarını çıxardıqlarını deyirlər:** “Uzun fasilələrdə bazarın ərazisində dəmir, alüminium və başqa metal əşyalar toplayaraq satırıq. Kiloqramını 8-10 qəpikdən satıb cibxərcliyi edirik. Bazarın içində dəmir vaqonda qalırıq. Qazancımız az olduğu üçün normal kirayə mənzildə yaşaya bilmirik”.

Bazardakı durğunluq təkcə satıcı, fəhlə, yük maşınları sürücülərini deyil, eyni zamanda ərazidəki yeməkxana işçilərinin də cibini boş qoyub. Mövcud durum səbəbindən bazarda xidmət göstərən yeməkxanalar da müştərisiz qalıb.

**Bazar işçilərinə yemək daşıyan Xatın adlı aşpaz müştərilərin azaldığını dedi:** “Yeməklər 2-3 manat arasındadır. Günorta saatları olmasına baxmayaraq yeməklər əlimdə qalıb. ”Padnos" əlimdə bazarı gəzirəm. Hələ eləməmişəm, çox adam nisyə yemək istəyir. Bir sözlə, bazarda alverin olmaması bizimdə vəziyyətimizi çətinləşdirir".

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


# “Nar “BakuTel sərgisində” “Cloud” korporativ xidmətini təqdim etdi

## Mobil rabitə bazarında ilk dəfə olaraq məlumatların bir mərkəzdə təhlükəsiz cəmləşməsinə imkan verən “Cloud” xidməti təqdim edildi




**“Nar” BakuTel-2015 21-ci beynəlxalq “Telekommunikasiya və informasiya texnologiyaları” sərgisində iştirak edir. Mobil operator hər il olduğu kimi bu il də özünün ən son yeniliklərini - innovativ məlumat bazası olan “Cloud” xidməti və 4G (LTE) yüksək sürətli internet bağlantısını təqdim etdi. Qeyd etmək lazımdır ki, “Nar” mobil operatorunun təqdim etdiyi 4G (LTE) və 3G (HSDP+) şəbəkəsindən daha genişi ölkədə mövcud deyil.**

**“Cloud” Azərbaycanın mobil rabitə bazarında ilk dəfə olaraq “Nar” tərəfindən təqdim olunan təmamilə yeni bir məhsuldur. “Cloud” xidməti bütün məlumatların bir mərkəzdə cəmləşməsinə imkan verən, məlumatın təhlükəsizliyini təmin edən və sistemin davamlı mükəmməlləşməsinə şərait yaradan bir yenilikdir. Bu innovativ məlumat bazasına müxtəlif cihaz və yerlərdən qoşulmaq mümkündür. Məlumat bazasına daxil olan bütün mənbə və ya qurğular eyni fayl üzərində əməliyyat aparırlar.**

**«BakuTel» sərgisi çərçivəsində “Nar” mobil operatorunun kütləvi informasiya vasitələrinin təmsilçiləri ilə növbəti görüşü də baş tutdu. Mətbuat nümayəndələrini son nailiyyətləri ilə yaxından tanış edən “Azerfon” MMC-nin baş icraçı direktoru Kent Maknili “Nar” mobil operatorunun 2015-ci il ərzində keçdiyi inkişaf yolundan danışdı.**

**“Şəbəkəsinin genişləndirilməsini hər zaman özünün başlıca prioritetlərindən biri hesab edən ”Nar" cəmi 2 il ərzində şəbəkənin həcminin 2 dəfədən çox artırılmasına nail olub. LTE şəbəkəsindən istifadə etmiş abunəçilərin sayı isə 10 min nəfəri keçmişdir. Qarşıdan gələn il ərzində “Nar” LTE şəbəkəsini 1000 baza stansiyasınadək genişləndirməyi və dünyada ən sürətli naqilsiz internet bağlantısı sayılan LTE Advanced (LTE-A) texnologiyasının tətbiqini planlaşdırır. Digər bir yeniliyimiz isə Azərbaycan rabitə bazarında ilk dəfə olaraq “Nar” mobil operatorunun təqdim etdiyi “Cloud” xidmətidir. Bu xidmət sayəsində davamlı və kəsintisiz işləmə fürsəti qazanmaq, bütün prosesləri nəzarətdə saxlamaq və informasiya texnologiyalarına sərf edilən vəsaitə qənaət etmək mümkün olacaqdır", - deyə “Azerfon” şirkətinin baş icraçı direktoru Kent Maknili qeyd etdi.**

**Qeyd edək ki, “Cloud” xidməti elektron poçt, ofis proqramları, datanın təhlükəsiz saxlanması xidmətlərini təmin edir və məlumatın birgə istifadəsinə imkan yaradır.**

# “BakuTel 2015" sərgisində 4G+ mobil internet şəbəkəsinin imkanlarını nümayiş etdirən «Bakcell» şirkəti Azərbaycanda indiyə kimi görünməmiş 225 Mbit/saniyəyə qədər sürəti təqdim etdi





**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti hazırda Azərbaycanda ən sürətli sayılan və operatora bir-birindən maraqlı yeni xidmətlər təklif etmək imkanı verən 4G+ (LTE A) mobil internet şəbəkəsinin funksional imkanlarını nümayiş etdirir. Bu və bir çox digər yenilik və nailiyyətləri “BakuTel 2015" sərgisində «Bakcell» şirkətinin stendində görmək və real həyatda sınaqdan keçirmək mümkündür.**

**Sərgiyə gələn ziyarətçilər «Bakcell» şirkətinin təqdim etdiyi super yüksəksürətli 4G internetini təcrübədən keçirmək və 4G limitini kəşf etmək üçün quraşdırılmış xüsusi velosipeddən istifadə edərək onun imkanları ilə əyləncəli bir şəkildə tanış olacaqlar. «Bakcell» stendinin qonaqları ilk olaraq ən son LTE texnologiyası - 4G+ və ya “LTE-Advanced” xidməti sayəsində 225 Mbit/saniyəyə qədər sürətlə mobil interneti təcrübədən keçirmək imkanı qazanırlar.**

**«Bakcell» özünün ən müasir 4+ (LTE Advanced) şəbəkəsinin imkanlarını nümayiş etdirmək üçün ölkənin ən qabaqcıl informasiya texnologiyaları sərgisini - ”BakuTel"i seçdi. LTE xidmətini istifadəyə verdikdən sonra bu gün biz qürur hissi ilə deyə bilərik ki, abunəçilərimizin artan tələbatlarını qarşılamaq üçün şirkətimiz ölkədə ən geniş mobil rabitə şəbəkəsinə və əhəmiyyətli internet tutumuna malikdir. Biz LTE şəbəkəmizin inkişafına sərmayə qoyulması istiqamətində səylərimizi gələcəkdə də davam etdirəcəyik və bu, «Bakcell» şirkətinin Azərbaycanda ən böyük 4G operatoru kimi mövqeyini daha da möhkəmləndirəcək, ölkədə mobil rabitə sahəsinin inkişafını stimullaşdıracaq. Abunəçilərimizin mobil internetə olan tələbatı durmadan artır, onlar internet xidmətinin daha sürətli, daha keyfiyyətli və hər yerdə mümkün olmasını istəyir. Bu tələbatı qarşılamaq üçün «Bakcell» şirkəti 4G şəbəkəsinin genişləndirilməsini və 4G+ xidmətinin istifadəyə verilməsini prioritet məsələ kimi diqqət mərkəzində saxlayır", - deyə «Bakcell» şirkətinin baş icraçı direktoru cənab Riçard Şirer bildirib.**

**Yeni təqdim etdiyi “Qoş və Coş” platforması çərçivəsində «Bakcell» şirkəti video yayım xidməti daxil olmaqla bir çox maraqlı xidmətlər təqdim edəcək. Bunlardan biri rəqəmsal televiziya yayımı sahəsində Türkiyənin aparıcı platforması olan “Digiturk” şirkəti ilə birgə əməkdaşlıq çərçivəsində təqdim olunan və 100-ə yaxın məşhur kanalı, o cümlədən “Lig TV”-ni canlı izləmək imkanı verən yeni xidmətdir.**

**Azərbaycanın informasiya və kommunikasiya texnologiyaları sektorunun inkişafında şirkətin əvəzolunmaz rolunun təsdiqi olaraq, «Bakcell» “BakuTel 2015" sərgisinin ”Telekommunikasiya partnyoru" seçilib.**

**«Bakcell» şirkəti “BakuTel 2015" sərgisinə gələn bütün ziyarətçiləri öz stendinə dəvət edir və onlara xoş və əyləncəli mühitdə ən son texnologiyalardan istifadə edərək imkanı vəd edir.**

YENİ MÜSAVAT

Son səhifə

N 270 (6298) 4 dekabr 2015




## 74 dəqiqə yaşadı, həyat qurtardı

Cəmi 74 dəqiqə yaşadıqdan sonra həyata gözlərini yuman Hope adlı yeni doğulmuş qız İngiltərənin ən gənc donoru olub. Məlumatlara görə, Hopenin böyrəkləri gənc bir xəstəyə köçürülüb. Qaraciyər hüceyrələri də başqa bir xəstənin həyatının xilas edilməsi üçün istifadə edilib. Hopenin anası Emma və atası Drev Lee onun əkizinin yaşadığını və bunun onlar üçün böyük təsəlli olduğunu deyib. Məlumatlara görə, Hope ana bətnində 13 həftəlik olduğu zaman onun beyninin inkişafına əngəl olan virus daşıdığı məlum olsa da, ana uşağı dünyaya gətirməkdən vaz keçməyib.



## Günahı olmadan 13 il həbsdə yatdı

13 ildir Guantanamo həbsxanasında saxlanılan Mustafa əl Əziz əl Şamiri adlı məhkumun sadəcə ad bənzərliyinə görə 13 ildir həbsdə saxlanıldığı üzə çıxıb. 37 yaşlı yəmənli gəncin "əl-Qaidə"nin adamı olmadığı və terror təşkilatının yanında qalmadığı məlum olub. Lakin onun "əl-Qaidə" ilə birlikdə çalışdığı haqda faktlar var. 13 il həbsdə yatan əl Şamirinin adının kiməsə bənzədiyi deyilir. Bəzi raportlarda isə 1995-ci ildə Bosniyada, 1996-cı ildə Yəməndə, 2000-ci ildə isə Əfqanıstanda terror təşkilatı adına mübarizə apardığı göstərilir.

# Bananın kökü kəsilə bilər



Araşdırmalar nəticəsində məlum olub ki, "Panama göbələyi" adlanan xəstəlik banan ağaclarının məhvinə səbəb ola bilər. Hollandiyada araşdırma aparan mütəxəssislər "Panama göbələyi" xəstəliyinin qısa müddət ərzində Latın Amerikasına keçməsindən narahat olduqlarını bildiriblər. Əgər xəstəlik Latın Amerikasına keçərsə, bir daha orada banan yetişməyəcək. Əgər xəstəlik sözügedən ərazidə yayılarsa, banan sektoruna 7 milyard dollarlıq zərər deyəcək. Həmin xəstəlik 1960-cı ildən bəri Asiyada banan bazarına ciddi zərər verir. Hazırda xəstəlik digər qitələrə də sıçrayır və bananın yetişməsinə zərər dəyir.

# Balıq və yoqurt depressiya riskini azaldır

Tərkibində probiotiklər olan yoqurtları müntəzəm yemək depressiyanın inkişaf riskini azaldır, ümumi emosional fonu yaxşılaşdırır. Leyden Universitetinin (Hollandiya) mütəxəssisləri 40 nəfərin iştirak etdiyi tədqiqatın nəticələrinə əsasən bu qənaətə gəliblər. Alimlər tədqiqatın sonunda müəyyən ediblər ki, 4 həftə probiotikli preparatlar qəbul edənlər özlərini daha yaxşı hiss ediblər: onlar xoşagəlməz fikirlərdən uzaq olublar, yuxudan asanlıqla oyanıblar. Balığın qadınlarda depressiya riskini yüzdə 25 azalda biləcəyi təyin olunub. Avstraliyadakı Tazmanya Menzies Araşdırma İnstitutundan elm adamlarının araşdırması həftədə ən az iki dəfə balıq yeməyin qadınları depressiyadan qoruya biləcəyini göstərib. 26-36 yaşındakı 1400-dən çox qadın və kişinin qatıldığı, 5 il davam edən araşdırma balığın tərkibindəki elementlərin beynin düzgün fəaliyyət göstərməsini təmin edə bildiyini isbatlayıb. Araşdırmanın nəticələri "American Journal of Epidemiology" jurnalında dərc olunub.






## Twitterdən maraqlı cəza

Braziliyada irqçiliyə qarşı olanlar sosial media üzərindən mübarizəyə başlayıblar. Twitter sosial şəbəkəsinin irqçiliyə qarşı apardığı kampaniya isə olduqca maraqlıdır. Braziliyada zəncilərin müdafiəsi ilə məşğul olan "Criloa" Cəmiyyətinin başlatdığı kampaniya digər ölkələrə nümunə ola bilər. "Racismo Virtual, Consequencias Reais" adlı kampaniya çərçivəsində facebook və twitter sosial şəbəkələrində yazılan irqçi mesajlar böyük reklam kağızlarına yazılır və onu yazanın evinin qarşısına asılır. Mesaj sahiblərinin evi xüsusi proqramla tapılır və mesaj sahibi yazdığı mesajı səhər oyandığı zaman evinin qarşısında görür.




**QOÇ** - Ətrafınızda olan insanlarla mehriban ünsiyyət yaradın ki, çətinə-dara düşəndə dəstək almağa yeriniz olsun. İşlə bağlı atacağınız addımları dəfələrlə götür-qoy edin. Daha səmimi olun.

**BUĞA** - Əgər işləyirsinizsə, müəyyən mübahisələrlə rastlaşma ehtimalınız var. Bunu nəzərə alıb rəhbərliklə, eləcə də həmkarlarınızla mübahisələrdən yayının. Sərt mövqe nümayiş etdirməkdənsə, təmkinli olun.

**ƏKİZLƏR** - Göy qübbəsi bu təqvimi bütünlüklə sevgiyə həsr etməyinizi məsləhət görür. Yersiz qısqanclığa yol verməyin. Səmimi olun ki, rəğbət qazanasınız. Nahar ərəfəsində sürprizlər mümkündür.

**XƏRÇƏNG** - Dekabrın ən uğurlu günlərindən birini yaşayacaqsınız. İstər şəxsi büdcənizdə, istərsə də fəaliyyət zəminində uğurlarınız artacaq. Təşəbbüskarlığı mümkün qədər əldə saxlayın.

**ŞİR** - Kənar məsləhətlərdən nə qədər uzaq olsanız, bir o qədər rahatlıq tapacaqsınız. Yaxşı olar ki, ciddi qərarları yalnız ürəyinizin səsinə uyğun verəsiniz. Ümidsizlikdən uzaq olun.

**QIZ** - Sevgi münasibətlərini tənzimləmək üçün aktivliyinizi artırın. Daxili narahatçılığınızı aradan qaldırmaq istəyirsinizsə, qarşı tərəfə güzəştə gedin. Uzaq yola çıxmağa dəyər.

**TƏRƏZİ** - Yaxşı olar ki, bu gün fəaliyyətə bir qədər ara verəsiniz. Vaxtınızı daha çox əyləncə və səyahətlərə sərf edin. Axşama yaxın səhhətinizin qayğısına qalın. Ailə üzvlərinizlə mehriban davranın.

**ƏQRƏB** - Perspektivli görüşlərdə iştirak etmək üçün ulduzlar sizə yardımçı olacaqlar. Aldığınız təkliflər gələcək həyatınızda təkan rolunu oynayacaq. Odur ki, aktivliyinizi artırmalısınız.

**OXATAN** - Təzə xəbərlər yolunuzu gözləyir. Bu, daha çox yeni iş təklifləri və ya fəaliyyətdə sıçrayışlarla bağlı gözləntilərdir. Günün ikinci yarısında ürəyinizcə olan hadisələrlə rastlaşacaqsınız.

**OĞLAQ** - Əsəblərinizi gərginləşdirə bilən olaylara həvəs göstərməyin. Bütün umu-küsüləri bir tərəfə atıb reallığa uyğun hərəkət edin. Əsasən də ailə-sevgi münasibətlərinə diqqət ayırın.

**SUTÖKƏN** - Daxili sıxıntılarınızın artdığı bir ərəfədə mübahisəli situasiyalara meyl etməyin. Ümumiyyətlə, bu gün vaxtınızın çox hissəsini mənzil şəraitində keçirməyiniz məsləhətdir.

**BALIQLAR** - Ulduzların düzümü bu tarixdə xeyli işləyəcəyinizdən xəbər verir. Lakin buna görə usanmağınız əbəsdir. Çünki əziyyətinizin bəhrəsini mütləq görəcəksiniz. Həvəsiniz olsa, axşam qonaq gedin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 4 biletin ikisi qazandı




ABŞ-ın Kaliforniya ştatında yaşayan Rodny Medovsunun şansı hər kəsi şoka salıb. Belə ki, Rodny iki bilet aldığı zaman biletlərdən birinin min dollar qazandığını öyrənib. Qazandığı pulun bir hissəsinə isə yenidən lotereya bileti alıb. Yeni aldığı iki biletdən biri isə ona 10 milyon dollar qazandırıb. Milyoner olduğu öyrəndiyi zaman nə edəcəyini bilmədiyini deyən Rodny pul qazanacağına inanmadığını deyir. O, 10 milyon qazandığına inanmadığı üçün bileti iki dəfə yoxlatdırıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300